# PSİXOLOGİYA JURNALI

*Elmi-praktik jurnal*

*1999-cu ildən nəşr olunur* **2020 №4** *3 ayda bir dəfə nəşr olunur*

## ÜMUMİ PSİXOLOGİYA

*Quliyev Çapay Q.*
Naxçıvan xalçalarında işlənmiş təsvirlərin və rənglərin tarixi etnopsixoloji əsasları ........................................3

*Əlizadə Şəbnəm Ş.*
Yeniyetməlik dövründə internet asılılığının aqressiv davranışın formalaşmasında rolu ........................................9

*Kazımov Pərviz K.*
Situasiya mühakimə testləri dövlət qulluğu vəzifələrinə namizədlərin seçiminin keyfiyyətini artıran amil kimi ........................15

## SOSİAL PSİXOLOGİYA

*Cabbarov Rəşid V., Mustafayev Müşviq H.*
Müasir dövrdə yeniyetmə və gənclərdə dəyərlərin transformasiyasının istiqamətləri ........................................34

## PEDAQOJİ PSİXOLOGİYA

*Məmmədova Pərvanə İ.*
Psixologiyada fikri əməliyyatlar probleminin qoyuluşu və təlim prosesində inkişaf etdirilməsi yolları ........................................51

## TİBBİ PSİXOLOGİYA

***Rəhimova Mirvari M.***
Psixi sağlamlıq və sağlam həyat tərzi problemi..........................................60

## PSİXOFİZİOLOGİYA

***İslamlı Şəbnəm X.***
Yuxu və yuxuların psixofiziologiyası .......................................................68

## HÜQUQ PSİXOLOGİYASI

***Əliyeva Əsmər M.***
Cəzaçəkmə müəssisələrində məhkumların autoaqressiv davranışının psixoloji xüsusiyyətləri ........................................................................73

UOT: 159.922.4:316.77(076)

# NAXÇIVAN XALÇALARINDA İŞLƏNMİŞ TƏSVİRLƏRİN VƏ RƏNGLƏRİN TARİXİ ETNOPSİXOLOJİ ƏSASLARI

**Çapay Quliyev,**

*Psixologiya üzrə fəlsəfə doktoru*
*Naxçıvan Müəllimlər İnstitutu*
*Heydər Əliyev prospekti 2, AZ7000*
*chapay81@yahoo.com*

***Açar sözlər:*** *Naxçıvan xalçaları, naxış, rənglər, bəzək elementləri*
***Keywords:*** *Nakhchivan carpets, ornament, colors, decorative elements*

## GİRİŞ

Hər bir xalqın yaradıcılıq ünsürləri onun tarixi taleyi, psixoloji xüsusiyyətləri, həyat şəraitini özündə əks etdirir. Azərbaycan xalqının da tarixən özünəməxsus xüsusiyyətləri ilə seçilən müxtəlif yaradıcılıq ünsürləri olmuşdur ki, bunlardan biri də Azərbaycan xalçalarıdır. Azərbaycan xalçaları içərisində öz qədim tarixi, zəngin rəng çalarları və üzərində işlənmiş müxtəlif arnamentləri ilə seçilən Naxçıvan xalçaları xüsusi yer tutur.

Naxçıvan xalçalarını incələməklə burada yaşayan insanların tarixi-psixoloji taleyi, onların xarakter xüsusiyyətləri və həyat şəraiti haqqında mühüm məlumatlar əldə etmək mümkündür.

Psixologiya elmləri doktoru, professor Ramiz Əliyevin fikirlərinə görə hər bir xalqın tarixi taleyi onun psixoloji taleyini şərtləndirir. Ramiz Əliyev Azərbaycanlıların tarixi-psixoloji taleyini 4 əsas dövrlə əlaqələndirir. 1) İslamdan əvvəl qədim türklərə məxsus psixoloji xüsusiyyətlər. 2) İslamın gəlişi ilə islam dini dəyərlərinin xalqın xarakter xüsusiyyətlərində öz əksini tapması. 3) XX əsrin əvvəllərindən başlayaraq 71-il boyunca Azərbaycanda Sovet hakimiyyətinin təsir ilə yaranmış müxtəlif psixoloji xüsusiyyətlər. 4) Azərbaycanın müstəqillik əldə etməsi ilə əlaqədar yaranan yeni dövr və onun təsir imkanları. Professor Ramiz Əliyev onu da qeyd edir ki, xalqın psixoloji taleyi onun xarakter xüsusiyyətlərində, istiqamətində, yaradıcılıq ünsürlərində özünəməxsus şəkildə ifadə olunur [3. s 157-166].

Belə ki, Naxçıvan xalçalarının da üzərindəki təsvirləri təhlil etdikdə

onların yaşadıqları tarixi-psixoloji taleyin əks olunduğunun şahidi oluruq. Naxçıvan xalçalarında islam dininin Azərbaycana gəlişindən əvvəl daha çox qədim türklərə məxsus simgələr və naxışlar təsvir olunmuşdur. Bu naxış və simgələrdə qədim türklərə məxsus xüsusiyyətlərin təsviri olduqca ustalıqla verilməklə yanaşı həm də o dövr bu ərazidə yaşayan naxçıvanlıların hansı xüsusiyyətlərə daha çox üstünlük verdiklərinin şahidi oluruq. Bunlar mərdlik, igidlik, kişilik, birlik, insansevərlik və s. kimi xüsusiyyətlərdir ki, bu xüsusiyyətlər günümüzdə də hər bir insan psixologiyasında mühüm xarakterik xüsusiyyət kimi qiymətləndirilir. Qədim türklər bu xüsusiyyətlərin simgəsi olaraq öz möhürlərində və obalarının üzərində dalğalandırdıqları bayraqlarında öz əksini tapan şəkillərdə təsvir olunmuş qoç başı, boz qurd, qartal və s. təsvirlərdə ifadə etməyə çalışmışlar.

İkinci dövr islam dininin Azərbaycana gəlişi bu zənginliyə islam mədəniyyəti nümunələrinə aid təsvirlərində əks olunmasını özündə ehtiva edir. Belə ki, həmin dövrlərdən başlayaraq daha çox mavi, sürməyi, qırmızı rəngli kolorit həlli, naxışların bədii quruluş üslubu, günbəzlərin təsviri ilə islam mədəniyyətini əks etdirən "Namazlıq" xalçaların daha çox aktual olduğunun şahidi oluruq [4, s. 49].

Üçüncü dövr rus imperiyasının Azərbaycanı işğal etməsindən sonra başlayır ki, keçmiş SSRİ rejiminin qadağaları bu sənətdə də müəyyən deformasiyaların yaşanmasına səbəb olmuşdur. Həmin dövrün təsiri altında qədim türklərə aid simgələr və naxışlar eyni zamanda islam mədəniyyətini özündə əks etdirən naxışlar da müəyyən mənada təsviri dəyişdirilmiş şəkildə müxtəlif naxışların arasında gizlədilmiş, sanki mənası aydın olmayan naxışlara bənzədilmişdir.

Dördüncü dövr müasir dövrümüzdür ki, bu dövrdə Azərbaycanlılar öz müstəqilliyini təkrar bərpa etdi və bununla da bütün sahələrdə olduğu kimi xalçaçılıq sahəsində də yeni milli inkişaf dövrü başladı.

Naxçıvan xalçalarını iki istiqamətdə psixoloji təhlilə cəlb etmək olar. Birinci üzərindəki təsvirlərə, ikinci isə, üzərindəki rənglərin xüsusiyyətləri və onların insan psixologiyasına təsiri məsələlərini nəzərə almaqla.

Naxçıvan xalçalarının üzərindəki təsvirlərə fikir versək görərik ki, daha çox həndəsi, antropomorf, zoomorf, nəbati naxışlardan istifadə edilib [4, s. 48].

Gəlin bu naxışların tarixi və psixoloji xüsusiyyətlərini tədqiq etməklə naxçıvanlıların xalçalarda gizlənən xarakter xüsusiyyətlərini açmağa çalışaq.

Həndəsi fiqurlar: hansı ki, çoxluğun romb, kvadrat, düzbucaqlı, ulduz,

yəni, kəskin künclərdən ibarət olduğu həndəsi fiqurların üstünlük təşkil etməsi.

Müasir psixologiya elmi sübut edir ki, insanların hansı həndəsi fiquru çəkməsindən asılı olaraq onların psixoloji xüsusiyyətləri haqqında məlumat vermək mümkündür. Bu müasir psixoloji elmi biliklərə əsaslanaraq demək olar ki, Naxçıvan xalçaları üzərində çəkilən konkret həndəsi fiqurlar bu xalçaları toxuyan insanların konkret adamlar olduğunun göstəricisidir.

Konkret adam kimdir? Və nə üçün Naxçıvan xalçalarında daha çox konkret həndəsi naxışlar təsvir olunmuşdur?

Konkret adamın sözü ilə işi arasında heç bir ziddiyyət olmur. Cəmiyyətdə hər kəs ona inanır. Verdiyi sözə əməl edir. Bu mənada vaxtı ilə Qafqaza səyahət etmiş fransız səyyahı Aleksandr Duma ölkəsinə qayıtdıqdan sonra Qafqazda yaşayan millətlər haqqında yazaraq bildirir ki, azərbaycanlılardan sənəd almağa ehtiyac yoxdur onlarda bir kişi sözü var. Onlar söz verdisə qurtardı. Amma ermənilərdən sənəd alsan da ehtiyatlı ol sənəd də bəzən işə yaramır [3. s 110]. Qədim türklərə məxsus olan bu keyfiyyətlərin xalqımızın psixoloji xüsusiyyətlərində günümüzə qədər qorunub saxlanmasının şahidi oluruq.

Eyni zamanda naxçıvanlıların xarekterində olan konkretlik onların yaşadığı coğrafi mühit və iqlim şəraiti ilə də bağlıdır. Hamımıza məlumdur ki, Naxçıvanın çox kəskin coğrafi və iqlim şəraiti var. Hər bir etnos isə öz tarixi keçmişi ilə yanaşı yaşadığı coğrafi şəraitin, iqlim xüsusiyyətlərinin müxtəlif təsir imkanları ilə formalaşır ki, bütün bunlar isə onun şəxsiyyətinin əsas xüsusiyyətlərində, qabiliyyətlərində, yaradıcılıq ünsürlərində və yaşam xüsusiyyətlərində öz əksini tapır. Bu mənada Naxçıvanın kəskin kontinental iqlim şəraiti burada yaşayanların xarakterlərində konkretlik kimi yüksək keyfiyyətləri formalaşdırmış ki, bunun nəticəsi olaraq Naxçıvan xalçalarında onların əks olunmasının şahidi oluruq.

Antropomorf təsvirlər: Əvvəlcə gəlin bu sözün hərfi mənasını təhlil edək. Antropomorf yunan sözü olub insana xas olan xassə və xüsusiyyətlərin xarici təbiət qüvvələrinə və başqa varlıqlara aid edilməsi mənasını verir [4, s. 48]. Naxçıvan xalçaları üzərində insana məxsus şəkillərin təsvir olunması məhz təbiətin ən ülvi varlığının insan olması, qarşılıqlı münasibətlərin təcəssümü, dünyanı və kainatı dərk etmənin insanın özünü dərk etməsinin nəticəsində mümkünlüyü kimi ismarışların insanlara ötürülməsi kimi də qiymətləndirmək mümkündür. Eyni zamanda Naxçıvan xalçaları üzərində qadın, uşaq, ailəni ümumilikdə təsvir edən şəkillərin

olması burada yaşayan insanların qədim zamanlardan başlayaraq psixoloji xüsusiyyətlərində ailəyə bağlılıq, uşaq sevgisi və qadına hörmətin üstün mövqedə olduğunu sübut edir.

Psixologiya elmləri doktoru, professor Ramiz Əliyev Azərbaycanlıların psixoloji xüsusiyyətlərini tədqiq edərkən ailəyə bağlılığı lap qədimdən azərbaycanlıların müsbət psixoloji xüsusiyyəti kimi qiymətləndirir [3. s 171].

Zoomorf təsvirlər: Bu təsvirlər adından da göründüyü kimi qədim naxçıvanlıların həyat şəraitini özündə ehtiva edən məşğuliyyət və həyat şəraiti haqqında əsaslı məlumatlar verir. Naxçıvan xalçaları üzərində təsvir olunan zoomorf təsvirlərdə əsasən heyvan təsvirləri iki böyük qrupa bölünür: ev və yırtıcı heyvanlar. Onların içərisində isə ən çox təsadüf edilən qoç təsviridir. Bütün bunlar isə qədim naxçıvanlıların öz yaşam ehtiyaclarını heyvandarlıqla məşğul olaraq, həmişə halal zəhmətlə yaşamaq uğrunda mübarizə apararaq ödədiklərinə işarədir. Ulu babalarımız halallıq olan yerdə hər zaman xeyir bərəkət olar demişlər. Deməli müasir dövrdə azərbaycanlı psixologiyasında və bu əsasda isə naxçıvanlı psixologiyasında özünü göstərən halallıqla nəyəsə nail olmaq, özgəsinin malına göz dikməmək, yalnız özünə deyil ümumilikdə bəşəriyyətə xeyir vermək kimi gözəl xarakter xüsusiyyətlərin hələ qədim zamanlardan bəri daşıyıcıları olduğumuzu əslində xalçalarımızdakı təsvirlərdə açıq aydın görmək mümkündür.

Nəbati təsvirlər: nəbati sözünün Azərbaycan dilinin izahlı lüğətində hərfi mənası nəbata aid olan, bitkidən alınan, nəbat (bitki) şəklində olan deməkdir. Bu mənada nəbati təsvirlər xalçalardakı naxışların təbiətlə əlaqəsini birbaşa əks etdirir ki, bu da naxçıvanlılarda təbiəti sevmək, estetik hisslərin inkişaf səviyyəsinin əsas göstəricisidir. Müəllifləri Ə.Bayramov və Ə.Əlizadə olan psixologiya adlı dərs vəsaitindən oxuyuruq. "Estetik hisslər təbiətin, incəsənət əsərlərini, dərk etməklə əlaqədardır. Çünki insanlar ictimai təcrübədə dünyanın gözəlliyini də əks etdirmək qabiliyyəti əldə etmişlər [1, s. 176]. Deməli ictimai təcrübə əsasında dünyanı dərk edən naxçıvanlılar ətraf aləm haqqındakı öz estetik təsəvvürlərini hissi fonda məhz xalçalarda əks etdirməyə çalışmışlar.

Füsunkar təbiət mənzərələri, yaşıl çəmənlər, güllü-çiçəkli yamaclar, şırşır axan bulaqlar, aylı gecələr, quşların nəğməsi və s. insanda estetik hisslər doğurur [1, s. 176]. Naxçıvan xalçalarındakı nəbati təsvirlər Naxçıvan təbiətinin zənginliyindən, gözəlliyindən xəbər verir ki, burada yaşayan insanlar bu təbiət zənginliyi içərisində mənəvi zənginliyin yüksək zirvəsinə çatmışlar ki, bunları öz yaradıcılıq ünsürlərinə

köçürə bilmişlər. Naxçıvanlıların bu qabiliyyəti onların qədimdən günümüzə kimi gəlib çatan estetik duyumlarının və mənəvi zənginliklərinin göstəricisidir.

Yüksək estetik zövqə sahib olan naxçıvanlılar təbiətin gözəlliyi və rəngarəngliyini duyaraq oradakı rənglərdən bir-birinə bağlı şəkildə istifadə etməyə başlamışlar. Naxçıvan xalçalarındakı rənglərə nəzər salsaq əsasən əlvan rənglərdən istifadənin şahidi oluruq. Psixologiya elmi sübut edir ki, insan əlvan rənglərin əhatəsində olanda onda, həyat enerjisini yüksəldən hisslərin yəni "stenik" hisslərin yaranması baş verir. Bunun nəticəsində insan özünü daha yaxşı hiss edir. Onun psixoloji sağlamlığı bərpa olur, ətrafında baş verənlərə daha sağlam düşüncə ilə baxır, onlara münasibətdə obyektiv olur. Bütün bunlar isə şəxsiyyətlərarası münasibətlərin daha səmimi və işgüzar istiqamətdə formalaşması üçün əsas amil rolunu oynayır [1, s. 161].

Naxçıvan xalçalarında istifadə olunan ağ, yaşıl, qırmızı, sarı, mavi və s. rənglərin ayrı-ayrılıqda psixoloji xüsusiyyətlərinə toxunaraq onları təhlil edək.

Ağ rəng: əsasən təmizlik, məsumluq, sərinlik, düzgünlük, və aydınlıq rəngi olaraq xarakterizə olunur. Naxçıvan xalçalarında bu rəngdən istifadə bu insanların xarakter əlamətlərində məhz həmin rəngin xarakterik cəhətlərinin çoxluğunun işarəsidir. Eyni zamanda bu insanlar həddən artıq səliqəlidir. Bunu bizim milli bayramımız olan Novruz bayramı adət və ənənələrində də görmək mümkündür.

Yaşıl rəng: təbiətin əsas rənglərindən biri olub daha çox rahatlıq və sağlamlıq rəngi kimi qiymətləndirilir. İnsan yaşıl rəngin əhatəsində özünü olduqca sakit və rahat hiss edir. Eyni zamanda bu rəngi sevən insanlar prinsipiallıqları ilə də seçilirlər. Yəni onlarda xüsusi bir qələbə əzmi müşahidə olunur.

Qırmızı rəng: bu rəng həyat rəngi olmaqla yanaşı həmçinin güc, dinamizm, mətanət, əzm və məhəbbət rəmzi kimi də götürülür.

Mavi rəng: bu rəng də təbiətdə ən çox var olan rənglərdəndir. Həm psixologiyada həm də el arasında məsumluq, dürüstlük, sülhsevərlik, firavanlıq, sakitlik deməkdir.

## NƏTİCƏ

Yuxarıda da qeyd etdiyimiz kimi, hər bir xalqın psixoloji xüsusiyyətləri onların yaradıcılıq ünsürlərində öz əksini tapır. Naxçıvan xalçalarındakı əlvan rənglər naxçıvanlıların xarakter xüsusiyyətlərində həyatsevərlik, gümrahlıq, yüksək enerji, sağlam düşüncəli və səmimi şəxsiyyətlərarası münasibətlərə sahib xüsusiyyətlərin üstünlük təşkil etməsinin sübutudur.

Bütün bu deyilənləri yekunlaşdıraraq demək istəyirik ki, Naxçıvan xalçaları gözoxşayan zənginliyi ilə naxçıvanlıların psixoloji xüsusiyyətlərinin dərinliyini özündə təcəssüm etdirir.

***Ədəbiyyat:***


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya (dərslik). Bakı: "Çinar–Çap" nəşriyyatı, 2002, 620 s.
2. Bayramov Ə.S. "Etnik psixologiya". Bakı: Renessans, 2001, 374 s.
3. Əliyev R.İ. Etnopsixologiya: Qloballaşma və millilik. Bakı: Nurlan, 2007, 180
4. Muradov V. Azərbaycan xalçaçılıq sənəti, Bakı: "Elm", 2013, 131 s.
5. Muradov V. Naxçıvan xalçaları, Bakı: "Elm", 2013, 156 s.


## ETNOPSYCHOLOGICAL PECULIARRITIES OF DESERPTIONS AND COLORS USED IN NAKHCHIVAN CAPTERS

***Chapay Guliyev***

### ABSTRACT

Creativity elements of each nation reflect its historical destiny, psychological peculiarities living standart on itself. Investigating Nakhchivan carpets it is possible to get important information about historical-psychological destiny characteristic features and living standards of people living there. Deseriptions and colors on Nakhchivan carpets reflect depth of psychological peculiarities of people from Nakhchivan.

Rəyçi G.K.Qurbanova, psixologiya üzrə elmlər doktoru, professor
Məqalə redaksiyaya 12 noyabr 2020-ci ildə daxil olmuşdur

UOT 159.9:316.6-053.6

# YENİYETMƏLİK DÖVRÜNDƏ İNTERNET ASILILIĞININ AQRESSİV DAVRANIŞIN FORMALAŞMASINDA ROLU

**Şəbnəm Əlizadə,**

*BDU-nun psixologiya kafedrasının doktorantı*
*Zahid Xəlilov küçəsi - 23. indeks: AZ 1148*
*E-mail: elizadeh.shebnem@mail.ru*

***Açar sözlər:*** *Yeniyetmələr, addiktiv davranış, internet asılılığı,aqressivlik, internet asılılığının nəzəri təhlili*

***Keywords:*** *Teenagers, addictive behaviour, internet addiction, aggression, theoretical analysis of internet addiction*

## GİRİŞ

Yeniyetməlik dövrü insanın sosial mühitdə nüfuz qazanması üçün çox önəmli bir mərhələdir. Bu dövrdə artıq fiziki, cinsi, psixososial inkişaf yeniyetmələri yetkin həyata hazırlayır. Bu dövr haqqında müxtəlif nəzəri istiqamətlər mövcuddur. Psixoanalitik istiqamətin tərəfdarları belə hesab edirlər ki, yeniyetməlik dövrü mühüm ani və böyük dəyişikliklər ilə fərqlənir. Cinsi sferada və fiziki görməkdə baş verən dəyişikliklər onlarda ani emosional partlayışların yaranmasına səbəb olur. Bu halların olması normal gedən inkişafı göstərir. Albert Bandura isə öz fikirlərində qeyd etmişdir ki, yeniyetmələrin əsəbi, neyləyəcəyi bəlli olmayan biri kimi bilinməsi onun həqiqətən də belə biri olaraq yetişməsi ilə nəticələnir.Antropoloji istiqamətin tərəfdarları Margaret Mead və Ruth Benedict yeniyetməlik dövrünü dünyəvi bir problem olmadığını və bu dövrün stressli keçmədiyini, problemsiz şəkildə başa çatması ilə əlaqəli müşahidələr aparmışlar. Amma bunun əksinə Steyn Holl isə bu mərhələni "fırtına və stress" dövrü kimi qiymətləndirir. Ona görə belə hal hormonal dəyişikliklə əlaqəlidir. Erik Eriksona görə isə, yeniyetməlik yeni status qazanmaq dövrüdür. Yuxarıda qeyd edilən nəzəri yanaşmalardan aydın olur ki, bu dövrdə yeniyetmələrdə fərqli davranış tipləri üstünlük təşkil edir. Formalaşan davranışlar isə mühüm sosial faktorların təsiri altında olur. Müasir dövrdə yeniyetmələr arasında addiktiv davranışın daha çox artdığı müşahidə edilir. Addiktiv sözü

latıncadan "adiccere" sözündən götürülüb, "kölə" yaxud "asılı" mənasına gəlir. Addiktiv davranışın müxtəlif növləri: narkotik, internet, siqaret, alkoqol və s. vardır. Müasir dövrlərdə daha çox müşahidə edilən internetlə əlaqəlidir. İnternet asılılığı haqqında ilk dəfə APA (American Psychological Association) tərəfindən 1996-ci ildə axtarışlar aparılıb. Əslində internet asılılığı hər yaşda özünü göstərə bilər, amma yeniyetməlik dövründə bu daha riskli bir hal alır. İnternet bəzən çox insan üçün yaxşı həyat səviyyəsini təmin etsə də, davamlı olaraq istifadəsi mühüm sağlamlıq problemlərinin ortaya çıxmasına səbəb olur. Yeniyetməlik vaxtı artıq orqanizmdə baş verən dəyişikliklər, onlarda formalaşan müstəqillik hissi, yaxınları ilə münasibətlərdə müəyyən fərqliliklərin olması və s. bu yaşın əsas xüsusiyyətləridir. Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, yeniyetmələrdə formalaşan internet asılılığı əsasən onların münasibət qurmaq və daha əyləncəli vaxt keçirməsi istəyi ilə əlaqəlidir. İnternetin yaradılmasında əsas məqsəd hər hansı bir məlumata daha rahat bir şəkildə və tez çatmaq idi. İnternet asıllığının indiki anda ən çox danışılan məsələləri isə onun neqativ təsirləridir ki, bunlar da fiziki və emosional iki hissəyə ayrılmışdır. ABŞ-da aparılmış bir tədqiqata görə, internet asılılığı zamanı insanların münasibətlərini pozan əsas faktorlar içərisində oyun və proqramlar üçün istifadə edilən saytlar durur. Məktəbdə aparılan bir tədqiqat zamanı müəyyən edilmişdir ki, həftə ərzində 9 saat internet istifadə edən insanlarda UCLA "Tənhalıq şkalasına" əsasən, sanki "real həyatdan ayrılmış" və tənhalıq hissinin formalaşdığı müşahidə edilmişdir. Digər bir tədqiqata görə, həftədə bir saatını internetdən istifadə edən mühitdə keçirən yeniyetmələrdə depressiyaya meyillilik 1%, tənhalıq hissi 4%, sosial münasibətlərdə problemlər 2.7% olduğu müəyyən edilmişdir. İnternetdən istifadə edənlərin 30%-nin internet asılılığı olduğu müəyyən edilmişdir [4, səh.168]. İnternet asıllığı haqqında müxtəlif tədqiqat işləri Young, Suler, Golberg tərəfindən aparılmışdı. Onlar tərəfindən aparılan yanaşmalarda internet asıllığının ümumi kriteriyaları verilmişdir. Young-a görə, yeniyetmələrdə internet asılılığı bir sıra təhsil və sosial problemlərə səbəb olur. Young qeyd etmişdir ki, internet asılılığı müxtəlif yönlü və kompleks prosesdir. Gənc bir insanın həyatının bütün sahələrinə dağıdıcı təsir göstərə bilən, müxtəlif patoloji davranışlar və emosional hallarda özünü ifadə edən, eyni anda bəzi əsas psixofiziki və sosial problemlər formalaşdıran haldır. Bu dövrün xüsusiyyətlərini nəzərə aldığımız zaman internet şəraitinin yeniyetmələrə daha

rahat və özlərini daha tez şəkildə isbat edə biləcəkləri bir mühit kimi gəlir. Heç bir məsuliyyət və əziyyət tələb edən işlər görməməkləri artıq onlarda internetə olan marağı daha da artırır. Özlərini tanımaya çalışan yeniyetmələr sosial medianı, internet istifadəsini həyatlarının tam mərkəzinə gətirirlər. İnternet vasitəsilə yeniyetmələr daha çox oyun və sosial mediadan istifadə edirlər. Sosial media istifadəsi zamanı insanlarda ünsiyyət qeyri-verbal kommunikasiya vasitələri üzərində qurulur, bununla da verbal kommunikasiya imkanların çox az istifadə olunur. Burada edilən qısa danışıq zamanı insanlar ünsiyyət ehtiyaclarının yalnız bir qismini ödəyə bilirlər. Ümumilikdə sosial medianın insanların kommunikasiyasına həm neqativ və həm də pozitiv təsirləri vardır. Yeniyetmələr tərəfindən istifadə edilən sosial medianın pozitiv cəhətlərindən daha çox neqativ təsirləri ön plandadır. İnternetlə bağlı edilən tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, sosial mediadan daha çox istifadə edən yeniyetmələrdə özünü adekvat qiymətləndirmə aşağı səviyyədədir. Sosial medianın bəzi xeyirli cəhətləri olsa da, davamlı istifadəçilər ətraf mühitdən özlərini izolasiya edirlər. Davranışlarında aqressiv hal daha çox özünü göstərir. Burada neqativ emosional halların yaranmasında həmçinin saytların təşviq etdiyi həyat tərzlərinin də mühüm əhəmiyyəti vardır. Sosial media istifadəçiləri əgər bu halı asılılıq halına gətiriblərsə, artıq onlar üçün bundan qurtarmaq bir qədər çətinləşir. Onlar sanki ətraf mühitdən qəbul olunmamaq ehtiyacını sosial media vasitəsilə ödəyirlər. Bu sahədə aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, onlarda daha çox depressiya, aqressiya, narahatlıq kimi hallar müşahidə edilir. Müşahidələr nəticəsində müəyyən edilmişdir ki, onlarda olan depressiya və s. bu kimi neqativ hallar ümumi addiktiv davranışın təzahür xüsusiyyətləri kimidir [3, səh.17].

İnternet istifadəçilərinin bəziləri öz günlük ehtiyaclarının bu şəkildə ödənilməsinə çox az vaxt sərf edirlər. Belə istifadəçilər problemli internet istifadəsi səbəbilə müəyyən müddət bir sıra psixoloji, sosial və s. problemlər yaşamağa başlayırlar. Young qeyd etmişdir ki, yalnız bəzi fərdlər öz ehtiyacları əhatəsində internetdən istifadəni müəyyənləşdirə bilirlər. İnternet vasitəsilə tapdıqları dostlarının real həyatda ailəsinin və dostlarının yerini tutması artıq internet asılılığının olmasından xəbər verir. Real həyatın heç bir sahəsində özünü reallaşdıra bilməyən fərd "hər istədiyini edə bildiyi internetdə" həyatını qurmağa davam edir. Bu halın davam etməsi onun bitməyəcəyi anlamına gəlmir, əksinə, bunu bir oyun kimi qavrayıb,

bu halın davamlı olmasına şərait yaradırlar. Craig Anderson və Brad Bushman tərəfindən yaradılan "Ümumi aqressivlik" modelinə görə, şəxsi faktorlar (məxsusluq, davranış, genetik həssaslıq və s.) və situasiya faktorları (zorakı videolar və yaxud oyunlar, provakasiya, frustrasiya və s.) daxili hallar vasitəsilə aqressivliyə təsir edir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, internet asılıları əsasən online oyunlar, online söhbətlər, multimedia əyləncələri, müxtəlif informasiyaları axtarmaqla vaxt keçirir. Onlaynvideolar və oyunlar əsasən zorakı şəkilləri özündə əks etdirərkən, internet istifadəçiləri zorakı vəziyyətlərə məruz qalırlar. Bu zaman mövcud olan zorakı situasiyalar aqressivliyin yaranmasına şərait yaradır. Zorakı videooyunların aqressivliyi formalaşdırdığı ideyasının tərəfdarları "Ümumi aqressivlik" nəzəriyyəsi mövqeyindən çıxış edirlər. Onlara görə, şəxsi və situasiya faktorlarının koqnitiv, emosional vəziyyətlərə təsir göstərib, onları dəyişdirir. Video oyunlarda nümayiş etdirilən zorakı sahnələr birinci olaraq aqressiv davranışla bağlı struktur formalaşdırır və bundan sonra oyundan kənarda aqressiv davranışı artırır. Bundan əlavə, "Ümumi aqressivlik" nəzəriyyəsinin tərəfdarları qeyd edirlər ki, videolar vasitəsilə nümayiş etdirilən zorakı aktlar təkrarlayıcı bir mexanizmdir. Burada aqressivliklə əlaqəli sıxışdırılan fikirləri artıraraq, fiziki aqressivlik formasında özünü göstərir. Yeniyetmələr dərsdən sonrakı vaxtlarını internetdə keçirməyə daha həvəslidirlər. Düzdür, son dövrdə bu hal daha aktual hesab edilir. Onlar belə hallarda daha da ustalaşıblar. Ev tapşırıqlarını həll etmək yerinə, onlayn proqramlara qoşulur, virtual həyat tərzi keçirməyə daha üstünlük verirlər.

2019-cu ildə ABŞ-da 6500-dən çox 12-15 yaşlı yeniyetmələrdə aparılmış bir tədqiqata görə, gün ərzində 3 saatdan çox sosial mediada vaxt keçirənlərdə psixi sağlamlıqla bağlı problemlər artmışdır. İngiltərədə bu sahədə aparılan tədqiqata görə də, 3 saatdan artıq sosial mediada vaxt keçirən yeniyetmələrdə zəif psixi sağlamlıq halları özünü göstərir [5]. Bir sıra tədqiqatlar göstərir ki, problemli internet istifadəsi və yaxud internet asılılığı aqressiv davranışı artırır. Problemli internet istifadəsi və internet asılılığı ümumi olaraq nəzarət edilməyən, stressli və yaxud zaman itkisi kimi özünü göstərir. Bütün bunlar sosial, iş və maliyyə çətinlikləri ilə nəticələnir. Şəxsi-determinasiya nəzəriyyəsinə görə, aqressivlik insanın 3 təməl ehtiyaclarının bir və ya bir neçəsinin ödənilməsinə maneə törədildiyi vaxt yaranır: səlahiyyət (şəxsin öz hərəkətləri ilə nailiyyət hiss etməsi), müstəqillik (şəxsin asılı olmayan və azad seçimləri), əlaqə qurmağa ehtiyac (başqaları tərəfindən

dəstəklənmək və bir qrupa aid olmaq). Nə vaxt ki bu ehtiyacların reallaşması əngəllənir, insanlarda aşağı əhvali-ruhiyyə formalaşır. İnternet asıllığı olan yeniyetmələrdə öz ehtiyaclarını real həyatda qarşılamaqda çətinlik çəkmələri, virtual olaraq bu ehtiyacları yerinə yetirə bilmələri onlarda internetə tələbatı artırır. Brad Bushman qeyd etmişdir ki, sosial bacarıqları zəif olan, az dostu olan insanlar internetdə çoxlu vaxt keçirirlər və onlar problemlərini aqressiv olmayan yolla həll edə bilmirlər. Artıq gününün çox hissəsini bu şəkildə keçirdiklərinə görə sosial münasibətlərində aqressivliyinin özünü göstərməsi təbii bir hal alır. Bu zaman formalaşan aqressiya fiziki və verbal xarakter kəsb edir.

## NƏTİCƏ

İnternetlə bağlı aparılmış tədqiqatlarda əsas risk qrupları içərisində yeniyetmələr qiymətləndirilir. Çünki bu yaş qrupunda internet istifadəsi daha çox artmış hesab olunur. Yuxarıda qeyd etdiyimiz kimi, internetin yaradılmasında əsas məqsəd hər hansı bir məlumata daha rahat bir şəkildə və tez çatmaq idi. Lakin müasir dövrdə yeniyetmələr arasında internetə olan maraq artıq addiktiv bir forma almışdır. Müasir dövrdə internet əlaqəsi olan bir kompüter uşaqların psixi sağlamlığına zərər yetirə biləcək potensial bir təhlükə kimi qiymətləndirilir. Yaranan asılılıq onların ən əsas sağlamlıqlarına ziyan vurur. Gündəlik işlərini normal yerinə yetirməmələri, təhsilə qarşı maraqlarının azalması, aqressivlik kimi halların müşahidə olunmasına gətirib çıxarır. Bu yaşın xüsusiyyətlərini nəzərə alaraq, formalaşan aqressivlik daha çox verbal və fiziki şəkildə olur. Yeniyetmələrdə ünsiyyətlərində və davranışlarında aqressivliyin müşahidə olunması sosial sfrelarında bir sıra problemlərə yol açır. Bütün bu kimi halların qarşısını almaq üçün düzgün profilaktik tədbirlər görmək lazımdır. Buna görə bu işə həm valideynlərin, həmdə məktəb kollektivinin birgə fəaliyyətini təmin etməklə başlamaq olar. Uşaqlara internetdən istifadənin faydaları və zərərləri haqqında danışmaq, kompüterdən istifadə etmək müəyyən zaman çərçivəsində olması haqqında məlumat verməlidirlər. Müxtəlif terapiya üsulları ilə göstərilən mütəxəssis dəstəyi bu halın aradan qaldırılmasına kömək olur. İnternet asılılığı zamanı əsas terapiya üsulları koqnitiv-bihevioral və qrup terapiyalarıdır.

***Ədəbiyyat:***

1. Christopher J. Ferguson. Video Game Influences on Aggression, Cognition, and Attention. P.203, Springer International Publishing AG, part of Springer Nature 2018, p.203.
2. Margaret Adams. Internet addiction prevalence, risk factors and health effects. Nova Science Publishers. New York. 2017, p.147.
3. Andrea C. Nakaya. Internet and Social Media Addiction. Point Press. İnc. 2015, p.96.
4. Çankırlı A. Türkiye: Zafer yayınları, 2014, 230 s.
5. https://www.psychiatrictimes.com/view/-internet-made-me-do-itsocial-media-and-potential-violence-adolescents
6. https://www.basisonline.org/2019/09/social-media-and-addiction.html

## THE ROLE OF INTERNET ADDICTION IN THE FORMATION OF AGGRESSIVE BEHAVIOR IN THE PERIOD OF ADOLESCENCE

***Shebnem Alizade***

**ABSTRACT**

The main purpose of creating the Internet was to get access to information faster and easier. However, in modern times, its negative effects are more common. Internet addiction among adolescents is currently the main focus. The resulting Internet addiction has been found to have a negative impact on their social attitudes and behaviors. Adolescents who prefer non-verbal communication to verbal communication are more likely to be aggressive in their relationships with other people. Aggressive behavior affects all social spheres of adolescents, both physically and verbally. Studies have shown that forming a timely preventive approach and providing support to adolescents is needed to address this problem.

Rəyçi M.H.Mustafayev, psixologiya üzrə fəlsəfə doktoru
Məqalə redaksiyaya 5 oktyabr 2020-ci ildə daxil olmuşdur

UOT:005.32(075.8)

# SİTUASİYA MÜHAKİMƏ TESTLƏRİ DÖVLƏT QULLUĞU VƏZİFƏLƏRİNƏ NAMİZƏDLƏRİN SEÇİMİNİN KEYFİYYƏTİNİ ARTIRAN AMİL KİMİ

**Pərviz Kazımov,**

*Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının doktorantı*
*Zahid Xəlilov küçəsi - 23. indeks: AZ 1148*
*E-mail: parvizkazimov@gmail.com*

***Açar sözlər:*** *Situasiya mühakimə testləri (SMT), sosial-praktiki intellekt, idarəetmə bacarıqları, şəxsiyyətin faktorları, dünyagörüşü, məntiq*

***Keywords:*** *Situational Judgment Tests (SJT), social-practical intelligence, management skills, personality factors, outlook, logic*

## GİRİŞ

Hal-hazırda Azərbaycan Respublikasında dövlət qulluğuna namizədlərin qiymətləndirilməsi iki mərhələdə həyata keçirilir. Birinci mərhələdə namizədlər qanunvericilik bilikləri, məntiq və Azərbaycan dili üzrə test imtahanı verir, ikinci mərhələdə isə üç nəfərdən ibarət komissiya tərəfindən müsahibə metodu ilə qiymətləndirilirlər. Ölkə prezidentinin 23.10.2018 tarixli 739 saylı Sərəncamı (2018) ilə Azərbaycan Respublikasında dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi və namizədlərin seçimi prosesində səriştə modelinin tətbiqi nəzərdə tutulur. Dünya təcrübəsi göstərir ki, səriştə modelinin tətbiqi dövlət qulluqçularının və namizədlərin qiymətləndirilməsnin səmərəliyini artırır. Belə ki, bu yanaşma namizədlərin yalnız biliklərini və idraki qabiliyyətlərini deyil, sosial və emosional intellektinin qiymətləndirilməsini də ehtiva edir. "Emosional və sosial intellekt üzrə səriştələrin müxtəlif mədəniyyətlərdə fərdlərin qiymətləndirilməsi və inkişafı üçün praktiki və nəzəri olaraq tutarlı, etibarlı və əsaslandırılmış yanaşma olduğu artıq öz təsdiqini tapıb" (Emmerling və Boyatzis, 2012). Bu modelin tətbiqi müvafiq qiymətləndirmə standartlarının, prosedurlarının və alətlərinin müəyyən edilməsi və hazırlanmasını nəzərdə tutur. Digər tərəfdən, dövlət qulluğuna namizədlərin sayının çoxluğu bu namizədlərin ilkin mərhələdə müəyyən ələmədən keçirilməsi üçün kütləvi

tətbiq olunacaq səriştə modelinə uyğun davranışları qiymətləndirməyə imkan verən alətlərin tətbiqi zərurəti meydana çıxarır. Dünya təcrübəsində dövlət qulluğuna qəbul zamanı kütləvi qiymətləndirmə zamanı ən çox istifadə olunan alətlərdən biri Situasiya Mühakimə Testləridir (SMT). Bu testlər məzmunundan asılı olaraq həm müvafiq ixtisas sahəsi üzrə praktiki bacarıqları, həm də sosial-praktiki bacarıqları qiymətləndirməyə imkan verir. Bəzi tədqiqatçıların fikrincə, SMT-lər seçim kontekstindən asılı olaraq genişmiqyaslı qeyri-akademik konstruktların qiymətləndirilməsi üçün tərtib edilə bilər. Nisbətən aşağı dəqiqlikli qiymətləndirmə olaraq, SMT-lər qeyri-akademik xüsusiyyətlərin yüksək dəqiqlikli qiymətləndirmələri ilə müqayisədə iqtisadi cəhətdən daha sərfəli bir metodikadır (Patterson, Ashworth, Zibarras, Coan, Kerrin, and O'Neill, 2012).

Dövlət İmtahan Mərkəzi işgüzar şəraitdə sosial-praktiki intellekti və idarəetmə bacarıqlarını qiymətləndirmək üçün nəzərdə tutulmuş SMT-lərin Azərbaycan mühitində səmərəliliyini yoxlamaq üçün sınaq imtahanları keçirib. Tədqiqatın məqsədi bu testlərin dünyagörüşü, məntiq testləri ilə, eləcə də şəxsiyyət tipi ilə statistik əlaqəsini müəyyən etməkdən ibarətdir.

Tədqiqat üçün Azərbaycan Respublikasının dövlət orqanlarının mərkəzi aparatı və regional bölmələrində çalışan ümumilikdə 345 nəfər əməkdaş iki sınaq imtahanına cəlb olunub. İmtahanlarda iştirak edən şəxslər mümkün seçmə yanaşması ilə müəyyən olunub və təmsili xarakter daşımır. İştirakçılar məsləhətçidən sektor müdirinə qədər vəzifə diapazonunu əhatə edib. Yaş, region, gender və staj kimi amillər nəzər alınmayıb və təhlilə daxil edilməyib.

Tədqiqat zamanı iştirakçılar tarix, coğrafiya, mədəniyyət, hüquq və iqtisadiyyat testlərindən ibarət ümumi dünyagörüşü bloku, mücərrəd düşünmə, rəqəmsal məlumatların təhlili, verbal məlumatların təhlili üzrə testlərdən ibarət məntiq bloku, eləcə də sosial-praktiki intellekt və idarəetmə bacarıqları üzrə situasiya mühakimə testlərini (SMT) cavablandırıb. Bundan əlavə, ikinci imtahanda iştirakçıların şəxsiyyət tipini müəyyən etmək üçün imtahanın sonunda onlardan Böyük Beşlik (Big5-ing) adlanan şəxsiyyətin beş faktoru üzrə anketi cavablandırması istənib. Sosial-praktiki intellekt üzrə situasiya mühakimə testi (SMT) 25 situasiya üzrə hər biri 5 cavab variantı və iki düzgün cavabdan ibarət olub. İdarəetmə bacarıqlarının qiymətləndirilməsi daha mürəkkəb situasiyalara əsaslanan situasiya mühakimə testlərindən (SMT) ibarət olub. Ümumilikdə 16 situasiya tapşırığından ibarət testə bir və iki düzgün cavablı tapşırıqlarla yanaşı,

həm də variantların düzgün ardıcıllığının müəyyən olunmasını tələb edən tapşırıqlar daxil olub.

Böyük beşlik anketi çərçivəsində 5 faktor üzrə 75 sual (hər faktor 15) təqdim olunub. Faktorlar üzrə suallar qarışıq şəkildə verilib. Hər bənd iki əks qütbdən ibarət olub. Cavab variantları Likert şkalasına uyğun olaraq -2 -1 0 1 2 şəklində verilib. -2 və -1 sol tərəfdəki bəyanatla, 1 və 2 sağ tərəfdəki bəyanatla razılıq, 0 isə neytral və ya qərarsız qalmanı ifadə edib. Böyük beşlik anketinə aşağıdakı faktorlar daxildir.

– Ekstraversiya – İntroversiya
– Razılaşmağa meyillilik – Fərdilik
– Özünü idarə etmə – İmpulsivlik
– Yüksək emosionallıq – Emosional təmkinlik
– Yeni təcrübəyə açıq olmaq – Praktikilik

***Tədqiqatın nəticələri***

Bütün testlər üzrə əldə olunmuş xam nəticələr SPSS proqramı vasitəsilə təhlil edilmişdir. İlk imtahanda 202 nəfər, ikinci imtahanda isə 143 nəfər iştirak edib. İlk imtahanda sosial-praktiki intellekt testi üzrə əldə olunan ən yüksək nəticə mümkün 50 baldan 33 (66%), idarəetmə bacarığı testi üzrə isə mümkün 27 baldan 17 (63%) olub. İkinci imtahanda yalnız sosial-praktiki intellekt testindən istifadə olunub və ən yüksək nəticə 38 bal (76%) olub. Sosial-praktiki intellekt testi üzrə daxili etibarlılıq – Cronbach's alpha göstəricisi ilk imtahanda 0,806, ikinci imtahanda 0,792, idarəetmə bacarığı testi üzrə isə nisbətən aşağı 0,536 olmaqla, iki test arasında ilk imtahanın nəticələrinə görə korrelyasiya əmsalı 0,319 səviyyəsində müəyyən olunub. İdarəetmə bacarıqları testi üzrə nəticələrin paylanması normala yaxın olsa da, sosial-praktiki intellekt testləri üzrə nəticələrin paylanmasında mərkəzdən sağa doğru ciddi meyl müşahidə olunur.

***Cədvəl 1.***

Əsas tədqiqat predmeti olan situasiya mühakimə testlərinin (SMT) etibarlılıq və korrelyasiya göstəriciləri

<table>
<tr><th>Testin adı</th><th>Etibarlılıq göstəricisi (Cronbach's alpha)</th><th>Test tapşırıqlarının sayı</th><th>İki testin nəticələri arasında korrelyasiya əmsalı</th><th>Korrelyasiyanın əhəmiyyətlilik göstəricisi</th></tr>
<tr><td>Sosial-praktiki intellekt (İmtahan-1)</td><td>,806</td><td>25</td><td rowspan="2">,319</td><td rowspan="2">,00</td></tr>
<tr><td>İdarəetmə bacarıqları (İmtahan-1)</td><td>,536</td><td>17</td></tr>
<tr><td>Sosial-praktiki intellekt (İmtahan-2)</td><td>,792</td><td>25</td><td></td><td></td></tr>
</table>

<table>
<tr><th>Sosial-praktiki intellekt<br>(SMT)<br>(İmtahan-1)</th><th>Sosial-praktiki intellekt<br>(SMT)<br>(İmtahan-2)</th><th>İdarəetmə bacarıqları<br>(SMT)<br>(İmtahan-1)</th></tr>
<tr><td>
</td><td>
</td><td>
</td></tr>
</table>

***Şəkil 1.*** *Situasiya mühakimə testlərinin (SMT) nəticələrinin paylanma histoqramı*

İdarəetmə bacarığı testi üzrə daxili etibarlılığın aşağı (0,536) olması testin nisbətən daha mürəkkəb məzmuna malik olması ilə izah oluna bilər. Ümumiyyətlə SMT-lərin etibarlılığının və validliyinin ənənəvi metodlarla müəyyən olunmasının adekvat yanaşma olmaması, eləcə də bu testin çoxmeyarlı xarakterinin Cronbach's alphanın əsasında duran fərziyyələrə uyğun olmaması bir sıra digər tədqiqatçılar tərəfindən qeyd olunur (Sorrel, Olea, Abad, de la Torre, Aguado və Lievens, 2016). İdarəetmə bacarıqları testinin tərkibinə bir düzgün cavablı suallarla yanaşı, 2 və 3 düzgün cavablı, eləcə də bütün cavabların ardıcıllığını müəyyən etməyi tələb edən suallar daxil edilmişdi. Digər tərəfdən əgər sosial-praktiki intellekt testi sadə situasiyaların əks olunduğu nisbətən qısa mətnlərlə ifadə olunmuş tapşırıqlardan ibarət idisə, idarəetmə bacarığı testi üzrə suallar daha mürəkkəb bacarıqlar tələb edən nisbətən iri həcmli mətnlərlə ifadə olunmuş suallardan ibarət idi. Başqa sözlə, idarəetmə bacarığı testinin çoxmeyarlı məzmuna malik olduğunu demək olar və daxili etibarlılığın nisbətən zəif olmasının mümkün səbəblərindən biri kimi məhz bunu göstərmək olar. Hazırki tədqiqatın məqsədlərinə aid olmasa da, gələcəkdə bu testin məzmunun daha ətraflı təhlilinə, o cümlədən faktor analizinə ehtiyac var. Testin nəticələri üzrə paylanmanın proporsional olması ilk baxışda namizədlərin seçimi baxımından yaxşı göstərici olsa da, test tapşırıqlarının məzmunun mürəkkəbliyi və çoxmeyarlı xarakteri təsadüfilik amilini önə çıxarda bilər. Bu səbəbdən

ciddi kadr seçmələri üçün qərar vermək üçün bu alətdən tək başına yox, digər alətlərlə birlikdə istifadə etmək daha məqsədəuyğundur.

Sosial-praktiki intellekt testi üzrə nəticələrin yüksək etibarlılıq indeksini müsbət göstərici kimi qeyd etməklə yanaşı, hər iki nəticədəki paylanmanın qeyri-proporsional olması ilə əlaqədar ayrıca təhlil aparmağa ehtiyac vardır. Belə ki, hər iki test üzrə nəticələrin ən yüksək tezliyi 20-30 bal diapazonunda qeydə alınıb. 30 bal sonrası tezlik nisbətən proporsional şəkildə aşağıya doğru meyl etsə də, 32-34 bal diapazonunda nəticələr kəsilir. İkinci imtahanda yalnız bir neçə nəfər 35 bal həddini keçib. Bu paylanmaya əsasən deyə bilərik ki, testin tərkibində əksər iştirakçıların düzgün cavab verə bildiyi çox asan, və heç kəsin və ya çox az şəxsin düzgün cavab verdiyi müəyyən sayda tapşırıqlar vardır. Bu problemi həll etmək üçün test bankı yaradılarkən hər bir tapşırıq üzrə statistik təhlil aparılmalı və tapşırıqların konkret əhali qrupu üzrə çətinlik dərəcəsi nəzərə alınmaqla kalibrləri müəyyən olunmalıdır. Ciddi qərarvermə üçün istifadə olunan testlərin strukturu əvvəlcədən kalibrlənmiş tapşırıqlar əsasında formalaşmalıdır. Çox az şəxsin cavab verə bildiyi çətin tapşırıqlar isə statistik təhlillə yanaşı, həm də məzmun üzrə ekspert təhlilindən keçməli, yerli mentalitetə uyğunluğu müəyyən olunmalıdır.

Nəticələr göstərir ki, həm sosial-praktiki intellekt, həm də idarəetmə bacarığı testləri ümumi nəticələrlə və ayrıca götürülmüş test blokları üzrə nəticələrlə müsbət korrelyasiyaya malikdir. Cədvəl 2-dən göründüyü kimi, sosial-praktiki intellekt testinin ümumi balla korrelyasiyası 0,423, düşünmə sürəti ilə 0,352, dünyagörüşü bloku ilə 0,297, məntiq bloku ilə isə 0,400-dür. İdarəetmə bacarığı testi üzrə nəticələrin digər nəticələrlə korrelyasiyası müvafiq olaraq 0,368, 0,270, 0,243 və 0,378-dür. Eyni zamanda bu iki testin nəticələri arasında korrelyasiyanın 0,319 olduğu müəyyən olunub.

***Cədvəl 2.***

*İmtahana daxil olan test blokları arasında korrelyasiya təhlili (İmtahan-1)*

| **Korrelyasiya** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **İdarə-etmə bacarıq.** | **Sosial-praktiki intellekt** | **Ümumi bal** | **Dü-şün. sürəti** | **Dünya-gör. bloku** | **Məntiq bloku** |
| **İdarəetmə bacarıqları** | Korrelya-siya əmsalı | 1,000 | **,319**** | **,368**** | **,270**** | **,243**** | **,378**** |
| | Əhəm-t. | . | ,000 | ,000 | ,000 | ,001 | ,000 |
| | İşt. sayı | 202 | 202 | 202 | 202 | 202 | 202 |
| **Sosial-praktiki intellekt** | Korrelya-siya əmsalı | | 1,000 | **,423**** | **,352**** | **,297**** | **,400**** |
| | Əhəm-t. | | . | ,000 | ,000 | ,000 | ,000 |
| | İşt. sayı | | 202 | 202 | 202 | 202 | 202 |
| **Ümumi bal** | Korrelya-siya əmsalı | | | 1,000 | **,672**** | **,810**** | **,836**** |
| | Əhəm-t. | | | . | ,000 | ,000 | ,000 |
| | İşt. sayı | | | 202 | 202 | 202 | 202 |
| **Düşünmə sürəti** | Korrelya-siya əmsalı | | | | 1,000 | **,291**** | **,542**** |
| | Əhəm-t. | | | | . | ,000 | ,000 |
| | İşt. sayı | | | | 202 | 202 | 202 |
| **Dünyagö-rüşü bloku** | Korrelya-siya əmsalı | | | | | 1,000 | **,462**** |
| | Əhəm-t. | | | | | . | ,000 |
| | İşt. sayı | | | | | 202 | 202 |

Qeyd olunanlara əlavə olaraq tədqiqat daha da dərinləşdirilərək test bloklarına daxil olan bütün testlər üzrə əldə olunan nəticələrin bir-biri ilə və tədqiqatın əsas məqsədinə daxil olan iki test üzrə əldə olunmuş nəticələrlə korrelyasiyası da müəyyən olunmuşdur. Beləliklə sosial-praktiki intellekt testi ilə ən yüksək korrelyasiyaya malik olan testlərin riyazi məntiq (0,331) və mətn təhlili (0,306) testləri, ən aşağı korrelyasiyaya malik olanın isə mədəniyyət testi (0,124) olduğu müəyyən olunub. İdarəetmə

bacarığı testinin də eynilə ən yüksək korrelyasiyanı riyazi məntiq (0,340) və mətn təhlili (0,367) testlərinə münasibətdə göstərdiyi müəyyən olunub. Hüquq və iqtisadiyyat testinin idarəetmə bacarığı testi ilə ən aşağı korrelyasiyaya (0,130) malik test olduğu müəyyən olunub. Bunlara əlavə olaraq abstrakt düşüncə testi ilə sosial-praktiki intellekt testi arasındakı kifayət qədər yüksək korrelyasiya (0.275) da qeyd olunmalıdır.

***Cədvəl 3.***

*İmtahana daxil olan testlər arasında korrelyasiya təhlili (İmtahan-1)*

| | | İdarəetmə bacarıqları | Sosial-praktiki intellekt | Tarix | Coğrafiya | Mədəniyyət | Hüquq və iqtisadiyyat | Abstrakt | Riyazi məlumatların təhlili | Verbal məlumatların təhlili |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **İdarəetmə bacarıqları** | **Korrelyasiya əmsalı** | 1,000 | **,319**$^{**}$ | **,233**$^{**}$ | **,194**$^{**}$ | **,198**$^{**}$ | ,130 | **,163**$^{*}$ | **,340**$^{**}$ | **,367**$^{**}$ |
| | **Əhəm-t.** | . | ,000 | ,001 | ,006 | ,005 | ,066 | ,021 | ,000 | ,000 |
| | **İşt. sayı** | 202 | 202 | 202 | 202 | 202 | 202 | 202 | 202 | 202 |
| **Sosial-praktiki intellekt** | **Korrelyasiya əmsalı** | | 1,000 | **,222**$^{**}$ | **,220**$^{**}$ | ,124 | **,249**$^{**}$ | **,275**$^{**}$ | **,331**$^{**}$ | **,306**$^{**}$ |
| | **Əhəm-t.** | | | ,002 | ,002 | ,078 | ,000 | ,000 | ,000 | ,000 |
| | **İşt. sayı** | | | 202 | 202 | 202 | 202 | 202 | 202 | 202 |
| **Tarix** | **Korrelyasiya əmsalı** | | | 1,000 | **,495**$^{**}$ | **,445**$^{**}$ | **,317**$^{**}$ | **,240**$^{**}$ | **,278**$^{**}$ | **,217**$^{**}$ |
| | **Əhəm-t.** | | | | ,000 | ,000 | ,000 | ,001 | ,000 | ,002 |
| | **İşt. sayı** | | | | 202 | 202 | 202 | 202 | 202 | 202 |
| **Coğrafiya** | **Korrelyasiya əmsalı** | | | | 1,000 | **,362**$^{**}$ | **,466**$^{**}$ | **,310**$^{**}$ | **,343**$^{**}$ | **,259**$^{**}$ |
| | **Əhəm-t.** | | | | | ,000 | ,000 | ,000 | ,000 | ,000 |
| | **İşt. sayı** | | | | | 202 | 202 | 202 | 202 | 202 |
| **Mədəniyyət** | **Korrelyasiya əmsalı** | | | | | 1,000 | **,281**$^{**}$ | **,156**$^{*}$ | **,217**$^{**}$ | **,248**$^{**}$ |
| | **Əhəm-t.** | | | | | | ,000 | ,026 | ,002 | ,000 |
| | **İşt. sayı** | | | | | | 202 | 202 | 202 | 202 |
| **Hüquq və iqtisadiyyat** | **Korrelyasiya əmsalı** | | | | | | 1,000 | **,302**$^{**}$ | **,449**$^{**}$ | **,197**$^{**}$ |
| | **Əhəm-t.** | | | | | | | ,000 | ,000 | ,005 |
| | **İşt. sayı** | | | | | | | 202 | 202 | 202 |
| **Abstrakt düşünmə** | **Korrelyasiya əmsalı** | | | | | | | 1,000 | **,509**$^{**}$ | **,304**$^{**}$ |
| | **Əhəm-t.** | | | | | | | | ,000 | ,000 |
| | **İşt. sayı** | | | | | | | | 202 | 202 |
| **Riyazi məlumatların təhlili** | **Korrelyasiya əmsalı** | | | | | | | | 1,000 | **,366**$^{**}$ |
| | **Əhəm-t.** | | | | | | | | . | ,000 |
| | **İşt. sayı** | | | | | | | | 202 | 202 |

Korrelyasiya təhlilində ən çox diqqəti cəlb edən məqam idarəetmə bacarıqları testi ilə hüquq və iqtisadiyyat testi arasında əhəmiyyətli əlaqənin qeydə alınmamasıdır. Bunun mümkün səbəblərindən biri kimi hüquq və iqtisadiyyat testinin biliyə əsaslanması, SMT-lərin isə davranış əsaslı olması nəzərə alınmalıdır. Bu hal xüsusilə diqqətdə saxlanılmalı və əlavə tədqiq olunmalıdır. Belə ki, dövlət orqanları vəzifələrinə namizədlərin seçimində həm hüquqi və iqtisadi biliklər, həm də idarəetmə bacarıqları mühüm əhəmiyyətə malikdir. Dolayısıyla, əgər bu nəticənin validliyi digər tədqiqatlarla da sübut olunarsa iki alətdən sadəcə birinin istifadə olunması yanıldıcı nəticələrə səbəb ola bilər. Hüquqi və iqtisadi bilik və bacarıqların davranış əsaslı SMT-lər şəklində yoxlanması da çıxış yolu ola bilər. Ümumiyyətlə, SMT-lər üzərində araşdırma aparan bəzi müəlliflər konkret konstrukta (məsələn, tibb sahəsi üzrə) əsaslanan SMT-lərin nəticələrinin daha etibarlı olduğunu irəli sürürlər. Onların fikrincə, ənənəvi SMT-lər, qiymətləndirmələrdə bir sıra hipotetik iş yeri ssenarilərinin nümunə kimi istifadə oluna biləcəyi ixtisaslı işlərə qəbul üçün daha uyğun ola bilər (Tiffin, Paton, O'Mara, MacCann, Lang & Lievens, 2020). Hər iki SMT üzrə nəticələrin məntiq bloku ilə, xüsusən verbal və riyazi testlərlə və düşünmə sürəti ilə əhəmiyyətli korrelyasiyası məntiqi bacarıqların real işgüzar situasiyalarda qərar vermək baxımından əhəmiyyətini vurğulayır. Bu testlərin qismən üst-üstə düşən konstruktları qiymətləndirməsi və bir-birini tamamlaması başqa tədqiqatlarda da müəyyən olunub (Koczwara, Patterson, Zibarras, Kerrin, Irish, və Wilkinson, 2012).

143 nəfərin iştirak etdiyi ikinci imtahana idarəetmə bacarıqları testinin əvəzinə şəxsiyyətin beş faktorunun qiymətləndirilməsi üzrə 75 sualdan ibarət anket daxil edilib. Tədqiqatın bu mərhələsinin nəticələri əsasında dövlət qulluqçularının ümumi dünyagörüşü, məntiqi düşünmə bacarığı və sosial-praktiki intellekti ilə şəxsiyyətin 5 əsas faktoru arasında əlaqə müəyyən olunmağa çalışılıb. Anketin hər beş faktoru üzrə etibarlılığı (Cronbach's alpha) optimal olub. Ekstraversiya – İntroversiya dixotomiyası üzrə etibarlılıq əmsalı nisbətən aşağı qeydə alınıb – 0,622.

***Cədvəl 4.***

*Böyük beşlik alətinin faktorları üzrə etibarlılıq göstəriciləri (İmtahan-2)*

| **Test faktorunun adı** | **Etibarlılıq əmsalı (Alfa Kronbax)** | **Sualların sayı** |
|---|---|---|
| Ekstraversiya – İntroversiya | ,622 | 15 |
| Razılaşmağa meyllilik – Fərdilik | ,776 | 15 |
| Özünü idarəetmə – İmpulsivlik | ,840 | 15 |
| Yüksək emosionallıq – Emosional davamlılıq | ,763 | 15 |
| Yeni təcrübəyə açıq olma – Praktiklik | ,647 | 15 |

Böyük beşliyin üçüncü faktoru (Özünü idarə etmə) üzrə etibarlılıq göstəricisi yüksək olsa da, paylanmada nəticələr şkalanın ortasından sağ tərəfdə toplanıb. Bu sosial arzuolunanlıq amilindən və ya seçmənin xarakterindən irəli gələ bilər. Belə ki, dövlət orqanı əməkdaşları özlərini idarə etmə qabiliyyətlərini şüurlu və ya qeyri-şüuri olaraq yüksək göstərməyə meyl etmiş ola bilərlər. Digər tərəfdən dövlət qurumundakı iş rejimi formal prosedurlara riayət və nizam-intizam tələb etdiyinə görə, ola bilər ki, bu tip orqanlarda çalışan əməkdaşlar özlərində müvafiq xüsusiyyətlər formalaşdırır və ya məcburən yüksək intizamlı iş rejiminə uyğunlaşdıqları üçün onlarda özləri barədə bu cür təsəvvür formalaşa bilər.

Şəxsiyyətin beş faktorunun bir-biri ilə əlaqəsi də müəyyən olunub. Cədvəl 5-dən göründüyü kimi ən yüksək əlaqə Razılaşmağa meylliliklə Özünü idarə etmə faktorları arasında qeydə alınıb - ,676. Nəzərə alsaq ki, imtahanda iştirak edənlər aşağı və orta səviyyəli vəzifələri tutan dövlət qulluqçuları olub, bu göstəricinin səbəbini ehtimal etmək mümkündür. Belə ki, dövlət qulluğu sistemində həm nizam-intizam, həm də razılaşmaq (xüsusən rəhbərliyin fikirləri ilə) mühüm rol oynayır. Bu iki faktorun iş yerində səmərəli fəaliyyətə təsiri (Witt, Burke, Barrick və Mount, 2002), eləcə də iş yerindəki intizamsızlıqla əks-korrelyasiyası (Farhadi, Fatimah, Nasir və Wan Shahrazad, 2012) başqa tədqiqatlarda da qeyd olunub.

Razılaşmağa meyllilikllə Yeni təcrübəyə açıq olmaq arasında da kifayət qədər yüksək korrelyasiya qeydə alınıb. Ümumiyyətlə Yeni təcrübəyə açıq olmaq faktoru ilə şəxsiyyətin bütün digər faktorları arasında müsbət korrelyasiya görünür. Yüksək emosionallıq yalnız Yeni təcrübəyə açıq olmaq faktoru ilə müsbət korrelyasiyaya malikdir və bütün digər faktorlarla və testlərlə hər hansı müsbət və ya mənfi korrelyasiya görünmür.

Şəxsiyyətin beş faktoru ilə intellekt səviyyəsi arasında əlaqənin müəyyən olunması üzrə bir sıra tədqiqatlar həyata keçirilib. Stankovun (2006) həyata keçirdiyi tədqiqatda Yeni təcrübəyə açıq olma faktoru ilə intellekt səviyyəsi arasında 0.20-0.30 səviyyəsində korrelyasiya olduğunu müəyyən edib. O, eyni tədqiqatında intellekt səviyyəsi ilə böyük beşlik taksonomiyasına aid digər faktorlar arasında çox zəif əlaqə olduğunu qeyd edir. Lakin bununla yanaşı o qeyd edir ki, böyük beşlik taksonomiyası və tipik intellekt testləri bir sıra meyarları əhatə eləmir və tədqiqatlarda yeni və daha əhatəli alətlərin tətbiqi ilə bu sahədə mənzərə dəyişə bilər. Rachel Curtisin rəhbərliyi ilə keçirilmiş tədqiqatda Yeni təcrübəyə açıqlıqla idrak qabiliyyəti arasında müsbət əlaqəylə yanaşı, həm də nisbətən yavaş idrak tənəzzülü ilə Özünü idarə etmə arasında ardıcıl əlaqələr olduğu müəyyən edilib (Curtis, Windsor & Soubelet, 2015). Cədvəl 5-dən də göründüyü kimi, bu tədqiqatda məntiqi bacarıqlarla şəxsiyyətin dörd faktoru arasında əhəmiyyətli əlaqə var, dünyagörüşü ilə isə yalnız Razılaşmağa meyllilik arasında əlaqə müşahidə olunur. Furnham və Chamorro-Premuzicin (2006) də böyük beşlik faktorlarıyla ümumi biliklər arasında hər hansı əhəmiyyətli birbaşa əlaqə olmadığı qənaətinə gəliblər. Onlar eyni məqalədə üç araşdırmanın nəticələrinə əsasən ümumi biliklərlə məntiqi bacarıqlar arasında əhəmiyyətli əlaqə olduğunu müəyyən ediblər (r = .27, r = .35, r = .29). Cədvəl 5-dən də göründüyü kimi bu tədqiqatın nəticəsində də dünyagörüşü bloku ilə məntiq bloku arasında kifayət qədər yüksək korrelyasiya (,450) müəyyən olunub.

Sosial-praktiki intellektlə məntiq bloku arasında müşahidə olunan yüksək korrelyasiya (,383) Corinne Kosmitzki və Oliver Johnun (1993) "sosial intellekt sosial yaddaş və sosial nüfuz faktorlarından müstəqil şəkildə mövcuddur və onun koqnitiv aspektləri vardır" qənaəti ilə üst-üstə düşür. F. Lievens, H. Peeters və E. Schollaert (2008) SMT-lərin idraki qabiliyyət və şəxsiyyət testlərinin üzərində əlavə validlik göstərməsini bu testlərin güclü cəhətləri kimi qeyd ediblər.

***Cədvəl 5.***

*Şəxsiyyətin beş faktoru, sosial-praktiki intellekt və test blokları arasında korrelyasiya təhlili (Imtahan-2)*

| **Spirmen meyarı** | | **Sosial-praktiki intellekt** | **Ekstraversiya** | **Razılaşmağa meyllilik** | **Özünü idarəetmə** | **Yüksək emosionallıq** | **Yeni təcrübəyə açıq olma** | **Dünyagörüşü** | **Məntiq** |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Sosial-praktiki intellekt** | Korrelyasiya əmsalı | 1,000 | **,313**$^{**}$ | **,307**$^{**}$ | **,390**$^{**}$ | ,031 | **,314**$^{**}$ | **,392**$^{**}$ | **,383**$^{**}$ |
| | Əhəmiyyətlilik göstəricisi | . | **,000** | **,000** | **,000** | ,717 | **,000** | **,000** | **,000** |
| | Say | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 |
| **Ekstraversiya** | Korrelyasiya əmsalı | **,313**$^{**}$ | 1,000 | **,534**$^{**}$ | **,533**$^{**}$ | ,109 | **,553**$^{**}$ | ,067 | **,223**$^{**}$ |
| | Əhəmiyyətlilik göstəricisi | **,000** | . | **,000** | **,000** | ,195 | **,000** | ,425 | **,007** |
| | Say | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 |
| **Razılaşmağa meyllilik** | Korrelyasiya əmsalı | **,307**$^{**}$ | **,534**$^{**}$ | 1,000 | **,676**$^{**}$ | ,111 | **,593**$^{**}$ | **,170**$^{*}$ | **,206**$^{*}$ |
| | Əhəmiyyətlilik göstəricisi | **,000** | **,000** | . | **,000** | ,187 | **,000** | **,042** | **,013** |
| | Say | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 |
| **Özünü idarə etmə** | Korrelyasiya əmsalı | **,390**$^{**}$ | **,533**$^{**}$ | **,676**$^{**}$ | 1,000 | ,040 | **,436**$^{**}$ | ,074 | **,209**$^{*}$ |
| | Əhəmiyyətlilik göstəricisi | **,000** | **,000** | **,000** | . | ,639 | **,000** | ,378 | **,012** |
| | Say | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 |
| **Yüksək emosionallıq** | Korrelyasiya əmsalı | ,031 | ,109 | ,111 | ,040 | 1,000 | **,357**$^{**}$ | -,049 | ,059 |
| | Əhəmiyyətlilik göstəricisi | ,717 | ,195 | ,187 | ,639 | . | **,000** | ,564 | ,483 |
| | Say | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 |
| **Yeni təcrübəyə açıq olma** | Korrelyasiya əmsalı | **,314**$^{**}$ | **,553**$^{**}$ | **,593**$^{**}$ | **,436**$^{**}$ | **,357**$^{**}$ | 1,000 | ,066 | **,291**$^{**}$ |
| | Əhəmiyyətlilik göstəricisi | **,000** | **,000** | **,000** | **,000** | **,000** | . | ,437 | **,000** |
| | Say | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 |
| **Dünyagörüşü** | Korrelyasiya əmsalı | **,392**$^{**}$ | ,067 | **,170**$^{*}$ | ,074 | -,049 | ,066 | 1,000 | **,450**$^{**}$ |
| | Əhəmiyyətlilik göstəricisi | **,000** | ,425 | **,042** | ,378 | ,564 | ,437 | . | **,000** |
| | Say | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 |
| **Məntiq** | Korrelyasiya əmsalı | **,383**$^{**}$ | **,223**$^{**}$ | **,206**$^{*}$ | **,209**$^{*}$ | ,059 | **,291**$^{**}$ | **,450**$^{**}$ | 1,000 |
| | Əhəmiyyətlilik göstəricisi | **,000** | **,007** | **,013** | **,012** | ,483 | **,000** | **,000** | . |
| | Say | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 | 143 |

Türkiyənin İstanbul Ticarət Universiteti və Beykent Universiteti tərəfindən aparılmış tədqiqatın nəticələrinə əsasən şəxsiyyətin beş faktorundan üçü – Ekstraversiya, Özünü idarəetmə və Yüksək emosionallıqla idarəetmə və qərarvermə stilləri arasında ciddi əlaqə olduğu müəyyən olunub (Ülgen, Sağlam & Tuğsal, 2016). Başqa bir araşdırmaya əsasən ümumi məqsədlərə xidmət etmək istəməyən şəxslərin olduğu komandalarda digər üzvlərin razılaşmağa meyllilik və özünü idarə etmə səviyyəsinin yüksək olması bu neqativ amili kompensasiya edir (Schippers, 2014).

Digər tədqiqatlarda da situasiya mühakimə testləri (SMT) üzrə nəticələrlə böyük beşliyə daxil olan Özünü idarə etmə və Razılaşmağa meyllilik faktorları arasında əhəmiyyətli əlaqə müşahidə olunur (Al Hashmi & Klassen, 2020). Ümumiyyətlə SMT-lərin validliyi məsələsi geniş müzakirə və araşdırma mövzusudur. Biliyə əsaslanan təlimat tipli test tapşırıqlarının daha çox ümumi mental bacarıqlarla, davranış tendensiyası tipli sualların isə şəxsiyyət tipi ilə korrelyasiyası müşahidə olunur (Muchinsky, 2012). SMT-lərin validasiyası ilə əlaqədar Virginia Commonwealth Universitetindən Michael Mcdanielin rəhbərliyi altında aparılan tədqiqatda bu testlərə verilən cavablarla şəxsiyyətin faktorları arasında əlaqə də araşdırılıb. Nəticədə müəyyən olunub ki, davranış meyli təlimatları şəklində tərtib olunmuş SMT-lər, Böyük beşliklə biliyə əsaslanan SMT-lərə nisbətən daha yüksək korrelyasiyaya malikdirlər (McDaniel, Hartman, Whetzel & Grubb, 2007). Ployhart və Ehrhart (2003) da iddia edir ki, SMT tapşırıqlarında sualın qoyuluşu cavablara, onların etibarlılığına və validliyinə böyük təsir göstərir. Ümumiyyətlə, “nə edərdiniz” tipli sual, “nə etməlisiniz” tipli sualdan daha etibarlı nəticələr nümayiş etdirir. Bu tədqiqatda istifadə olunan SMT-lər davranış meyli tipli təlimatlara (yəni, “bu vəziyyətdə nə edərdiniz?” suallardan ibarət olub) əsaslanıb və böyük beşlik faktorlarından dördü ilə əhəmiyyətli korrelyasiyaya (,30-,40 diapazonunda) malik olub.

Sosial-praktiki intellektlə Yüksək emosionallıq arasında əhəmiyyətli əks-əlaqə ehtimal olunsa da, bu testin nəticələrində bu ehtimal öz təsdiqini tapmayıb. Digər tərəfdən sosial-praktiki intellekt testinin həm şəxsiyyətin digər dörd faktoru ilə həm də, test blokları ilə əhəmiyyətli korrelyasiyası bu alətin səmərəliyini sübut edir. Belə ki, müxtəlif vəzifələrin səmərəli icrasını təmin etmək üçün namizədlərin seçimi prosesində intellektual keyfiyyətlərlə yanaşı, şəxsi keyfiyyətlərin də nəzərə alınması vacibdir (Alhendi, 2019). Razılaşmağa meyllilik fak-

torunun zehni qabiliyyətlərlə (Curtis, Windsor & Soubelet, 2015) və SMT nəticələri ilə (Al Hashmi & Klassen, 2020) əlaqəsi digər tədqiqatlarla da təsdiq olunub. Bu tədqiqatda da bu faktorun test blokları ilə müsbət əlaqəsi qeydə alınıb.

Daha sonra sosial-praktiki intellekt üzrə SMT nəticələrinin digər faktorlarla qarşılıqlı təsirini daha detallı müəyyən etmək üçün dispersiya analizləri həyata keçirilib. Birfaktorlu dispersiya analizi bu test üzrə nəticələrin dünyagörüşü və məntiq blokları ilə, eləcə də Yüksək emosionallığı çıxmaqla şəxsiyyətin digər faktorları ilə əhəmiyyətli qarşılıqlı təsirə malik olduğunu müəyyən edib. Qruplar arasında qarşılıqlı təsir fərqlərini müəyyən etmək üçün əvvəlcə Livin kriteriyası üzrə dispersiyanın yekcinsliyi yoxlanılıb.

***Cədvəl 6.***

*Dispersiya analizi və Livin kriteriyası üzrə dispersiyanın yekcinslik analizi üzrə nəticələr*

| | **Dispersiya analizi** | | **Livin statistikası** | |
|---|---|---|---|---|
| | F | Əhəm. | F | Əhəm. |
| **Dünyagörüşü bloku** | 14,801 | **,000** | 1,374 | **,256** |
| **Məntiq bloku** | 15,457 | **,000** | 2,513 | **,085** |
| **Ekstraversiya** | 13,216 | **,000** | 15,394 | ,000 |
| **Razılaşmağa meyllilik** | 14,328 | **,000** | 23,749 | ,000 |
| **Özünü idarə etmə** | 18,208 | **,000** | 36,784 | ,000 |
| **Yüksək emosionallıq** | ,133 | ,876 | 3,378 | ,037 |
| **Yeni təcrübəyə açıq olmaq** | 13,849 | **,000** | 14,309 | ,000 |

Dünyagörüşü və məntiq blokları üzrə əhəmiyyətlilik göstəricisi 0.05-dən yuxarı olduğu üçün onlara münasibətdə 0-hipotezini qəbul edilib. Buna görə də bu bloklar üzrə Şeffe parametrik kriteriyasından, şəxsiyyətin

beş faktoru üzrə isə alternativ hipotez qəbul edərək Tamheyn qeyri-parametrik kriteriyasından istifadə edilib. Bu kriteriyalar bizə ikili müqayisə aparmağa və sosial-praktiki intellekt testi nəticələrinin üç səviyyəsinin digər bloklarla və şəxsiyyətin faktorları ilə qarşılıqlı əlaqəsindəki fərqləri müəyyən etməyə imkan verir. Cədvəl 7-də sosial-praktiki intellekt testi üzrə aşağı, orta və yüksək nəticə göstərən qrupların ümumi dünyagörüşü və məntiq blokları üzrə nəticələrinin müqayisəsi təqdim olunub.

***Cədvəl* 7.**

*Şeffe parametrik metodu ilə ikili müqayisə*

| Asılı dəyişən | (A) Sosial-praktiki intellekt (kateqoriya-lara ayrılmış) | (B) Sosial-praktiki intellekt (kateqoriya-lara ayrılmış) | A-B arasında orta bal fərqi | Standart xəta | Əhəm. |
|---|---|---|---|---|---|
| **Dünyagö-rüşü** | Aşağı | Orta | **-7,367*** | 1,586 | **,000** |
| | | Yüksək | **-8,520*** | 1,829 | **,000** |
| | Yüksək | Orta | 1,152 | 1,785 | ,812 |
| **Məntiq** | Aşağı | Orta | **-6,840*** | 1,499 | **,000** |
| | | Yüksək | **-8,510*** | 1,729 | **,000** |
| | Yüksək | Orta | 1,669 | 1,686 | ,614 |

Cədvəldən də göründüyü kimi sosial-praktiki intellekt testi üzrə müxtəlif səviyyələrdə nəticə göstərən qrupların ümumi dünyagörüşü testi üzrə nəticələrində əhəmiyyətli fərqlər vardır: Aşağı qrupun nəticələri orta qrupun nəticələrindən orta hesabla 7,37 bal, yüksək qrupun nəticələrindən isə 8,52 bal aşağıdır; yuxarı qrupla orta qrupun nəticələri arasında fərq 1,15 baldır. Məntiq bloku üzrə nəticələrdə də əhəmiyyətli fərqlər müşahidə olunur: sosial-praktiki intellekt üzrə aşağı qrupun nəticələri orta qrupdan orta hesabla 6,84 bal, yuxarı qrupdan isə 8,51 bal aşağıdır, dolayısıyla yuxarı qrup orta qrupdan orta hesabla 1,67 bal yüksək nəticə göstərib. Dolayısıyla həm dünyagörüşü, həm də məntiqi bloku üzrə nəticələrin sosial-praktiki intellektlə arasında qarşılıqlı əlaqə olduğunu deyə bilərik. Lakin unutmamalıyıq ki, qarşılıqlı əlaqə heç də hər zaman səbəb-nəticə əlaqəsi demək

deyil, bu hal bəzən hər iki faktora təsir edən ortaq müstəqil dəyişənin olmasından xəbər verə bilər.

Növbəti cədvəldə Sosial-praktiki intellekt testinin nəticələrinin səviyyələri (aşağı, orta, yüksək) ilə şəxsiyyətin beş faktoru üzrə nəticələrlə əlaqələrin müəyyən olunması üçün Tanheym kriteriyası üzrə müqayisəli təhlil təqdim olunub.

***Cədvəl 9.***

*Tanheym qeyri-parametrik kriteriyası üzrə müqayisəli təhlil*

| Asılı dəyişən | (A) Sosial-praktiki intellekt (kateqoriyalara ayrılmış) | (B) Sosial-praktiki intellekt (kateqoriyalar a ayrılmış) | A-B arasında orta bal fərqi | Standart xəta | Əhəm. |
|---|---|---|---|---|---|
| **Ekstraversiya** | Aşağı | orta | **-9,630*** | 2,107 | **,000** |
| | | yüksək | **-8,245*** | 2,474 | **,004** |
| | yüksək | orta | -1,385 | 1,800 | ,829 |
| **Razılaşmağa meyllilik** | Aşağı | orta | **-11,397*** | 2,574 | **,000** |
| | | yüksək | **-10,422*** | 2,662 | **,001** |
| | yüksək | orta | -,976 | 1,679 | ,917 |
| **Özünü idarə etmə** | Aşağı | orta | **-12,431*** | 2,642 | **,000** |
| | | yüksək | **-13,010*** | 2,676 | **,000** |
| | yüksək | orta | ,579 | 1,588 | ,977 |
| **Yüksək emosionallıq** | Aşağı | orta | -,495 | 2,239 | ,995 |
| | | yüksək | -1,255 | 2,436 | ,940 |
| | yüksək | orta | ,760 | 2,058 | ,976 |
| **Yeni təcrübəyə açıq olmaq** | Aşağı | orta | **-8,754*** | 2,060 | **,000** |
| | | yüksək | **-9,490*** | 2,337 | **,000** |
| | yüksək | orta | ,736 | 1,641 | ,959 |

Cədvəldən göründüyü kimi, yüksək emosionallıq faktoru üzrə sosial-praktiki intellekt testinin səviyyələri arasında əhəmiyyətli əlaqə yoxdur. Digər faktorlar üzrə isə əhəmiyyətli fərqlər qeydə alınıb. Sosial-praktiki intellekt üzrə aşağı səviyyədə nəticə göstərənlər orta və yüksək nəticə

göstərənlərə nisbətən daha çox həm introvesiyaya (Ekstraversiyanın əks qütbü), həm fərdiyyətçiliyə (Razılaşmağa meylliliyin əks qütbü), həm yüksək impulsivliyə (Özünü idarə etmənin əks qütbü), həm də ifrat praktiki yanaşmaya (Yeni təcrübəyə açıq olmanın əks qütbü) meyillidirlər. Dolayısıyla yüksək və orta nəticə göstərənlərin nisbətən həm ekstrovert, razılaşmağa meyilli, özünü idarə edə bilən və yeni təcrübələrə açıq tiplər olduğunu qeyd edə bilərik.

## NƏTİCƏ

Belə ki, sosial-praktiki intellekt testi üzrə orta və yüksək göstəriciyə malik qrupların şəxsiyyətin faktorları üzrə nəticələrində əhəmiyyətli fərqlər müşahidə olunmamasını Yüksək emosionallıq faktorunu çıxmaq şərtilə şəxsiyyətin digər faktorları üzrə orta nəticənin şkala üzrə orta qiymətdən yüksək olması və nəticələrin paylanmasında sağ tərəfə (yəni daha yüksək göstəriciyə doğru) meyil müşahidə olunması, yəni orta göstəricinin kifayət qədər yüksək olması ilə izah etmək olar.

***Ədəbiyyat:***

1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2018). Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında. http://www.e-qanun.az/framework/40748
2. Alhendi, O. (2019). Personality Traits and Their Validity in Predicting Job
3. Performance at Recruitment: a Review. International Journal of Engineering and Management Sciences. 4. 222-231. 10.21791/IJEMS.2019.3.21.
4. Al Hashmi, W. & Klassen, R. M. (2020). Developing a situational judgment test for admission into initial teacher education in Oman: An exploratory study, International Journal of School & Educational Psychology, 8:sup1, 187-198, DOI: 10.1080/21683603.2019.1630042
5. Curtis, R.G., Windsor, T. D. & Soubelet, A. (2015) The relationship between Big-5 personality traits and cognitive ability in older adults – a review. Aging, Neuropsychology, and Cognition. 22:1, 42-71, DOI: 10.1080/13825585.2014.88-8392
6. Emmerling, R. J. & Boyatzis, R. E. (2012). Emotional and social intelligence competencies: cross cultural implications. Cross Cultural Management: An International Journal.

7. Farhadi, H., Fatimah, O., Nasir, R. & Wan Shahrazad, W.S. (2012). Agreeableness and Conscientiousness as Antecedents of Deviant Behavior in Workplace. Asian Social Science. Vol. 8, No. 9.
8. Furnham, A., Chamorro-Premuzic, T. (2006). Personality, intelligence and general Knowledge. Learning and Individual Differences, Volume 16, Issue 1, Pages 79-90, ISSN 1041-6080,(http://www.sciencedirect.com/science/article /pii /S1041 608-005000 385)
9. Hasso, R. (2013). The impact of CEO's personality traits (Big 5) and humanresources management practices on the innovation performance in SMEs.
10. Koczwara, A., Patterson, F., Zibarras, L., Kerrin, M., Irish, B. and Wilkinson, M. (2012), Evaluating cognitive ability, knowledge tests and situational judgement tests for postgraduate selection. Medical Education, 46: 399-408. https://doi.org/10.1111/j.1365-2923.2011.04195.x
11. Kosmitzki, C. & John, O. P. (1993).The implicit use of explicit conceptions of social intelligence. Personality and Individual Differences.Volume 15, Issue 1, Pages 11-23,
12. Libbrecht, N. & Lievens, F. (2012). Validity evidence for the situational judgment test paradigm in emotional intelligence measurement. International Journal of Psychology, 47:6, 438-447, DOI: 10.1080/ 00207594.2012.682063
13. Lievens, F., Peeters, H. and Schollaert, E. (2008), "Situational judgment tests: a review of recent research". Personnel Review. Vol. 37 No. 4. pp. 426-441. https://doi.org/10. 1108/00483480810877598
14. Lievens, F. & Sackett, P. R. (2012). The validity of interpersonal skills assessmentvia situational judgement tests for predicting academic success and job performance". Journal of Applied Psychology. 97 (2): 460–468. doi:10.1037/ a0025741. PMID 21967295.
15. McDaniel, M. A., Hartman, N. S., Whetzel, D. L. & Grubb, W. I. (2007). Situational judgment tests, response instructions, and validity: A meta-analysis. Personnel Psychology. 60 (1), 63-91.
16. Muchinsky, P. (2012). Psychology Applied to Work. Summerfield, NC: Hypergraphic Press. pp. 110–11. ISBN 978-0-578-07692-8.
17. Patterson, F., Ashworth, V., Zibarras, L., Coan, P., Kerrin, M. & O'Neill, P. (2012). Evaluations of situational judgement tests to assess non-academic attributes in selection. Medical Education. 46: 850-868.

https://doi.org/10.1111/j.1365-2923.2012.04336.x

18. Ployhart, R.E. and Ehrhart, M.G. (2003). Be Careful What You Ask For: Effects of Response Instructions on the Construct Validity and Reliability of Situational Judgment Tests. International Journal of Selection and Assessment. 11: 1–16. https://doi.org/10.1111/1468-2389.00222
19. Schippers, M. C. (2014). Social lofing tendencies and team performance: the compensating effect of agreeableness and conscientiousness. AMLE, 13, 62–81, https://doi.org/10.5465/amle.2012.0191
20. Simha, A., Parboteeah, K.P. (2020). The big 5 personality traits and willingness to justify unethical behavior - a cross-national examination. J Bus Ethics 167, 451–471 https://doi.org/10.1007/s10551-019-04142-7
21. Sorrel M.A, Olea J, Abad FJ, de la Torre J, Aguado D, Lievens F. (2016). Validity and reliability of situational judgement test scores: a new approach based on cognitive diagnosis models. Organizational Research Methods.19(3):506-532. doi:10.1177/1094428116630065
22. Stankov L. (2006). Low correlations between intelligence and big five personality traits: need to broaden the domain of personality. School of Psychology, The University of Sydney. Sydney, Australia. https://www.mdpi.com/2079-3200/6/2/26/htm
23. Tiffin, P.A, Paton, LW, O'Mara, D, MacCann, C, Lang, JWB, Lievens, F. (2020). Situational judgement tests for selection: traditional vs construct‐driven approaches. Med Educ. 54: 105–115. https: //doi.org /10.1111/ medu.14011
24. Vogt, B. (not published yet). Opening the black box - how do personality traits and preferences affect test scores? PRELİMİNARY ARTİCLE RETREİVED FROM http://www. iwaee.org/Paper Validi2014 /20140227135128 _PersonalityandTestout-comes140227.pdf
25. Witt, L. A., Burke, L. A., Barrick, M. R., & Mount, M. K. (2002). The interactive effects of conscientiousness and agreeableness on job performance. Journal of Applied Psychology, 87(1), 164–169. https://doi.org/10.1037/0021-9010.87.1.164
26. Ziegler, M., A. Cengia, P. Mussel, and Gerstorf, D. (2015). Openness as a buffer against cognitive decline: the openness-fluid-crystallized-intelligence (OFCI)

model applied to late adulthood. Psychol. Aging 30: 573–588
27. Ülgen, B., Sağlam, M. & Tuğsal,T. (2016). Managers' personality traits over management styles and decision-making styles. International Journal of Commerce and Finance.

## SITUATIONAL JUDGMENT TESTS AS A FACTOR IMPROVING THE QUALITY OF SELECTION OF CANDIDATES FOR CIVIL SERVICE POSITIONS

***Parviz Kazimov***

### ABSTRACT

The main purpose of this study was to determine the effectiveness of situational judgment tests (SJTs) for mass assessment of the general competencies of candidates to civil service positions. As a result of the study, it was investigated whether SJTs designed to assess social-practical intelligence and management skills correlate with personality type along with traditional test results. The obtained results and the final conclusions are largely consistent with the results of research in this area. Analysis of the results of the two examinations revealed positive correlation of SJTs with the general outlook, logical skills and four of the five personality factors. At the same time, it was found that personality factors have a higher correlation with the test of social-practical intelligence than the general outlook and logic blocks.

Lmitations of the study include the use of non-representative sample for research, the use of a scaled-down version of the Big-5 personality inventory, and the possibility that responses to some factors may have been influenced by the social desirability factor.

To more accurately determine the validity of SJTs, it would be useful to evaluate the same population group with alternative tools such as interviews, simulations, role-plays, as well as to evaluate performance in the real work process (eg 360-degree method) and compare test results. At the same time, SJTs should be tested against factors such as tutoring and fraud.

Rəyçi M.H.Mustafayev, psixologiya üzrə fəlsəfə doktoru
Məqalə redaksiyaya 26 dekabr 2020-ci ildə daxil olmuşdur

UOT 316.346.3–053.6

# MÜASİR DÖVRDƏ YENİYETMƏ VƏ GƏNCLƏRDƏ DƏYƏRLƏRİN TRANSFORMASİYASININ İSTİQAMƏTLƏRİ

**Rəşid Cabbarov,**

*psixologiya elmləri doktoru*
*Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının dosenti*
*E-mail: rashid.cabbarov@mail.ru*

**Müşviq Mustafayev,**

*psixologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi*
*Zahid Xəlilov küçəsi - 23. indeks: AZ 1148*
*Email: mustafayev76@mail.ru*

***Açar sözlər:*** *Təhsil, yeniyetmə-gənclər, dəyərlər sistemi, sosial-psixoloji məsələlər*

***Keywords:*** *Education, adolescents, value system, socio-psychological issues*

## GİRİŞ

Yeniyetməlik-gənclik yaşı dövründə şəxsiyyətin dəyərlər sistemində bir sıra dəyişikliklər, yeni psixoloji vəziyyətlər meydana çıxır. Bu dövrdə yeniyetmə gənclər öz dəyərlər sistemini dərk etmək və qiymətləndirməklə yanaşı, onların mənlik şüurunun məzmunu və özləri haqqında təsəvvürü dəyişir. Yeniyetmə gənclər öz dəyərlər sistemini ictimai baxımdan qiymətləndirməyə və başqa insanlara da bu baxımdan qiymət verməyə çalışırlar. Onlar müstəqil mənəvi prinsiplər sisteminə əsaslanmağa, dünyagörüşü və əqidələrinə uyğun olaraq hərəkət etməyə, qəbul etdikləri qərarları sərbəst həyata keçirməyə çalışırlar. Bununla yanaşı olaraq qeyd etmək lazımdır ki, bu dövrdə şəxsiyyətin mənəvi inkişafında bir sıra köklü dəyişikliklər, yeni psixoloji vəziyyətlər meydana çıxır. Digər tərəfdən qeyd edək ki, gənclərin problemləri təkcə gənc nəsli deyil eləcə də cəmiyyəti

bütünlükdə maraqlandırır və bu problemlərin həlli yollarını tapmaq təkcə bu günü deyil sabahın da yaxşı olmasını şərtləndirir. Qloballaşma ilə bağlı dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycan gənclərinin də dəyərlərində və sərvət meyillərində dəyişikliklər özünü göstərir. Yeni meydana gələn bu dəyişikliklər bir tərəfdən müsbət xarakter daşısa da özü ilə bərabər bir sıra mənfi halların yaranmasına rəvac verir.

Dünyaya inteqrasiya prosesinin güclənməsi fonunda dəyərlərin transmissiyası, o cümlədən transformasiyası prosesi güclənməkdədir. Yeni dəyərlərin cəmiyyətin bütün sferalarına nüfuz etməsi, xüsusilə də təhsildə dominantlıq təşkil etməsi təhsil sistemində yeniyetmə və gənclərin dəyərlərinin istiqamətləri ilə bağlı məsələlərə yeni kontekstdən baxmağı diktə edir. Bunun əsas səbəblərindən biri yeniyetmə və gənclərin yeni dəyərlərə açıq olması, əksinə təhsil verənlərin isə mühafizəkarlığıdır. Ənənəvi təhsil sisteminin bir sıra elementlərinin mövcudluğu şəraitində də bu qaçılmazdır. Həm də təhsildə humanistləşdirmənin bütünlüklə həyata keçirilib başa çatmaması da bu prosesin izlənməsini zəruri edir.

Nəzərə almaq lazımdır ki, dəyər anlayışı hər zaman filosofların, psixoloqların, pedaqoqların diqqət mərkəzində olmuş və müasir təhsil nəzəriyyələrində geniş şəkildə öz əksini tapmışdır. Dəyər və sərvət dəyərləri anlayışının çox tərəfli tədqiqi, o cümlədən fəlsəfədə, psixologiyada, kulturologiyada aparılmış tədqiqatlar göstərir ki, bu anlayışın birmənalı başa düşülməsinə imkan verən vahid konseptual yanaşma mövcud deyildir. Ancaq müasir sosial-tarixi şəraitdə problemə baxış kontekstindən asılı olmayaraq dəyərlər cəmiyyətin inkişafının vacib komponenti, ictimai və siyasi şüurun gərəkli elementi, həmçinin yeniyetmə və gənclərin həyat strategiyasının istiqaməti kimi, onların sosial imperativlərinin tənzimləyicisi kimi, sosial qarşılıqlı təsirin göstəricisi, fərdin özünügerçəkləşdirməsinin motivi kimi öyrənilməkdədir [Kuczynski, L., & Navara, G. S. 2006].

Dəyərlər problemi insan və cəmiyyətdə sosial qarşılıqlı əlaqələrin öyrənilməsi ilə məşğul olan elmlər sistemində olduqca zəruri problem kimi özünü göstərir. Bunun başlıca səbəbi dəyərlərin şəxsiyyət, sosial qruplar, xalqlar üçün və bütünlüklə insanlıq üçün inteqrativ baza və ya əsas olmasıdır.

İnsanın həyata yolunu, onun həyat strategiyasını dəyərlər istiqamətləndirir. Dəyərlər insanın nisbətən əhəmiyyətli məqsədləri və davranış formaları haqqında ümumiləşmiş təsəvvürləridir. Onlar gerçəkliyin qavranılmasının prioritetliyini təyin edir, insanların bütün həyat sferalarında hərəkət və əməllərini

yönləndirir, əhəmiyyətli şəkildə cəmiyyətin "yaşam tərzini" müəyyənləşdirir.

Dominantlıq təşkil edən dəyərlər sistemi və məcmusu cəmiyyətin tarixi və mədəni xüsusiyyətlərini konsentrasiya olunmuş şəkildə inikas etdirir [Trommsdorff, G.,2009]. Bir məqama da diqqət yetirilməlidir ki, dəyərlərlə yanaşı, həm də sərvət dəyərləri anlayışı da tez-tez psixoloji ədəbiyyatlarda işlədilir.

Sərvət dəyərləri-şəxsiyyətin daxili (dispozision) sturkturunun elementləri olub, sosializasiya və sosial adaptasiya prosesində fərdin formalaşmış və möhkəmlənmiş həyat təcrübəsi ilə şərtlənir [Roest, A. M. C., Dubas, J. S., & Gerris, J. R. M.,2009].

Sərvət dəyərlərini sosial situasiyalarda münasibətlərin, davranışların, eləcə də fərdi və qrup qavrayışının qəbuluna imkan verən prinsiplər kimi səciyyələndirmək olar. Sərvət dəyərləri həm də sosial davranış modellərini, onların istiqamətini müəyyənləşdirir.

Dəyərlər problemini təhlil edən görkəmli tədqiqatçı M.Rokiçin fikrincə, dəyərlər aşağıdakı əlamətlərlə xarakterizə edilir:

1) insanın nisbətən kiçik mülkiyyəti sayılan dəyərlərin ümumi kəmiyyəti;
2) bütün insanlar müxtəlif səviyyələrdə olsa da, lakin eyni dəyərlərə malikdirlər;
3) dəyərlər sistem şəklində təşkil edilmişdir;
4) dəyərlərin mənbələri mədəniyyətdə, cəmiyyətdə və onun institutlarında və şəxsiyyətdə təhlil edilir;
5) dəyərlərin təsiri öyrənmə tələb edən bütün sosial fenomenlərdə praktik şəkildə tədqiq edilir.

M.Rokiçn fikrincə , hər bir dəyər bir inanca söykənir. Sərvət meyli isə inanclar və dəyərlər toplusuna əsaslanır [M.Rokiç, 1976 ].

A.N.Leontyev fikrincə, şəxsiyyətin dəyərlərinin məna əmələ gətirən funksiyaları həm aktual fəaliyyətin istiqamətinin seçilməsindəki motiv əmələ gətirmə situasiyalarında, həm də digər məna strukturlarının yaranmasında olduğu kimi özünü göstərir [11]. Müəllif şəxsi dəyərləri sabit, situasiyadan kənar, ümumiləşdirilmiş motivasion törəmələr kimi xarakterizə edirdi ki, onların da funksiyaları konkret situativ motivlərin vasitəsilə fəaliyyətə təhrik edilmə şəklində ifadə olunurdu. A.N.Leontyevin fikrincə, şəxsi məna subyektin xalis həyatı münasibətlərinin bilavasitə əks etdirir və özündə yaşadır. Cisim və hadisələrin mahiyyəti ilə onların şəxsi mənası bir sıra mühüm xüsusiyyətlərə görə fərqlənir. Birincisi, şəxsi məna nəinki dərk olunmuş formada, həm də çox vaxt dərk edilməmiş formada mövcud olur. İkincisi, şəxsi mənanın əmələ

gəlməsinə bilavasitə nəzarət etmək və ancaq söz vasitəsilə təsir etmək mümkün deyildir (Şəxsiyyəti öyrətmirlər, tərbiyə edirlər). Üçüncüsü, şeylərin əhəmiyyətindən fərqli olaraq şəxsi məna öz-özünə, obyektiv surətdə mövcud deyildir. Onlar müəyyən bir fəaliyyət daxilində əmələ gəlir və öz-özlüyündə fəaliyyətdən kənarda, özlərinin kontekstindən kənarda öyrənilə bilməz. Bununla da şeylərin əhəmiyyəti fərdi şüur sistemində psixolojiləşir, yəni, şəxsi məna kəsb edir. Şəxsi mənanın formalaşması mürəkkəb və çoxcəhətli prosesdir. Bir sıra hallarda şeylərin əhəmiyyəti ilə onların subyekt üçün şəxsi mənası nəinki uyğun gəlmir, hətta bir-biri ilə ziddiyyət kəsb edir. Şəxsi məna əhəmiyyəti kəsb edən motivlər fəaliyyət prosesində dərk olunduqca şüurlu məqsədə çevrilir və fəaliyyətin obyektiv məntiqinə tabe olur [A.N.Leontyev 1981]. Mənəvi inkişafda müsbət və mənfi qiymətləndirmənin qarşılıqlı əlaqəsinin dialektikasının açılması bizə mənəvi inkişafın ayrı-ayrı aspektlərini izah etməyə, şəxsiyyətin özünün təkmilləşdirməsində rolunu və mövqeyini müəyyənləşdirməyə imkan vermiş olur. Belə ki, öz şəxsi keyfiyyətinin müsbət qiymətləndirilməsi mənəvi dəyərlərə münasibətə, eyni vaxtda onun dərk edilməsinə və onun xeyirli olmasının başa düşülməsinə gətirib çıxardır.. Dəyərlər insanın reallaşma imkanı tələb edən praktik fəaliyyəti əsasında yaranır. V. Yadov şəxsiyyətin dispozision strukturu nəzəriyyəsində göstərirdi ki, sərvət meyli anlayışı dəyər anlayışından daha mürəkkəb və dərin kateqoriyadır. Sərvət meyli bütünlükdə fərdin sosial davranışını idarə edir. Yadovun fikrincə məhz sərvət meyilləri əsasında insan tale yüklü qərarlar qəbul edir və gələcək həyatını bu meyillər üzərində qurur [Yadov, 1979].

V.N.Myasişevə görə, dəyərlərin məzmunu bu dəyərlər sistemi ilə və insanın təcrübəsinin əyani məzmunu ilə əlaqəli olan münasibətlərin məcmusunu təşkil edir V.N.Myasişev subyektin dəyərlərini subyekt-obyekt qarşılıqlı münasibətləri çərçivəsində həyata keçirilən şəxsi münasibətlər planında təsvir etmişdir. Münasibətlər insanın subyektivliyini, tərəfkeşliyini, bəzi dəyərlərə digərləri ilə müqayisədə üstünlük verildiyini sübut edir. Hər bir fərd cəmiyyətdə qəbul edilmiş dəyərlər arasında özü üçün daha vacib olanını seçir və onlara doğru yönəlir [V.N.Myasişev1998].

Sərvət meyilləri probleminin tədqiqində prof. Ə.S.Bayramovun tələbələrin sərvət meyilləri və ideallarının onların şəxsiyyətinin inkişafında roluna dair apardığı tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. O, qeyd edir ki, ayrı-ayrı adamların rəftar və davranışında rast gəlinən qeyri-əxlaqi hərəkətlər daha çox onların yaşadıqları

mikromühitdən asılıdır. Yəni ayrıca bir şəxs neçə adamlarla əhatə olunub, ona nəyi təlqin edirlər. Məlumdur ki, şəxsiyyətə edilən bu və ya digər təsir izsiz qalmır. Burada kimdən nümunə götürmək çox böyük əhəmiyyət kəsb edir. Onun özünün, onu əhatə edən adamların sərvət meyli necədir, onlar öz həyatının mənalarını nədə görür və nəyə can atırlar məsələsi diqqətdən qaçırıla bilməz. Hər bir adam bu və ya digər şəxsə və ya qrupa öz sərvət meyli nöqteyi-nəzərdən yanaşır. Hər bir fəaliyyət adamına öz təcrübəsindən bəllidir ki, kollektiv üzvlərindən birinin iş yeri dəyişdik də onun şəxsiyyətlərarası münasibətlərindəki mövqeyi də dəyişir.

Ə.S.Bayramovun fikrincə, hər bir insanın yüksək qiymətləndirdiyi keyfiyyətlər müvafiq stereotip, etalon və ideallarla bağlı olub onların dəyərlər sisteminin formalaşması prosesinin mühm tərkib hissəsini təşkil edir. İnsanın sərvət təsəvvürü, onun öz real həyatı ilə, ictimai və əxlaqi tələbatları, maraqları, məqsədləri ilə əlaqədardır [Əkbər Bayramov, 2003].

Tədqiqatın metodu. Şvartsın 57 müddəadan ibarət dəyərlər sorğusu metodikasından istifadə olunmuşdur.

Şvartsın 57 müddəadan ibarət dəyərlər sorğusu vasitəsi ilə "ideal mən" və "real mən" ölçülmüş və tədqiqatda iştirak edən respondentin müddəalara verdikləri qiymətlər əsasında hər iki qrupda (texniki sahənin tələbələri və humanitar sahənin tələbələri) "ideal mən" ilə "real mən" arasındakı fərq iki səviyyədə, yəni normativ ideallar və şəxsi davranış səviyyəsində təhlil edilmişdir

Cüt-cüt nümunələrin fərqinə dair statistik cədvələ əsasən aydın olur ki, texniki və humanitar ixtisaslar üzrə təhsil alan tələbələrdə normativ ideallar və şəxsi davranış səviyyəsində dəyərlərə aid statistik göstəriciləri hər iki qrupda bir-birindən fərqlidir. Belə ki, texniki sahələr üzrə təhsil alan tələbələrin normativ ideallar üzrə topladığı balın ədədi ortası ($\overline{X}$) davarnış səviyyəsinə aid ədədi orta ilə müqayisədə daha yüksəkdir və aradakı fərq 24.948-ə bərabərdir. Humanitar sahələr üzrə təhsil alan tələbələrdə də, normativ ideallar üzrə toplanmış balın ədədi ortası davranış səviyyəsinə aid ədədi orta ilə müqayisədə daha yüksəkdir və aradakı fərq 24.948-ə bərabərdir.

***Cədvəl 1.***

*Humanitar və texnik fakültələrdə təhsil alan tələblərin normativ ideallar ilə davranış səviyyəsi arasındakı müşahidə edilmiş fərqin göstəriciləri*

| Paired Samples Statistics (cüt-cüt nümunələrin statistikası) | | | | |
|---|---|---|---|---|
| İxtisas | Əlamət | Mean | Std. Deviation | Std. Error Mean |
| Texniki | Normativ ideallar – Shuvarts | 135.20 | 26.046 | 1.165 |
| | Davranış səviyyəsi – Shuvarts | 109.25 | 47.531 | 2.126 |
| Humanitar | Normativ ideallar – Shuvarts | 138.91 | 22.579 | 1.010 |
| | Davranış səviyyəsi – Shuvarts | 108.80 | 42.167 | 1.886 |

Hər iki qrupda normativ ideallar ilə davranış səviyyəsi arasındakı müşahidə edilmiş fərqin statistik baxı-mından mənalı olub-olmaması aşağıda "cüt-cüt nümunələrin T.test"i cədvəlində verilmişdir. Cədvələ nəzərən aydın olur ki, hər iki qrupda normativ ideallar ilə davranış səviyyəsi arasındakı fərq 0.01 səviyyəsində mənalıdır. Belə ki, texniki tələbələrdə P=0.000 və humanitar tələbələrdə də P=0.000 olmuşdur. Bu isə iki əlamət üzrə (normativ ideallar və davranış səviyyəsi) fərqin mənalı olduğunu söyləməyə əsas verir.

***Cədvəl 2.***

*Cüt-cüt nümunələr müqayisəsi nəticəsində humanitar və texnik fakültələrdə təhsil alan tələblərin normativ ideallar ilə davranış səviyyəsi arasındakı müşahidə edilmiş fərqin göstəriciləri*

| Paired Samples Test (cüt-cüt nümunələrin müqayisəsi) | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| İxtisas | | Cütlər arasında fərq | | | | | t | Df | Sig. (2-tailed) |
| | | ədədi orta | Std. Deviation | ədədi orta fərqi | 95% etibarlılıq intervalı | | | | |
| | | | | | Aşağı | Yuxarı | | | |
| Texniki | Normativ ideallar/ Davranış səviyyəsi | 25.948 | 42.641 | 1.907 | 22.201 | 29.695 | 13.607 | 499 | .000 |
| Humanitar | Normativ ideallar/Davranis seviyyəsi | 30.106 | 45.534 | 2.036 | 26.105 | 34.107 | 14.785 | 499 | .000 |

Cüt-cüt nümunələr müqayisəsi nəticəsində hər iki qrupda normativ ideallar ilə davranış səviyyəsi arasında ciddi fərqin mövcudluğu müşahidə edildi lakin burada müəyyənləşdirilməsi vacib olan digər bir məsələ qeyd edilən dəyişənlər üzrə fərqin hansı qrupda daha yüksək, daha intensiv olduğudur. Normativ ideallar üzrə texniki qrupda $\overline{X}$ =135.20, humanitar qrupda isə $\overline{X}$= 138.91 olmuşdur. Eyni zamanda davranış səviyyəsi üzrə humanitar qrupda $\overline{X}$= 109.25, texniki qrupda isə $\overline{X}$= 108.80 olmuşdur. Mövcud fərqin statistik baxımdan mənalı olub-olmamasını dəqiqləşdirmək məqsədi ilə "müstəqil nümunələrin T.test"i cədvəlinə müraciət edilməlidir. Bu cədvələ nəzərən nornativ ideallar üzrə iki qrup arasındakı fərq 0.05 səviyyəsində mənalıdır. Burada P=0.16 olmuşdur. Davranış səviyyəsi üzrə qruplararası fərq statistik baxımdan 0.05 səviyyəsində mənalı deyil. Burada P=0.874 olmuşdur.

***Cədvəl 3.***

*Normativ ideallar ilə davranış səviyyəsi arasındakı müşahidə edilmiş fərqin göstəriciləri*

| **Independent Samples Test (müstəqil nümunələrin müqayisəsi)** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Levene testinin variasiya bərabərliyi | | Ədədi orta müqayisəsi üçün t-testi | | | | | | |
| | F | Sig. | t | df | Sig. (2-tailed) | ədədi orta fərqi | Std. xəta fərqi | 95% etibarlılıq intervalı | |
| | | | | | | | | Lower | Upper |
| Normativ ideallar | 29.071 | .000 | -2.405 | 998 | .016 | -3.708 | 1.542 | -6.733 | -.683 |
| Davranış səviyyəsi | 5.866 | .016 | .158 | 998 | .874 | .450 | 2.842 | -5.126 | 6.026 |

Şuvartsın dəyərlər sorğuna əsasən əsasən "konformluq, ənənə, xeyirxahlıq, universallıq, müstəqillik, stimullaşdırma, hedonizm, müvəffəqiyyət, hakimiyyət, təhlükəsizlik" kimi dəyərlər və əlamətlərin normativ ideallar və şəxsi davranış səviyyəsində ölçülməsi həyata keçirilmişdir. Sonra hər iki qrupda respondentlərin iki səviyyədə (normativ ideallar və şəxsi

davranış) qeyd edilən dəyərlər üzrə aldiqları bal müqayisə edilərək qruplarası fərq öyrənilmiş və statistik baxımdan mənalı olub-olmaması müəyyənləşdirilmişdir. Aşağıdakı cədvəldən də göründüyü kimi, konformluq dəyişəni üzrə yalnız şəxsi davranış səviyyəsində qruplararsı fərq 0.01 səviyyəsində mənalıdır (P=0.001). Ənənə dəyişəni üzrə həm normativ ideallar səviyyəsində, həm də, davranış səviyyəsində qruplararası ciddi fərq var və bu fərq 0.01 səviyyəsində mənalıdır (P=0.000 və P=0.000). Xeyirxahlıq dəyişəni üzrə yalnız şəxsi davranış səviyyəsində qruplararası mənalı fərq vardır (P=0.001). Universallıq əlaməti üzrə qruplararsı fərq hər iki səviyyədə müşahidə edilir. Normativ ideallar səviyyəsində P=0.000 olduğundan mövcud fərqin 0.01 səviyyəsində mənalı olduğunu söyləmək olar. Eyni zamanda şəxsi davranış səviyyəsində P=0.001 olduğundan qruplarası fərqin 0.01 səviyyəsində mənalı olduğunu da söyləyə bilərik. Müstəqillik dəyişəni üzrə hər iki səviyyədə qruplararası fərq statistik baxımdan mənalı deyil və P əmsalı 0.05-dən böyükdür. Stimullaşdırma dəyişəni üzrə yalnız normativ ideallar səviyyəsində qruplararsı mənalı fərq mövcuddur (P=0.000). Hedonizm dəyişəni üzrə də, normativ ideallar səviyyəsində qruplararası fərq 0.05 səviyyəsində mənalıdır və P=0.016 olmuşdur. Müvəffəqiyyət dəyişəni üzrə hər iki səviyyədə qruplarası fərq statistik baxımdan mənasız olmuşdur (P=0.056 və P=0.929 ). Hakimiyyət dəyişəni üzrə normativ ideallar səviyyəsində P=0.000 olmaqla mövcud fərq ciddi və mənalı hesab edilir. eyni zamanda şəxsi davranış səviyyəsində hakimiyyət dəyişəni üzrə qruplararası fərq 0.05 səviyyəsində mənalıdır və P=0.042 olmuşdur. Təhlükəsizlik dəyişəni üzrə hər iki səviyyədə qruplararası fərq 0.05 səviyyəsində mənalı hesab edilə bilməz.

**Cədvəl 4.**

*Konformluq, ənənə, xeyirxahlıq, universallıq, müstəqillik, stimullaşdırma, hedonizm, müvəffəqiyyət, hakimiyyət, təhlükəsizlik" kimi dəyərlər və əlamətlərin normativ ideallar və şəxsi davranış səviyyəsində dəyərlərin ölçülməsinin göstəriciləri*

| **Independent Samples Test** (müstəqil nümunələrin müqayisəsi) | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Levene's Test for Equality of Variances | | t-test for Equality of Means | | | | | | |
| | F | Sig. | T | df | Sig. (2-tailed) | Mean Difference | Std. Error Difference | 95% Confidence Interval of the Difference | |
| | | | | | | | | Lower | Upper |
| Konformluq-NİS | 19.25 | .000 | .500 | 998 | .618 | .178 | .356 | -.521 | .877 |
| Konformluq-ŞDS | 12.49 | .000 | 3.300 | 998 | .001 | .908 | .275 | .368 | 1.448 |
| Ənənə- NİS | .968 | .325 | 6.690 | 998 | .000 | 3.148 | .471 | 2.225 | 4.071 |
| Ənənə- ŞDS | 134.6 3 | .000 | -6.833 | 998 | .000 | -2.322 | .340 | -2.989 | -1.655 |
| Xeyirxahlıq- NİS | 4.48 | .034 | 1.457 | 998 | .145 | .846 | .581 | -.293 | 1.985 |
| Xeyirxahlıq- ŞDS | 56.14 | .000 | -3.458 | 998 | .001 | -1.270 | .367 | -1.991 | -.549 |
| Universallıq- NİS | 76.63 | .000 | -5.348 | 998 | .000 | -3.222 | .602 | -4.404 | -2.040 |
| Universallıq- ŞDS | 56.14 | .000 | -3.458 | 998 | .001 | -1.270 | .367 | -1.991 | -.549 |
| Müstəqillik- NİS | 8.48 | .004 | .992 | 998 | .321 | .384 | .387 | -.375 | 1.143 |
| Müstəqillik- ŞDS | 8.83 | .003 | -1.029 | 998 | .304 | -.260 | .253 | -.756 | .236 |
| | | | | | | | | | |
| Stimullasdırma-NİS | 46.39 | .000 | -6.928 | 998 | .000 | -1.748 | .252 | -2.243 | -1.253 |
| Stimullasdırma-ŞDS | 10.56 | .001 | 1.420 | 998 | .156 | .380 | .268 | -.145 | .905 |
| Hedonizm- NİS | 34.18 | .000 | -2.409 | 998 | .016 | -.706 | .293 | -1.281 | -.131 |
| Hedonizm- ŞDS | 46.60 | .000 | -.942 | 998 | .346 | -.244 | .259 | -.752 | .264 |
| Müvəffəqiyyət-NİS | .846 | .358 | -1.916 | 986 | .056 | -.888 | .464 | -1.798 | .022 |
| Müvəffəqiyyət-ŞDS | .839 | .360 | .089 | 998 | .929 | .026 | .293 | -.549 | .601 |
| Hakimiyyət- NİS | 14.00 | .000 | -4.833 | 998 | .000 | -1.840 | .381 | -2.587 | -1.093 |
| Hakimiyyət- ŞDS | 13.47 | .000 | -2.038 | 998 | .042 | -.500 | .245 | -.981 | -.019 |
| Təhlükəsizlik- NİS | 53.76 | .000 | 1.031 | 998 | .303 | .368 | .357 | -.332 | 1.068 |
| Təhlükəsizlik-ŞDS | 3.364 | .067 | .711 | 998 | .477 | .238 | .335 | -.419 | .895 |

Humanitar və texniki qruplarda normativ ideallar və şəxsi davranış səviyyəsində "konformluq, ənənə, xeyirxahlıq, universallıq, müstəqillik, stimullaşdırma, hedonizm, müvəffəqiyyət, hakimiyyət və təhlükəsizlik" dəyişənləri üzrə qruplar daxilində fərqin olub-olmamasını müəyyənləşdirmək məqsədi ilə hər qrupun qeyd edilən dəyişənlər üzrə toplanmış bal iki səviyyədə təhlil edilmişdir.

**Cədvəl 5.**

*Texniki və humanitar fakültələr üzrə dəyərlərin göstəriciləri*

| İxtisas | | Mean | Std. Deviation | Std. Error Mean |
|---|---|---|---|---|
| Texniki | Konformluq-NİS | 17.14 | 6.219 | .278 |
| | Konformluq-ŞDS | 17.60 | 3.921 | .175 |
| | Ənənə- NİS | 20.34 | 7.735 | .346 |
| | Ənənə - ŞDS | 15.78 | 6.497 | .291 |
| | Xeyirhaqlıq- NİS | 21.63 | 9.633 | .431 |
| | Xeyirhaqlıq - ŞDS | 26.04 | 6.626 | .296 |
| | Universallıq- NİS | 32.65 | 10.898 | .487 |
| | Universallıq- ŞDS | 26.04 | 6.626 | .296 |
| | Müstəqillik- NİS | 21.82 | 6.561 | .293 |
| | Müstəqillik- ŞDS | 20.30 | 4.452 | .199 |
| | Stimullasdırma- NİS | 12.48 | 4.483 | .200 |
| | Stimullasdırma- ŞDS | 15.09 | 4.624 | .207 |
| | Hedonizm- NİS | 12.45 | 4.961 | .222 |
| | Hedonizm- ŞDS | 13.57 | 4.577 | .205 |
| | Müvəffəqiyyət- NİS | 15.66 | 7.334 | .332 |
| | Müvəffəqiyyət - ŞDS | 16.80 | 4.618 | .209 |
| | Hakimiyyət- NİS | 14.46 | 6.653 | .298 |
| | Hakimiyyət- ŞDS | 12.64 | 3.638 | .163 |
| | Təhlükəsizlik- NİS | 24.12 | 6.333 | .283 |
| | Təhlükəsizlik - ŞDS | 23.77 | 5.755 | .257 |
| Humanitar | Konformluq- NİS | 16.96 | 4.980 | .223 |
| | Konformluq- ŞDS | 16.69 | 4.741 | .212 |
| | Ənənə - NİS | 17.19 | 7.134 | .319 |
| | Ənənə - ŞDS | 18.10 | 3.940 | .176 |
| | Xeyirhaqlıq - NİS | 20.78 | 8.702 | .389 |
| | Xeyirhaqlıq - ŞDS | 27.31 | 4.851 | .217 |
| | Universallıq- NİS | 35.87 | 7.921 | .354 |
| | Universallıq- ŞDS | 27.31 | 4.851 | .217 |
| | Müstəqillik- NİS | 21.44 | 5.641 | .252 |
| | Müstəqillik- ŞDS | 20.56 | 3.482 | .156 |
| | Stimullasdırma- NİS | 14.23 | 3.425 | .153 |
| | Stimullasdırma- ŞDS | 14.71 | 3.799 | .170 |
| | Hedonizm- NİS | 13.16 | 4.282 | .192 |
| | Hedonizm- ŞDS | 13.82 | 3.549 | .159 |
| | Müvəffəqiyyət- NİS | 16.55 | 7.237 | .324 |
| | Müvəffəqiyyət - ŞDS | 16.61 | 4.591 | .205 |
| | Hakimiyyət- NİS | 16.30 | 5.311 | .238 |
| | Hakimiyyət- ŞDS | 13.14 | 4.107 | .184 |
| | Təhlükəsizlik- NİS | 23.76 | 4.859 | .217 |
| | Təhlükəsizlik - ŞDS | 23.53 | 4.789 | .214 |

Bununla yanaşı şəhərdə və kənddə yaşayan yeniyetmə-gənclərin dəyərlər profilinin hesablanaraq yeniyetmə-gənclərin və valideynlərinin dəyərləri arasındakı fərqlərin daxili təsnifat asılılığı yoxlanıldı. Bundan sonra disper-

sion analiz və əhəmiyyətlik dərəcəsinin ölçülməsi üçün Stuydentin t meyarından istifadə olundu.

Göründüyü kimi, şəhərdə və kənddə yaşayan yeniyetmə-gənclərdə dəyərlər profili valideynlərindən daha çox onların həmyaşıdlarının dəyərlər profilinə uyğundur. Ancaq bütövlükdə istər kənd, istərsə də şəhərdə yaşayan yeniyetmə-gənclər və onların valideynlərinin dəyərlər profili arasında əhəmiyyətli fərqlər var.

Tədqiqat göstərdi ki, yeniyetmələrin və tələbələrin dəyərlər sistemi şəhər və kənd parametrləri üzrə valideynlərindən daha çox həmyaşıdlarının dəyərlərinə uyğundur. Tədqiqatda asılı olan kəmiyyət kimi yeniyetmə və gənclərin dəyərlər bloku, asılı olmayan kəmiyyətlər kimi isə onların yaşadığı coğrafi şərait və ya demoqrafik amil (şəhər-kənd) əsas götürüldü. Bu zaman aşağıdakı əlaqələr ortaya çıxdı: ϒUliks =0,891; F(4,145.000)=2.46; p=0.036.

***Cədvəl 6.***

*Şəhərdə və rayonda yaşayan yeniyetmə-gənclərin dəyərlər bloku ilə valideynlərin dəyərlər blokunun uyğunluğunun müqayisəsi*

| **Dəyərlərin profili** | **Şəhər (N=90)** | | **Rayon (N=120)** | | **t** | **df** | **p** |
|---|---|---|---|---|---|---|---|
| | **M** | **SD** | **M** | **SD** | | | |
| Yeniyetmə-gənclər-valideynləri | 0.285 | 0.33 | 0.240 | 0.37 | 0.42 | 112.08 | 0.64 |
| Yeniyetmə-gənclər-həmyaşıdları | 0.285 | 0.18 | 0.185 | 0.19 | 0.91 | 83.46 | 0.39 |

Göründüyü kimi dəyər blokları ilə yeniyetmə və gənclərin harada yaşaması arasında əhəmiyyətli əlaqə var. Tədqiqat göstərdi ki, rayonda və şəhərdə yaşayan yeniyetmə-gənclərin dəyərlər blokunda fərqli göstəricilər var və demoqrafik amillər aparıcı amil kimi özünü göstərir.

***Cədvəl** 7.*

Şəhərdə və rayonda yaşayan yeniyetmə-gənclərin dəyərlər ilə valideynlərin dəyərlərin korrelyasiyası

| **Asılı dəyişənlər** | **Şəhər M(r)** | | **Rayon M(r)** | | **F** | **P** |
|---|---|---|---|---|---|---|
| | **M** | **SD** | **M** | **SD** | | |
| Yeniyetmə-gənclər-valideynləri | 0.384 | 0.33 | 0.310 | 0.37 | 0.230 | 0.002 |
| Yeniyetmə-gənclər-həmyaşıdları | 0.626 | 0.18 | 0.520 | 0.19 | 0.890 | 0.006 |

Cədvəl 6 və 7-dən göründüyü kimi, şəhərdə və rayonda yaşayan yeniyetmə-gənclərin dəyərləri ilə valideynləri dəyərlərinin uyğunluğunun müqayisəsi zamanı əhəmiyyətli fərqlər bilavasitə bir neçə dəyər üzrə dominantlıq təşkil edir. Bu dəyərlər içərisində xüsusilə də mühafizəkarlıq, yeniliyə açıqlıq, özünütəsdiq və özünügerçəkləşdirmə dəyərləri yer alır. Ancaq bu dəyərlərin əksəriyyəti arasındakı əhəmiyyətlilik amili tendensiya xarakterlidir və bir-birindən əsaslı şəkildə fərqlənmir. Yalnız özünügerşəkləşdirmə istiqamətində əhəmiyyətli amil özünü göstərməkdədir (p=0.046 səviyyəsində, r= 6.146*).

Deməli, şəhərdə və kənddə yaşayan yeniyetmə-gənclərin dəyərləri ilə valideynlərin dəyərləri arasında yalnız həyatın mənasının axtarılması və potensial imkanların üzə çıxarılması istiqamətində fərqlər özünü göstərir.

***Cədvəl 8.***

*Şəhərdə və rayonda yaşayan yeniyetmə-gənclərin dəyərlər ilə valideynlərin dəyərlərinin uyğunluğunun müqayisəsi*

| **Dəyərlər bloku** | **Şəhər M(r)** | **Rayon M(r)** | **F** | **P** |
|---|---|---|---|---|
| Mühafizəkarlıq | 0.252 | 0.240 | 0.422 | 0.001 |
| Yeniliyə açıqlıq | 0.126 | 0.112 | 0.391 | 0.015 |
| Özünütəsdiq | 0.428 | 0.415 | 0.102 | 0.001 |
| Özünügerçəkləşdirmə | 0.635 | 0.392 | 6.146* | 0.046 |

Nəzərə almaq lazımdır ki, korrelyasiya və dispersion analiz yalnız nəticəni bizə təqdim edir, o zaman bu halların səbəb nəticə əlaqəsini müəyyən etmək çətindir. Ancaq bununla belə tədqiqat göstərdi ki, şəhərdə yaşayan yeniyetmə-gənclərin dəyərləri ilə onların valideynlərinin dəyərləri arasında uyğunluq rayonda yaşayan yeniyetmə-gənclərin və onların valideynlərinin dəyərlərindən fərqli olaraq bir-birinə daha uyğundur. Deməli, dəyərlərin trasformasiyası prosesində demoqrafik amilin rolu yüksəkdir və kənd yerlərində bu proses fərqli dinamikaya malikdir. Ümumilikdə tədqiqat göstərdi ki, dəyərlərin transformasiyasında əhəmiyyətli fərqlər cüzidir və bu fərqlər tendensiya xarakterlidir

**Nəticələrin müzakirəsi**

Apardığımız tədqiqat göstərdi ki, irəli sürdüyümüz fərziyyə, humanitar və texniki fakültələrdə təhsil alan tələbələrin normativ ideallar və şəxsi davranış səviyyəsi arasında əhəmiyyətli fərqlər vardır- fərziyyəsi demək olar ki, təsdiqləndi. Tədqiqat göstərdi ki, texniki elmlər üzrə təhsil alan tələbələrdə təhlükəsizlik dəyişəni istisna olmaqla digər dəyişənlərin normativ ideallar və şəxsi davranış səviyyəsində ciddi formada fərqlənir. Humanitar sahədə təhsil alan tələbələrdə konformluq, müvəffəqiyyət və təhlükəsizlik dəyişəni istisna olmaqla digər dəyişənlərin normativ ideallar və şəxsi davranış səviyyəsində ciddi formada fərqlənir. Apardığımız tədqiqatın nəticələri göstərdi ki, gənclərin sərvət meyillərinin onların özləri haqqında təsəvvürləri ilə əlaqəsi müxtəlif amillərin təsir səviyyəsi ilə şərtlənmişdir. Onların dəyərlər sisteminin formalaşmasına gənclərin şəxsiyyətlərinin strukturunda və tələbat-motivasiya sahəsində üstünlük təşkil edən elementlər ciddi şəkildə təsir göstərir.

Apardığımız tədqiqatın nəticələri göstərdi ki, gənclərin dəyərlərə münasibətində iki cəhət özünü göstərir. Birincisi, hər bir şəxsin sərvət təsəvvürü, yaxud özünün sərvətə meyli haqqında fikri, həmin şəxsin real davranışının əməli ciddi-cəhdidir. Bir sıra adamlarda bu iki cəhd arasında ziddiyyət özünü büruzə verir. Başqa sözlə, dildə əsas götürdüyü sərvət, real hərəkətində, davranışında can atdığı sərvət arasında uyğunsuzluq olur. Bir sıra hallarda gənclərin sözü ilə əməli arasındakı çox böyük ziddiyyət buradan irəli gəlir. Normativ səviyyədə yüksək qiymətləndirdiyi dəyərləri, amma şəxsi davranışında onlara əsla əməl etmir. Bununla yanaşı bizim apardığımız tədqiqatın nəticələri digər tədqiqatlarla, o cümlədən R.B. Perrinin, J.Piagetin və S.H.Şvartsın (Schwartz, H.S. 2012) tədqiqatları ilə üst-üstə düşür. R.B.Perri sərvət meyillərinin formalaşmasında insanın maraq və can atdığı mühit amili ilə əlaqələndirmişdir. Əxlaqi dəyərlərlə bağlı tədqiqatlara diqqət çəkən J.Piaget dəyərlərin fərqli yaş dövrlərinə müvafiq olaraq inkişaf etdiyini və bu inkişafda dəyər və düşüncənin paralel getdiyi fikrini irəli sürmüşdür. Sərvət meyli və dəyərlərlə bağlı tədqiqatlarında təhsil və digər mədəni vasitələrə diqqət çəkən S.H.Şvarts dəyərlərin mahiyyətini açmaq üçün apardığı tədqiqatlarda indi də istifadə olunan dəyərlər kateqoriyasını yaratmışdır. Gənclərdə dəyərlər haqqında təsəvvürlərin möhkəmləndirilməsi əksər hallarda onların düştüyü şəraitin sosial psixoloji çalarlarından asılıdır. Dəyərlərin inkişaf

etdirilməsi üçün ilk növbədə gənclərdə özünüqiymətləndirmənin adekvatlığına nail olmaq lazımdır. Bunun üçün gənclərdə özünürefleksiya qabiliyyətinin inkişaf etdirilməsi üçün onların özünümüşahidə, özünütəhlilinə nail olmaq lazımdır. Apardığımız tədqiqatın nəticələrindən aydın olur ki, dəyərlər ictimaiyyətə ideal düşünmə və davranma yollarını göstərir. Sosial rolların sevilməsinə və gerçəkləşməsinə rəhbərlik edir, eyni zamanda sosial nəzarəti həyata keçirir.

Apardığımız tədqiqat göstərdi ki, irəli sürdüyümüz birinci fərziyyə, yəni yeniyetmə-gənclərin dəyərləri ilə valideynlərin dəyərləri arasında uyğunsuzluq vardır fərziyyəsi demək olar ki, təsdiqləndi. Ancaq ikinci fərziyyə hissəvi təsdiqləndi. Tədqiqat göstərdi ki, özünügerçəkləşdirmə dəyəri digər dəyərlər blokunda aparıcı mövqeyə malikdir və rayonda yaşayanlara nisbətən şəhərdə yaşayanlarda bu amil daha qabarıqdır. Bir faktı nəzərə almaq lazımdır ki, kənd yerlərində yaşayanlarda ictimai nəzarət şəhərdə yaşayanlara nisbətən daha yüksəkdir və buna görə də hər hansı normadan kənara çıxmalar burada müşahidə olunmur.

Kənd yerlərində yaşayanlarda dəyərlərin müqayisəsinin əhəmiyyətlilik dərəcəsi şəhərdə yaşayanlara nisbətən aşağıdır. Apardığımız tədqiqatın nəticələri bir çox tədqiqatların nəticələri ilə üst-üstə düşür, bəziləri isə fərqlənir. Şəhərdə yaşayan insanlar ekologiya problemi ilə rastlaşdıqlarından onların təbiəti mühafizə dəyərləri özünün "xarici status" səviyyəsinə gəlib çatır [Yadov, 1975]. Ancaq rayonda və kənd yerlərində yaşayanlar üçün ekologiya problemi bir o qədər aktual deyil. Çünki onların yaşadığı mühitdə baş verən dəyişiklikləri onlar dərhal hiss etmirlər. Bu baxımdan kənd yerlərində yaşayan valideynlər üçün bu dəyərləri öz uşaqlarına ötürməsi bir o qədər aktual sayılmır. Göründüyü kimi belə halda dəyərlərin transformasiyası "vertikal" səciyyə daşıyır. Başqa cür deyilsə, valideynlərdən uşaqlara ötürülür.

Bununla yanaşı bizim apardığımız tədqiqatın nəticələri digər tədqiqatlarla, o cümlədən D.Barninin tədqiqatları ilə üst-üstə düşür [Barni et.al., 2011]. Barninin tədqiqatlarında yeniyetmə-gənclər və valideynlərin dəyərlərinin müqayisəsində daha çox "Yeniliyə açıqlıq" və "Mühafizəkarlıq" blokları üzrə fərqlənir.

***Ədəbiyyat:***

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2003, 543 s.
2. Jabbarov R. (2017). Traumatic factors affecting the self-realization of students. Issue of International Journal of Pharmaceutical sciences and Research, 6, 2682-2690.

3. Jabbarov R.(2017). Factors affecting the development of self-realization among students of different professions. Science and Education, 9, 75-87. 10.24195/2414-4665-2017-9-12.
4. Barni, D. (2009). Trasmettere valori. Tre generazioni familiari a confronto [Transmittig values. A comparison between three family generations]. Milano: Unicopli. (in Italian)
5. Barni, D., Ranieri, S., Scabini, E., & Rosnatiet, R. (2011). Value transmission in the family: do adolescents accept the values their parents want to transmit? Journal of Moral Education, 1(40), 105-121.
6. Berry, J. W., Poortinga, Y. H., Segall, M. H., & Dasen, P. R. (1992). Cross-cultural psychology: Research and applications. New York: Cambridge University Press.
7. Boehnke, K. (2001). Parent-offspring value transmission in a societal context: Suggestions for a utopian research design with empirical underpinnings. Journal of Cross-Cultural Psychology, 32, 241-255.
8. Boehnke, K., Hadjar, A., & Baier, D. (2007). Parent-child value similarity: The role of Zeitgeist.Journal of Marriage and Family, 69, 778-792.
9. Cohen, S., Doyle, W., & Alper, C. (2009): Sleep Habits and Susceptibility to the Common Cold. Archives of Internal Medicine; 169(1): 62-67.
10. Carl Lamote &Nadine Engels (2010). The development of student teachers' professional identity. Explore European Journal of Teacher Education, 3-18.
11. Fuligni, A., & Zhang, W. (2004). Attitudes toward family obligations among adolescents in contemporary urban and rural China. Child Development, 74, 180-192.
12. Kuczynski, L., & Navara, G. S. (2006) Sources of innovation and change in socialization, internalization and acculturation. In M. Killen & J. G. Smetana (Eds.), Handbook of moral development (pp. 299-327). Mahwah, NJ: Lawrence Erlbaum Associates.
13. Roest, A. M. C., Dubas, J. S., & Gerris, J. R. M. (2009). Value tran-smissions between parents and children: gender and developmental phase as transmission belts. Journal of Adolescence, 33(1), 21-31.
14. Schonpflug, U. (2001). Intergenerational transmission of values: The role of transmission belts. Journal of Cross-Cultural Psychology, 32, 174-185.
15. Schwartz, S. H. (2014). National culture as value orientations: Consequences of value differences and cultural Distance. In V.A.

Ginsburgh & D. Throsby (Eds.), Handbook of the economics of art and culture (Vol. 2, pp. 547-586). Amsterdam: Elsevier.
16. Schwartz, S., Butenko, T. P., Sedova D. S., & Lipatova, A. S. (2012). A refined theory of basic personal values: validation in Russia. Psychology. Journal of Higher School of Economics, 9(2), 43-70.
17. Steca, P., Monzan, D., Greco, A., & D'Addario, M. (2012). Similarity in self-enhancement and self-transcendence values between young adults and their parents and friends. Family Science, 1(3), 34-45.
18. Swader, C. S. (2013). The capitalist personality: Face-to-face sociality and economic change in the post-communist world. New York: Routledge.
19. Trommsdorff, G. (2009). Intergenerational relations and cultural transmission. In U. Schonpflug (Ed.), Cultural transmission. Psychological, developmental, social, and methodological aspects (pp. 126-160). New York: Cambridge University Press.
20. Vedder, P., Berry, J., Sabatier, C., & Sam, D. (2009). The intergenerational transmission of values in national and immigrant families: The role of Zeitgeist. Youth Adolescence, 38, 642-653.
21. Schwartz, H.S. (2012). An overview of the Schwartz theory of basic values. The Hebrew University of Jerusalem, Online readings in psychology and culture: International association for cross-cultural psychology.
22. Mudrik, A. V. (2000). The main components of mesofactors influence on socialization of man. In V. A. Slastenin (Ed.), Social pedagogy, pp. 31-50). Moscow: Akademiya.
23. Мясищев В.Н. Психология отношений : избранные психологические труды / В.Н. Мясищев. – Москва : Институт практической психологии ; Воронеж : НПО 'МОДЭК', 1998
24. Леонтьев А.Н. Проблемы развития психики: М.: Изд. Моск. Унив. 1981
25. Франкл В. Человек в поисках смысла: М.: Прогресс, 1990, 350 с.
26. Ядов В.А. (2007) Стратегия социологического исследования. М.: Омега-Л, 2007, 567 с.

# DIRECTIONS OF VALUE TRANSFORMATION IN ADOLESCENCE AND YOUTH IN MODERN TIMES

***Cabbarov R., Mustafayev M.***

## ABSTRACT

The article examines the socio-psychological problems of changing values in adolescents in education. Research was conducted with adolescents and their parents, and the dynamics of change in values was observed. The investigation revealed that, when comparing the values of adolescents living in the city and the district with the values of their parents, it was found that significant differences were directly related to several values. These values include conservatism, openness to innovation, self-affirmation, and self-realization. However, the significance factor between most of these values is the trend and does not differ significantly from each other. It is only an important factor in self-awareness. Such a change shows that both young people and adolescents have higher self-esteem values in education than in previous years.

The results of the research show that, there is a correlation between the value system of young people and the areas in which they study. Although there is a difference between the indicators of both groups in terms of normative values, there is no significant difference in the level of personal behavior. Taking this into account, it is recommended to create conditions for self-realization of their subjects in education.

Rəyçi R.H.Qədirova, psixologiya üzrə elmlər doktoru, professor
Məqalə redaksiyaya 21 dekabr 2020-ci ildə daxil olmuşdur

UOT: 159.955

# PSİXOLOGİYADA FİKRİ ƏMƏLİYYATLAR PROBLEMİNİN QOYULUŞU VƏ TƏLİM PROSESİNDƏ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

**Pərvanə Məmmədova,**

*Gəncə Dövlət Universiteti*
*Psixologiya kafedrasının baş müəllimi*
*Heydər Əliyev prospekti 429, indeks:AZ2001*
*Email: pervane_memmedova_1974@mail.ru*

***Açar sözlər:*** *fikri əməliyyatlar, inkişafın qeyri-bərabərliyi, heteroxronluq, kiçikyaşlı məktəbli, nəzəri təfəkkür, psixi funksiya, psixi inkişaf, təlim fəaliyyəti, idrak fəallığı, öyrənmə, inkişafetdirici təlim.*

***Keywords:*** *mental operations, nonlinearity of development, heterochrony, younger schoolchildren, theoretikal thinking, mental function, mental development, training activity, cognitive activity, learning.*

Müasir cəmiyyətimizdə digər sahələrdə olduğu kimi təhsil sistemində də əsaslı dəyişikliklər, islahatlar gedir, beynəlxalq təhsil sisteminə inteqrasiya istiqamətində ciddi addımlar atılır. Pedaqoji fəaliyyət əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimlərin əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında qurulur. Təlim prosesi şagirdlərdə aktivliyi, məntiqi düşünmə, tənqidi yanaşma, müstəqil bilikalma bacarığını formalaşdırmalıdır. Şagirdlərdə nəzəri, mücərrəd, yaradıcı, tənqidi təfəkkür inkişaf etdirilməlidir. Təfəkkürün inkişaf etdirilməsi dedikdə, təfəkkürün formalarının, fikri əməliyyatların, əqli keyfiyyətlərin inkişafı və s. nəzərdə tutulur. Qarşıya çıxan məsələnin həll edilməsi şagirdlərin fikri əməliyyatlara yiyələnmə səviyyəsindən çox asılıdır.

Fikri əməliyyatların araşdırılması müasir psixologiyanın aktual problemlərindən biridir. İstər ümumi psixologiya, istər yaş psixologiyası, istərsə də pedaqoji psixologiyanın predmetinə daxil olan müxtəlif mövzuların şərh olunmasında fikri əməliyyatlardan əsas anlayış kimi istifadə olunur. Psixoloji ədəbiyyatlarda fikri əməliyyatlar qrupuna analiz, sintez, müqayisə,

ümumiləşdirmə, mücərrədləşdirmə, konkretləşdirmə, təsnifat aid edilir. Fikri əməliyyatların ontogenetik nöqteyi-nəzərdən mahiyyətinin açılması, inkişaf dinamikasının müşahidə olunması olduqca gərəklidir. Fərdin əqli inkişafında fikri əməliyyatların əhəmiyyətini araşdırarkən, psixikanın ontogenetik inkişafının xüsusiyyətlərini nəzərə almaq məqsədəuyğundur. Belə ki, psixi inkişafın qeyri-bərabərliyi, intensivliyi, heteroxronluğu, senzitivliyi qarşıda duran problemin təhlilinə yardım edir. Son dövrlərdə elm və texnikanın sürətlə inkişaf etməsi, informasiya axınının kəskin artması və digər faktorların fonunda uşaq və yeniyetmələrdə akselerasiya hadisəsi müşahidə olunur. Problemin bu yönümdən də öyrənilməsi səmərəli nəticə əldə etməyə əsas yaradır. Bu problem təfəkkür psixologiyası, qabiliyyət psixologiyası, təlim psixologiyası üçün əsas rol oynayan faktordur. Fikri əməliyyatlar problemi qabiliyyət problemi ilə birbaşa əlaqəlidir, belə ki, qabiliyyətə yiyələnmənin mexanizmi əqli əməliyyatların tədqiq olunması vasitəsilə açılır. Nəzərə almaq lazımdır ki, söhbət yalnız fikri əməliyyatların təbii inkişaf qanunauyğunluqlarının öyrənilməsindən getmir, həmçinin, müasir təlim nəzəriyyələri və metodlarının köməyi ilə, təlimin forma və məzmununun yenidən qurulması yolu ilə bu əməliyyatların inkişaf etdirilməsindən, tərbiyə olunmasından gedir. Rus sovet psixoloqlarından L.S.Vıqotskinin, S.L.Rubinşteynin və A.N.Leontyevin apardığı tədqiqatlar sübut etmişdir ki, insan psixikası sosial təbiətə malikdir və uşaq ontogenetik inkişafında iki cür təcrübəyə: bioloji və sosial təcrübəyə yiyələnir.

Fərdin məsələ həllinin ümumiləşmiş vasitəsi kimi fikri əməliyyatlara yiyələnməsi təfəkkürün inkişafını, həmçinin, fərdin bütövlükdə inkişafını təyin edir. Şagirdlərin fikri əməliyyatlara yiyələnməsi ardıcıllığının müəyyən edilməsi təlim prosesinin təşkil edilməsində müəllimlərə gərəkli ola bilər.

Qeyd etmək lazımdır ki, problemin tədqiqinin müasir vəziyyətinə baxdıqda vahid fikrin olmadığını müşahidə etmək olar. Müasir psixologiyada fikri əməliyyatların tədqiqinin metodoloji əsasını təyin etməyə xidmət edən əhəmiyyətli nəzəriyyələr mövcuddur. Problemi tədqiq edərkən nəzəri-metodoloji əsas olaraq aşağıdakı nəzəriyyələrə müraciət edilmişdir: ali psixi funksiyaların inkişafına mədəni-tarixi yanaşma, fəaliyyət nəzəriyyəsi, sistemogenez və qabiliyyət nəzəriyyəsi (L.S.Vıqotski, S.L.Rubinşteyn, L.İ.Bojoviç, V.V.Davıdov, A.R.Luriya, D.B.Elkonin, V.D.Şadrikov və b.). Psixologiya tarixinə müraciət etsək görərik ki, antik dövrdə bu məsələnin məntiq elmi kontekstində tədqiqinə

cəhdlər olmuşdur. Daha sonralar müxtəlif təbiətşünaslıq və riyazi elmlərdə, eləcə də psixologiya sahəsində müxtəlif şərhlərə rast gəlinir. Qeyd etmək lazımdır ki, müxtəlif psixoloji ədəbiyyatlarda bu termin müxtəlif məfhumlarla ifadə olunur. "Fikri əməliyyatlar", "əqli əməliyyatlar", "təfəkkür prosesləri", "fikri proseslər" – sinonim sözlər kimi işlədilir. Fikri əməliyyatlar probleminin tədqiqinə dünya üzrə bir çox məşhur psixoloqların əsərlərində, eləcə də, Azərbaycan psixoloqlarının əsərlərində rast gəlmək olar. Fikri əməliyyatlar anlayışının formalaşmasında İsveçrə psixoloqu J.Piajenin xidmətləri böyükdür. Koqnitiv psixologiyanın nümayəndəsi olan J.Piaje fikri əməliyyatlar dedikdə, intellektual vərdişləri nəzərdə tuturdu [11]. O.Zelts təfəkkür prosesləri dedikdə, təfəkkürün ümumi sxeminə uyğun gələn və refleksiv əlaqələrin əsasında işləyən prosesləri nəzərdə tuturdu [10]. Fikri əməliyyatlar və ya təfəkkür prosesləri problemi rus psixoloqu S.L.Rubinşteynin əsərlərində də öz əksini tapmışdır. S.L.Rubinşteynin fikrincə, bunlar mövcud situasiyanın zəruri şərtlərini nəzərə alaraq həyata keçən əməliyyatlardır [14]. Fəaliyyətin müstəqil sinfi kimi fikri əməliyyatlar rus psixoloqu V.D.Şadrikovun əsərlərində şərh olunmuşdur. V.D.Şadrikova görə, bunlar psixi proseslərlə əlaqədar olan əməliyyatlardır. Onun təbirincə desək, "əqli əməliyyatlar özündə fikri proseslərin müxtəlif növlərini və səviyyələrini birləşdirir" [15].

Azərbaycan psixoloqları bu problemin araşdırılmasına əsasən, yaş və pedaqoji psixologiya kontekstindən yanaşmışlar. Tədqiqatlar əsasən kiçik məktəb yaşı dövrünü əhatə edir. Bu isə təsadüfi xarakter daşımır. Psixikanın ontogenetik inkişafının heteroxronluq xüsusiyyətinə görə, hər yaş dövründə psixi funksiyalardan biri dominant rola malik olur. Kiçik məktəb yaşı dövründə təfəkkür prosesi dominant rola malikdir. Digər tərəfdən psixi inkişaf və təlim qarşılıqlı əlaqədədir. Bir tərəfdən təlim prosesi təşkil olunarkən psixi inkişafın yaş xüsusiyyətləri nəzərə alınmalıdır, digər tərəfdən təlim prosesi elə təşkil olunmalıdır ki, psixi inkişafı öz arxasınca aparsın. Təlim fəaliyyətinin kiçik məktəb yaşı dövründə aparıcı fəaliyyət olması bu problemin ibtidai sinif şagirdləri üzərində araşdırılmasını əsaslandırır. Professor Ə.S.Bayramov əsərlərində fikri proseslərin mahiyyətini açaraq, kiçik məktəb yaşı dövründə bu proseslərin xüsusiyyətləri və təlim prosesində inkişaf etdirilməsinin yol və vasitələri barədə məlumat verir [1]. Professor Ə.Ə.Qədirov kiçik məktəb yaşı dövründə mücərrədləşdirmənin inkişafını tədqiq edərək göstərmişdir ki, "kiçikyaşlı şagirdlərdə mücərrəd-

ləşdirmənin perseptual və konseptual səviyyəsi inkişaf edərək onların idrak fəaliyyətində mühüm rol oynayır” [5].

Baxmayaraq ki, elmi psixologiyanın yaranma tarixi çox da qədim deyil. XIX əsrin sonlarında elmi psixologiya yarandıqdan az müddət sonra differensiasiyaya uğramış, psixologiyanın müxtəlif sahələri meydana gəlmişdir. Fikri əməliyyatlar problemi müasir psixologiyanın müxtəlif sahələrinin predmetinə daxildir. Məsələn, təfəkkür psixologiyası, inkişaf və yaş psixologiyası, koqnitiv psixologiya, təlim psixologiyası, məntiq və s. sahələr fikri əməliyyatları müxtəlif kontekstdən araşdırır.

Fikri əməliyyatlar təfəkkürün prosessual xarakterini əks etdirir, məsələ həllinin ümumiləşmiş vasitəsidir. Psixoloji tədqiqatlarda açar rolunu oynayan mürəkkəb məsələlərdən biri fikri əməliyyatların mənşəyinin müəyyən olunmasıdır. Bu problemin yaş aspektində araşdırılması sahəsində müxtəlif istiqamətlər mövcuddur. Bu istiqamətlər fikri əməliyyatlın mahiyyəti və onlara yiyələnmə səviyyəsini təyin etməyə yönəlmişdir. Tədqiqatların bir çoxu eninə kəsik metodu vasitəsilə aparılmışdır. Bu tədqiqatlar onunla xarakterizə olunur ki, müəyyən olunmuş fəaliyyət növünü icra edən konkret yaş qruplarında aparılır. Beləliklə, fikri əməliyyatlara yiyələnmə ardıcıllığını təyin edən uzunmüddətli tədqiqat metodu tətbiq olunmur. Təfəkkür və fikri əməliyyatların inkişafının yaş dinamikası anlayışına müxtəlif yanaşmalar mövcuddur. Təfəkkürün inkişafının dövrləşməsi, habelə fikri əməliyyatlara fərdi yiyələnmə məsələsinə münasibətdə alimlər bir neçə istiqamətə ayrılmışlar. Birinci istiqamətin tərəfdarları iddia edirlər ki, təfəkkürün inkişafının dəqiq yaş sərhədləri mövcuddur. Bu istiqamətin yaradıcısı koqnitiv psixologiyanın nümayəndəsi J.Piajedir. J.Piaje əqli inkişafın üç mərhələli təsnifatını irəli sürmüş, hər mərhələnin dəqiq yaş həddini, yenitörəmələrini təsvir etmişdir.

1. Sensomotor intellekt dövrü: 0–2 yaş.
2. Konkret əməliyyatlara hazırlıq və onun təşkili dövrü: 2–11 yaş.
3. Normal əməliyyatlar dövrü: 11–15 yaş.

J.Piajenin təsnifatına görə, ikinci mərhələ özü də 3 yarımmərhələyə ayrılır:

1. Təmsilçi (reprezentativ) təfəkkürün yaranması: 2–4 yaş.
2. Sadə təsəvvürlər və intuisiya: 4,5–5 yaş.
3. Təsəvvürlərin differensiallaşması: 5,5–7 yaş.

Piaje hesab edir ki, məhz bu hazırlıq mərhələsində təfəkkür və nitqdə baş verən inkişafın nəticələri öz bəhrəsini məktəb yaşı dövründə göstərir. Təlimə hazırlıq dövründə uşaq ətraf

aləmdə özünü asanlıqla yönəldir. Davranış stabilləşir, möhkəmlənir. Özünün əqli fəaliyyətə adaptasiyasında da ilk dəfə olaraq ağıllı, düşüncəli varlıq təsiri yaradır. Məlum olur ki, kifayət qədər davamlı, nizamlı anlayışlara malikdir. Beləliklə, beşyaşlı uşaq yüksək koqnitiv funksiyaların icrasının daşıyıcısı ola bilir. Əvvəllər sensomotor səviyyədə icra olunan əməliyyatlar 5 yaşda daxili amillərə əsaslanmaqla real aləmin simvolik ifadəsinə çevrilir. Lakin bu təsnifatda psixi inkişafın qeyri-bərabərliyi, akselerasiya və retardasiya halları nəzərə alınmır. Bu nəzəriyyənin yaradılmasında uşaqların əqli inkişafının mütləq keyfiyyət göstəricisi kimi mərhələlərin növbəli əvəzlənməsi əsas götürülmüşdür. Piaje tədqiqatlarında kliniki söhbət, "Piaje tapşırıqları", uşaqların manipulyasiyasının müşahidə edilməsi metodlarından istifadə etmişdir.

İkinci istiqamət koqnitiv inkişafda konkret mərhələlərin və təfəkkürün inkişafında ardıcıllığın mövcudluğu inkar edir. Psixoloji ədəbiyyatlarda bu istiqamət üzrə eksperimental tədqiqatlar olduqca azdır. Bu istiqamətə V.D.Şerbakovun sistemogenez və qabiliyyət nəzəriyyəsini misal göstərmək olar. Bu nəzəriyyəyə görə uşağın psixi inkişafı keyfiyyət dəyişmələri ilə xarakterizə olunur, psixi funksiyalar dalğavari və müxtəlif trayektoriyalarla formalaşır. Fikri əməliyyatların inkişafının heteroxronluğu və qeyri-bərabərliyi təfəkkür prosesinin özünəməxsus keyfiyyətinin araşdırılması istiqamətində tədqiqatların aparılmasını əsaslandırır. Bu nəzəriyyəyə görə, fikri əməliyyatlar fərdin qarşısında duran məsələnin dərk olunması və həll edilməsi ilə bağlı dərkolunan psixi fəaliyyətdir.

Psixi inkişaf və təlim anlayışı qarşılıqlı əlaqədədir. Təlim prosesinin düzgün təşkili şagirdlərdə təfəkkürün inkişafı, o cümlədən fikri proseslərin inkişafı üçün əlverişli şərait yaradır. İnteraktiv təlim bu baxımdan çox səmərəlidir. İnteraktiv təlim birbaşa fikri əməliyyatları inkişaf etdirir, şagirdlərdə fəal dərketmə mövqeyi formalaşdırır. Tədqiqat və dərketmə üçün müvafiq şəraitin yaradılması sayəsində şagirdlər müstəqil təhlil və tərkib əməliyyatı aparır, bilikləri müstəqil əldə etmək imkanı qazanırlar. Dərsdə problemli situasiyanın yaradılması müqayisə, təhlil, mücərrədləşdirmə kimi fikri proseslərin cərəyan etməsini təmin edir, təbii öyrənmə fəallığının artırılmasına təkan verir. Fəal dərsdə biliklərin yaradıcı tətbiqi düzgün ümumiləşdirmə, təsnifat bacarığının inkişafı üçün şərait yaradır. Fikri proseslərin inkişaf etdirilməsi sayəsində şagirdlərdə təfəkkürün müstəqilliyi, tənqidiliyi, çevikliyi keyfiyyətləri inkişaf edir. İnteraktiv təlim metodlarının tətbiqi şagirdlərdə

fikirlərini təhlil etmək, dəqiq izah etmək qabiliyyətini inkişaf etdirir.

İnteraktiv dərsin quruluşu aşağıdakı kimidir:

- sinfin fəallaşdırılması;
- motivasiya;
- tədqiqat;
- informasiya mübadiləsi;
- informasiyanın müzakirəsi və təhlili;
- ümumiləşdirmə və nəticəçıxarma;
- yaradıcı tətbiqetmə;
- qiymətləndirmə və ya refleksiya.

Fəal təlim prosesində bir çox üsullardan istifadə olunur. Bunlardan bəziləri ilə tanış olaq.

**İnsert metodu** – səmərəli mütaliə, təfəkkür proseslərinin inkişafı üçün interaktiv qeydetmə sistemidir. Işarələr sistemindən istifadə edib mətni başa düşmək üçün biliyi yoxlamaqla düzgün cavab axtarmaq üsuludur.

1. Mətndə əvvəl bildiyin məlumatı təsdiq edən informasiya varsa, qarşısında (V) işarəsi qoy.
2. Rast gəldiyin informasiya yenidirsə, qarşısında (+) işarəsi qoy.
3. Oxuduğun bir informasiya əvvəllər bildiyini inkar edirsə, qarşısında (-) işarəsi qoy.
4. Haqqında əlavə məlumat almaq istədiyin məsələnin qarşısında (?) işarəsi qoy. (cədvəl 1.)

***Cədvəl 1.***

*İnsert metodu ilə keçilən mövzunun nəticələrinin əks olunduğu cədvəl*

| V | + | – | ? |
|---|---|---|---|
| 1. | 1. | 1. | 1. |
| 2. | 2. | 2. | 2. |

**Venn diaqramı metodu** – bu metod vasitəsilə iki obyektin, hadisənin, məsələnin və s. oxşar və fərqli cəhətləri müzakirə edilir. Çevrənin kəsişən hissəsində oxşar, kəsişməyən hissələrində isə fərqli cəhətlər qeyd edilir. Venn diaqramından dərsin müxtəlif mərhələlərində istifadə etmək olar. Müqayisə olunacaq obyektlərin sayından asılı olaraq çevrələrin sayını artırmaq olar. (şəkil 1.)



*Şəkil 1. Venn diaqramını əks etdirən sxem*

**Konseptual cədvəl metodu** – üç və daha çox obyekt, yaxud cəhətin müqayisəsi nəzərdə tutulan zaman səmərəli sayılır. Cədvəldə sol tərəfdə şaquli qrafada müqayisə ediləcək obyektlər, üfüqi qrafalarda isə onların müqayisə olunacaq xüsusiyyətləri göstərilir. Cədvəldə mövzu ilə cəhətlərlə əlaqədar dəyişikliklər edilə bilər (cədvəl 2).

***Cədvəl 2.***

*Konseptual cədvələ dair nümunə*

| | tərəfləri | bucaqları | təpə nöqtələri |
|---|---|---|---|
| üçbucaq | | | |
| kvadrat | | | |
| paraleloqram | | | |

**T-sxemlər metodu** – müzakirə zamanı müsbət-mənfi cavablar üçün (razıyam, etiraz edirəm), yaxud müqayisəli fikirlərin qeyd edilməsi üçün istifadə edilir. Şagirdlərə mətn verilir, şagirdlər mətni razıyam və ya etiraz edirəm prinsipi ilə oxuyurlar və aşağıdakı tipdə cədvəl qurulur. Fikirlər ümumiləşdirilir, sistemləşdirilir, təhlil və tərkib edilir. (cədvəl 3).

***Cədvəl 3.***

*T-sxemlər metoduna dair nümunə cədvəl*

| H.Z.Tağıyev xeyriyyəçidir (səbəblər) | H.Z.Tağıyev xeyriyyəçi deyil (səbəblər) |
|---|---|
| 1. | 1. |
| 2. | 2. |

**BİBÖ metodu** – müəllim dərsə başlayarkən və öyrənmə prosesi başa çatdıqdan sonra (refleksiya hissəsində) bu üsuldan istifadə edir. Şagirdlər keçəcəkləri mövzu haqqında nə bildiklərini, nəyi öyrənmək istədiklərini əvvəlcədən bildirirlər. Öyrənmə prosesinin onunda isə yeni öyrəndiklərini göstərərək BİBÖ cədvəlini doldururlar. Sonda məlumatlar təhlil olunur, müqayisə edilir, ümumiləşdirilir. (cədvəl 4)

***Cədvəl 4.***

*BİBÖ metoduna dair nümunə cədvəl*

| **Bilirəm** | **Istəyirəm biləm** | **Öyrəndim** |
|---|---|---|
| 1. | 1. | 1. |
| 2. | 2. | 2. |
| 3. | 3. | 3. |

Beləliklə, təlim prosesi yalnız şagirdləri bilik ehtiyatı ilə silahlandırmır, həm də onların təfəkkürünün müxtəlif xüsusiyyətlərini, o cümlədən fikri proseslərini inkişaf etdirir. Bu isə şagirdlərdə qabiliyyətlərin inkişafına, o cümlədən psixikanın ümumi inkişafına şərait yaradır.

## NƏTİCƏ

Müasir təlimin başlıca vəzifəsi şagirdlərə "öyrənməyi öyrətməkdir". İnteraktiv təlim metodlarından istifadə etməklə dərs prosesinə tədqiqat xarakteri verilir, şagird isə tədqiqatçıya, təlimin subyektinə çevrilir. Dərsdə ən zəif, sakit, utancaq şagirdlərin aktivləşməsi üçün şərait yaranır. Öyrənmə fəallığının artması, təfəkkürün inkişafına xidmət edən müstəqil, produktiv metodların istifadəsi nəticəsində təlimin səmərəliliyi xeyli dərəcədə yüksəlir.

***Ədəbiyyat:***


1. Bayramov Ə.S. Şagirdlərdə təfəkkürün inkişafı. B., 1962, 83 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. B., 2009, 624 s.
3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. B., 1991, 296 s.
4. Qədirov Ə.Ə. Kiçik yaşlı məktəblilərdə mücərrədləşdirmənin inkişafı. Bakı, 1973, 72 s.
5. Qədirov Ə.Ə. Yaş psixologiyası. B., 2008, 386 s.
6. Seyidov S.İ., Həmzəyev M.Ə. redaktorluğu ilə. Psixologiya. B., 2007, 626 s.
7. Выготский Л.С. Психология развития человека. М., 2006, 1136 с.
8. Давыдов В.В. Теория развивающего обучения. Москва, 1996, 542 с.
9. Занков Л.В. Развитие учащихся в процессе обучения. М., 1963, 435 с.
10. Зельц О. Законы продуктивной и репродуктивной духовной деятельности. М., 2008, с.47-49.
11. Пиаже Ж. Природа интеллекта. М., 2008, с.78-79.
12. Пиаже Ж. Речь и мышление ребенка. М., 1997, 256 с.
13. Программы развивающего обучения (Система Д.Б.Эльконина-В.В.Давыдова) 1-5 класс «Русский язык. Математика». Изд-во 2-е. Томск, 1995, 96 с.
14. Рубинштейн С.Л. О мышлении и путях его исследования. М.: Изд-во АН СССР. 1958, 45 с.
15. Шадриков В.Д. Интеллектуальные операции. М., 2006, 108 с.
16. Шадриков В.Д. Ментальное развитие человека. М., 2008, 284 с.
17. Эльконин Д.Б. Интеллектуальные возможности младших

школьников и содержание обучения. //Возрастные возможности усвоения знаний: младшие классы школы. /Под ред. Д.Б.Эльконина, В.В.Давыдова. М.: Просвещение. 1966, 50 с.

## GIVING THE PROBLEM OF MENTAL OPERATIONS IN PSYCHOLOGY AND WAYS TO DEVELOP IT IN THE LEARNING PROCESS

***Parvana Mammadova***

**ABSTRAKT**

Development of students as personality, learning activities as a trait is one of the major problems of education. In the living process student gain all the knowledge for the way of thinking. Study of mental operations plays a key role in the psychology of abilities, psychology of thinking, psychology of learning. Individual's mastering of mental operations which act as generalized solutions to the problems, determines the thinking development and individual's development in general. The cultural-historical approach to higher mental functions development, activity theory and theory of systemogenesis and abilities are theoretical and methodological bases of the study. The main task of the work lies in analysis of mental operations, in stating the problem of individual's mental operations mastering in age aspect. The development of mental operations in junior schoolchildren in the learning process in one of the main stimuly for the formation of children's personality.

Rəyçi R.V.Cabbarov, psixologiya üzrə elmlər doktoru, dosent
Məqalə redaksiyaya 21 dekabr 2020-ci ildə daxil olmuşdur

UOT:159.9

# PSİXİ SAĞLAMLIQ VƏ SAĞLAM HƏYAT TƏRZİ PROBLEMİ

**Mirvari Rəhimova,**

*Gəncə Dövlət Universiteti*
*Heydər Əliyev prospekti 429, indeks:AZ2001*
*E-poçt: mirvari.rehimova@bk.ru*

***Açar sözlər:*** *psixi sağlamlıq, həyat tərzi, şəxsiyyət, ailə, konflikt, psixi xəstəliklər, sosial şərait, ictimai münasibətlər.*

***Keywords:*** *mental health, lifestyle, personality, family, conflict, mental illness, social conditions, social relations.*

Psixi sağlamlıq sağlamlığın ayrılmaz hissəsi və zəruri komponenti kimi sayılır. Psixi sağlamlıq və sağlam həyat tərzi anlayışları bir-biri ilə sıx bağlıdır. Görünür atalar sözlərində: "Sağlam bədəndə sağlam ruh olar" əbəs yerə deyilməmişdir. Ümumdünya Səhiyyə Təşkilatının nizamnaməsində sağlamlıq haqqında deyilir: "Sağlamlıq yalnız xəstəliklərin və fiziki defektlərin olmaması deyil, həm də bütövlükdə fiziki, psixoloji, sosial əmin-amanlıq vəziyyətidir." Bu sağlamlığa verilən ən mükəmməl tərifidir. Bu tərifə əsaslanaraq demək olar ki, psixi sağlamlıq, yalnız müəyyən pozuntuların və əlilliyin olmaması deyildir. Geniş mənada psixi sağlamlıq insanın öz potensial qabiliyyətlərini reallaşdırmaq, adi həyati stresslərə qarşı dayana və məhsuldar işləyə bildiyi əmin-amanlıq vəziyyətidir.

Psixi sağlamlıq hər bir insanın kollektiv və fərdi həyatında mühüm əhəmiyyət kəsb edir. Psixi sağlam insan sağlam düşünür, emosional reaksiyalarını büruzə verir, başqa insanlarla ünsiyyətə girir, işləyir, öz işində potensiallarını reallaşdırır, yaxınları ilə münasibətlərini qırmır, öz yaşayışından zövq alır və öz sağlamlığının qayğısına qalır. Bu faktı nəzərə alaraq bir mənalı demək olar ki, psixi sağlamlığın möhkəmləndirilməsi, qorunması və bərpası həm fərdi, həm də ictimai xarakter daşıyır və həyati əhəmiyyət kəsb edir.

Yuxarıda psixi sağlamlıqla sağlam həyat tərzi anlayışları bir-biri ilə sıx bağlı olması fikri qeyd olundu. Məsələ burasındadır ki, insanın həyat və fəaliyyətinin tənzimləyicisi rolunda çıxış edən psixikada baş verən müəyyən patologiyalar, onun həyat tərzini dəyişdirir, davranışını pozur. Bu isə

öz növbəsində insanın sağlam həyat tərzindən uzaqlaşmasına gətirib çıxarır. Yaxud, sağlam həyat tərzi keçirməyən insanın ümumiyyətlə sağlamlığında, həmçinin bunun tərkib hissəsi sayılan psixi sağlamlığında müəyyən problemlər əmələ gəlir.

İnsanın sağlamlığı, o cümlədən də psixi sağlamlığı problemi bütün dövrlərdə aktual olmuşdur. Psixologiya elmi müstəqil elm statusu qazandığı dövrdən insanın psixi sağlamlığının bərpası və qorunmasına xidmət etmişdir. Əvvəllər bu bilavasitə həyata keçməsə də psixologiya sahəsində aparılan bütün araşdırmalar bu istiqamət üçün baris rolunu oynadı.

"Psixi sağlamlıq", "Sağlam həyat tərzi" problemlərinin araşdırılması tarixi qədim olsa da müasir dövrdə bu problemlər daha qabarıq büruzə verir. Bunu şərtləndirən amillər sırasında müasir həyatın özəlliklərini; streslərin və stessogen amillərin artmasını, həyatın dinamikliyinin artmasını, psixikaya təsir göstərən amillərin artmasını, elmi-texniki tərəqqini, ekologiyanın pozulmasını, urbanizasiyanı, işsizliyi, etnik münaqişələri və bu zəmində yaranan qaçqınlığı və s. sadalamaq olar.

Psixi sağlamlığın qorunması və sağlam həyat tərzi problemlərinə ilk elmi yanaşma XX əsrin birinci yarısından başlanmışdır. Keçən əsrin 70-ci illərində psixologiyada yeni bir sahə olan "Sağlamlıq psixologiyası" sahəsi ABŞ-da yarandı.

Hal-hazırda sağlamlıq psixologiyası psixologiyanın müstəqil sahəsi kimi mövcuddur. Sırf sağlamlıq psixologiyası istiqamətində Rusiyada ilk tədqiqatlar Q.S.Nikiforov apardı. Sonralar bu istiqamətdə N.E.Vodopiyanova, N.V.Xodizeva, İ.İ.Qurniça və başqaları tədqiqatlar aparmağa başladılar.

Azərbaycan psixoloqlarının araşdırmalarında psixi sağlamlıq və sağlam həyat tərzi problemləri bu və ya digər şəkildə öz əksini tapmışdır. Bu psixoloqlar sırasında Ə.S.Bayramovun, Ə.Əlizadənin, M.C.Məhərrəmovun, B.H.Əliyevin və başqalarının adlarını sadalamaq olar. Respublikamızda psixi sağlamlıq probelmi əsasən psixiatrlar tərəfindən araşdırılmış və bu sahə üzrə professional psixoloqlarımız hələ ki, demək olar ki yox səviyyəsindədir.

Psixologiyanın mühüm tətbiqi sahələrindən biri olan sağlamlıq psixologiyasının bir elm kimi keçən əsrin 70-ci illərindən etibarən təşəkkül tapmasına baxmayaraq onun mühüm kateqoriyalarından biri olan psixi sağlamlıq probleminə maraq hələ çox-çox əvvəllər yaranmışdır. Belə ki, leksikonda "mənəvi rifah" və s. kimi anlayışların mövcudluğu heç də təsadüfi deyildir. Psixi sağlamlıq analayışının mahiyyəti onun strukturunun əmələ gətirən elementlərin, analayışlar sisteminin məzmunu ilə sıx bağlıdır.Bu

anlayışlardan və elementlərdən hər biri müxtəlif dövrlərdə ayrı-ayrı elm sahələri və mövqelər baxımından özünəməxsus surətdə şərh olunub və olunmaqdadır.

Psixi sağlamlığın tərkib elementləri ilə bağlı müxtəlif fikirlər var. Bir sıra müəlliflərin fikrincə, insanın öz fiziki və psixi sağlamlığına münasibəti bu elementlərdən əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, burada daxili və xarici amillər əhəmiyyətli dərəcədə rol oynayır. Daxili amillərə- demoqrafik, o cümlədən cins, yaş, milliyyət, insanın fərdi-psixoloji və şəxsiyyət keyfiyyətləri, sağlamlıq vəziyyəti və s. aiddir. Xarici amillərə isə ətraf mühit amilləri, o cümlədən sosial mikro və makro mühit aiddir. İnsanın sağlamlığına münasibəti şəxsiyyətin ətraf mühitə fərdi, seçici münasibətlər sistemindən ibarətdir. Bu münasibətlər sistemi sağlamlığı möhkəmlədə də bilər, zəiflədə də bilər. İnsanın sağlamlığa münasibətinin formalaşmasında öz fiziki və psixi vəziyyətini qiymətləndirməsi mühüm rol oynayır.

İnsanın həyat tərzi – mühüm biososial kateqoriyalardan biri olub, onun həyat fəaliyyətinin tipik norma və üsullarıdır. Bu üsullar orqanizmin və psixikanın adaptivliyini və ehtiyatlarını möhkəmləndirir və mükəmmələşdirir, bu isə öz növbəsində insanın sosial və peşəkar funksiyalarının uğurla həyata keçirilməsini təmin edir. Həyat tərzi insanın gündəlik həyatının xüsusiyyətləri ilə səciyyələnir: onun əmək fəaliyyətini, məişətini, asudə vaxtının təşkili, maddi və mənəvi tələbatların ödənilməsi, ictimai həyatda iştirak, davranış norma və qaydalarını əhatə edir. Həyat tərzi - ictimai tərəqqinin meyarlarından biri, insanın “siması”dır. Müasir dövrdə sübut olunmuşdu ki, sağlamlığı şərtləndirən bütün faktorlar içərisində yükün 50-55%-i həyat tərzinin payına düşür. İnsanın həyat tərzini müəyyənləşdirən əsas faktorlara aiddir:

– İnsanın ümumi mədəni və təhsil (savadlılıq ) səviyyəsi;
– Maddi imkanlar;
– İnsanın cins, yaş və konstitusional xüsusiyyətləri;
– Sağlamlıq vəziyyəti;
– Yaşadığı ekoloji mühitin xarakteri;
– Əmək fəaliyyətinin (ixtisasın) xüsusiyyətləri;
– Ailədaxili münasibətlərin və ailə tərbiyəsinin xüsusiyyətləri;
– İnsanın vərdişləri;
– Bioloji və sosial tələbatlarının ödənilmə imkanları.

Həyat tərzini təhlil edərkən, ictimai, sosial-mədəni və məişət fəaliyyətinin xüsusiyyətləri nəzərdən keçirilir. Bu zaman əsas xüsusiyyətlər kimi sosial, əmək və fiziki aktivliyini ayırd edirlər. Başqa sözlə, həyat tərzində insanın necə yaşaması, həyat fəaliy-

yətinin əsas forma üsulları, yönəlişliyi əsas yer tutur. Qeyd etmək lazımdır ki, hər bir sosial qrup həyat tərzinə, dəyərlərinə yönəlişlərinə, davranış etalonlarına və s. görə fərqlənir. Əsasən sosial-iqtisadi imkanlarla şərtlənən həyat tərzi konkret insanın fəaliyyət motivlərindən, onun psixikasının xüsusiyyətlərindən, sağlamlıq vəziyyəti və orqanizmin funksional imkanlarından asılıdır.

Hər bir insanın həyatında maddi və mənəvi tələbatlar ödənilməlidir və insanın davranışı bu tələbatlarını özünəməxsus surətdə ödəyir, insanların davranışı bu baxımdan müxtəlif olur və əhəmiyyətli dərəcədə tərbiyədən asılıdır.

"Sağlam həyat tərzi" anlayışı həyat tərzi və sağlamlığın qarşılıqlı əlaqəsinin mərkəzləşdirilmiş ifadəsidir. Sağlam həyat tərzi peşəkar, ictimai və məişət funksiyalarının sağlamlıq və inkişaf üçün optimal surətdə yerinə yetirilməsinə imkan yaradır. Həyat tərzi şəxsi və ictimai sağlamlığın möhkəmləndirilməsinə yönəlmiş fəaliyyəti ifadə edir. Sağlamlıq mahiyyətinə görə, ilkin tələbat olmalıdır, lakin onun ödənilməsi və optimal vəziyyətə çatdırılması çox çətin, özünəməxsus, çox vaxt ziddiyətli, vasitəli xarakter daşıyır və həmişə istənilən nəticə alınmır.

Şəxsiyyətin psixi sağlamlığına bir sıra amillər təsir göstərir: sosial-psixoloji, mədəni, demoqrafik və s. Problemin tədqiqində amillərin hər birinin təsir dərəcəsinin nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Bu amillər sırasında cins-yaş xüsusiyyətləri, ailə vəziyyəti və s. sosial-demoqrafik amillərin xüsusi çəkisi vardır.

Kişi və qadınların sağlamlıq və xəstəliklərindəki fərqlər haqqında təsəvvürlər uzun tarixçəyə malikdir. Müxtəlif dövrlərdə və müxtəlif mədəniyyətlərdə bu təsəvvürlər də fərdi xarakter daşıyır. Qərb tipli müasir cəmiyyətlərdə qadınlarda çox nevrotik, depressiv, isterik pozuntular baş verdiyi halda, kişilərdə psixopatik xarakterli pozuntular, alkoqolizm və psixoz kimi hallar daha da çox müşahidə olunur. Mütəxəssislərin fikrincə, kişilər arasında yayılmış psixi xəstəliklərin əksəriyyəti, erkən şizofreniya, autizm, hiperaktivlik və əqli inkişafın ləngiməsi halları nevroloji və orqanik pozuntuların nəticəsi ola bilər. Qadınların məruz qaldığı pozuntuların əksəriyyəti isə psixososial cəhətdən şərtlənmiş olur.

Tədqiqatçıların fikrincə, psixi sağlamlığın nisbətən yüksək səviyyəsi nikahda olan kişilərdə, daha sonra tənha və heç zaman ailə qurmamış qadınlarda, sonra nikahda olan qadınlarda, ən aşağı səviyyəsi isə tənha kişilərdə, boşanmış və dul qalmış qadınlarda təzahür edir.

Şəxsiyyətin psixi sağlamlığına təsir göstərən daha önəmli amillərdən biri də ailə və nikahdır.

Hər bir insanın həyatı ailədən başlayır. Ailə sevgi, hörmət həmrəylik və bağlılıq mənbəyidir. Ailə bütün həyat boyu bizi əhatə edən ən əziz və ən doğma insanların məcmusudur. Onların əhatəsində məhəbbət, xeyirxahlıq mühiti yaranır, nəsillər arasında varislik, milli-mədəni adət və ənənələr qorunub saxlanılır və gələcək nəsillərə ötürülür [2].

Ailənin psixi sağlamlığı, ailənin bütün üzvlərinin sağlamlığının mənəvi, psixi, sosial, somatik elementlərinin qorunması, möhkəmlənməsi və inkişafını şərtləndirir. Psixoloji sağlamlıq ailənin funksionallığının inteqral göstəricisidir. Psixoloji sağlamlıq ailədə baş verən sosial-psixoloji proseslərin, münasibətlərin, reaksiyaların problemli situasiyalarda bələdləşlməin adekvatlığı ilə səciyyələnir.

Ailə üzvlərinin psixi saglamlığının pozulmasına təsir edən amillərdən biri də konfliktlərdir. Ailədə problemlərin və konfliktlərin olması qaçılmazdır. Hər bir ailənin problemi konfliktə çevrilə bilər.

Ailədə baş verən zorakılıq müasir dövrdə yayılmış psixoloji problemdir. Bu zorakılığın səbəbləri isə qadın-kişi arasında olan problemlər, valideynlərin psixoloji cəhətdən sağlam olmamasını göstərmək olar. Kişinin qadına göstərdiyi fiziki zorakılıq həm qadına, həm də ən çox uşaqlara təsir edərək, birbaşa psixikada iz salır, nəticədə psixoloji problemlərə yol açır [7].

Konfliktlərin həlli ailədə müsbət psixoloji iqlimin yaranmasına gətirib çıxarır. Konfliktsiz ailə mövcud deyil. Ancaq onları aradan qaldırmaq, həll etmək və nəhayətdə ailəni dağılmaqdan xilas etmək mümkündür. Konflikt zamanı nə etməli?

Hər şeydən əvvəl çalışmaq lazımdır ki, konfliktli situasiya yaranmasın. Əgər artıq konflikt yaranıbsa, həll edilməsi mümkün olan söz-söhbəti sonraya saxlamaq lazım deyil. Çünki, anlaşılmazlıq nə qədər tez aradan qaldırılarsa, onun ailəyə vurduğu ziyan bir o qədər az olar. Çalışmaq lazımdır ki, uşaqların yanında mübahisə edilməsin. Çünki, ailədə sonralar hər şey düzəlirsə, münaqişələr qaydasına düşürsə, buna baxmayaraq, uşağın psixikasında ciddi problemlər yaranır. Bu zaman uşaqlarda fobiyalar, nevrozlar, aqressiyalar, qorxu hissi yaranır. Ailədə belə situasiyaların qarşısının alınması üçün valideynlər hər vəziyyətdə özlərini ələ almaq, hər şeyin yaxşı olacağına ümid etməsi çox vacibdir. Yaranmış vəziyyəti ağılla, təmkinlə təhlil edib aradan qaldırmağa çalışmaq lazımdır. Bunun üçün kinküdurətdən, hikkədən qaçmaq, mənfi emosiyaları tənzim etməyi, bir-birinin mövqeyini, vəziyyətini və əhvalını anlamağı bacarmaq zəruridir.

Müasir dövrdə müxtəlif stessogen amillərin təsiri nəticəsində insanlar psixoemosional gərginlik şəraitində

yaşamağa və işləməyə məruz qalır. Sosial-mədəni, siyasi-iqtisadi, demoqrafik göstəricilərin dinamik surətdə dəyişməsi, bütün sferalarda həyat tempinin sürətlənməsi, informasiya gərginliyinin artması, ekoloji sistemdəki dəyişikliklər, şəxsiyyətlərarası münasibətlərin mürəkkəbləşməsi, cəmiyyətin şəxsiyyət qarşısında qoyduğu daim artan tələblər və s. kimi hallar insanların fiziki və xüsusən də psixi cəhətdən yüklənməsinə səbəb olur.

İnsanların xroniki stress vəziyyətində yaşaması və fəaliyyət göstərməsi, sosial və psixoloji mənşəli gərginliklərin daimi təzyiqi orqanizmin, eləcə də psixikanın ehtiyatlarının sistemsiz surətdə sərf olunmasına gətirib çıxarır. Belə halda insanların istər bioloji, istərsə də sosial səviyyədə mühitə uyğunlaşması çətinləşir. Nəticədə nevroz, psixoz kimi xəstəliklərin kütləvi hal almasına, digər psixi pozuntuların, psixosomatik xəstəliklərin yaranmasına, yeni doğulan uşaqlarda anomaliya hallarının artmasına, əhalinin tələbat və motivasiya sferasının kəskin deformasiyasına səbəb olur. Bütün bunlar şəxsiyyətin mühitə uyğunlaşmasında, normal həyat tərzi keçirməsində, fəaliyyət göstərməsində problemlər doğurur. Bu da fiziki sağlamlığa zərər vurmaqla yanaşı, psixi sağlamlıq sferasında da ciddi fəsadlar törədir.

Psixi sağlamlıq millətin sağlamlığının ən mühüm tərkib hissəsidir və cəmiyyətin sosial və iqtisadi rifah vəziyyəti ilə sıx əlaqədədir. Psixi sağlamlıq və psixi rifah - yüksək həyat səviyyəsinin tərkib elementlərindən olub, insanlara öz həyatlarını tam dəyərli və əhəmiyyətli hesab etməyə, cəmiyyətin aktiv və yaradıcı üzvü olmağa imkan verir. Psixi sağlamlıq elə bir rifah vəziyyətidir ki, hər bir insan öz şəxsi potensialını reallaşdıra, adi həyat streslərinin öhdəsindən gələ, məhsuldar və səmərəli işləyə, həmçinin cəmiyyətin həyatına öz töhfəsini verə bilir.Yaxşı psixi sağlamlıq sosial birliyi, əmək istehsalını, mühitdə ictimai sakinliyi və sabitliyi təmin edən mühüm amildir.

Psixi sağlamlığın meyarları içərisində əsas yeri sosial səviyyə tutur. Sosial şəraitin, ictimai münasibətlərin şəxsiyyətin psixi sağlamlığına təsiri daha güclü olur. Yəni sosial-maddi və sosial-mənəvi şərait, ailə münasibətləri, ünsiyyətin xarakteri, digər qarşılıqlı münasibətlərin səciyyəsi psixi sağlamlığa ciddi təsir göstərir. Bu səviyyə ətrafdakı insanlarla qarşılıqlı münasibətlərdə harmoniya, inteqrasiya, yüksək mənəvilik, humanist dəyərlərin üstün tutulmasını, özünütəşkilə və özünümükəmməlləşdirməyə cəhd etməni nəzərdə tutur. Davranışda bu özünü altruizm və empatiya göstərir. Sosial keyfiyyətlərin kifayət qədər inkişaf etməməsi insanın öz hərəkətlərinə, taleyinə görə məsuliyyətdən

boyun qaçırmağa təhrik edir, onda melanxoliya, özünə və öz imkanlarına inamsızlıq, ətalət, qorxu hissi, xəyal qırıqlığı yaradır. Belə halda insan başqalarından qaçır, onları sevmir, ünsiyyətə az girir, sonra isə tədricən ünsiyyətdən qaçır və autizmə meyllənir. Şəxsiyyətin sosial sağlamlığı daha çox onun gerçək sosial gerçəkliyi adekvat qavramasında, ətraf aləmə maraq, fiziki və sosial mühitə uyğunlaşmaqda, səmərəli fəaliyyət yönümdə, davranışda demokratizm və s.-də ifadə olunur.İnsanın öz həyatını düzgün qurması psixi sağlamlığın vacib şərtlərindən biridir. İnsanın öz yerini həyatda düzgün tapa bilməsi, sosial əhəmiyyətliliyini adekvat surətdə dərk etməsi, özünü idarəetmə qabiliyyəti, özünüreallaşdırması onun psixi sağlamlığını şərtləndirir.

Son zamanlar Ümumdünya Səhiyyə Təşkilatı başda olmaqla dünya dövlətləri üzrə bir sıra qurumlar psixi sağlamlığın qorunması və möhkəmləndirilməsi yönümündə siyasət proqramlarının həyata keçirilməsi məsələlərinə son illərdə çox diqqət yetirilir. Respublikamızda da mütəxəssislərdən ibarət işçi qrupu tərəfindən 2007-ci ildə ”Psixi sağlamlığın qorunması sahəsində Milli Strategiya” layihəsinin hazırlanması bu sahədə götürülmüş müsbət addım kimi dəyərləndirilməlidir [5].

Psixi sağlamlığın möhkəmləndirilməsi müxtəlif strategiyalara əsaslanır, bu strategiyalardan hər biri psixi sağlamlığa müsbət təsir göstərilməsini nəzərdən tutur. Ümumən sağlamlığın möhkəmləndirilməsi kimi psixi sağlamlığın da möhkəmləndirilməsi həyat şəraitinin və ətraf mühitin yaradılmasına, psixi sağlamlığı qoruyan və insanlara sağlam həyat tərzi sürməyə imkan verən tədbirləri əhatə edir. Bura daxil olan bir sıra tədbirlər daha çox insanların psixi sağlamlığının yaxşılaşdırılması ehtimalını artırır.

***Ədəbiyyat:***


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2009, 624 s.
2. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı, 2015, 422 s.
3. Əliyev B.H., Ekologiya və etnopsixologiya. “Dirçəliş-XXI jurnalı,2001, №1-2, səh.181-184
4. Əliyev N. Adıgözəlova G.K. Cəmiyyətin psixi sağlamlığı problemlərinə müasirlik və islami mövqelərdən baxış. “Azərbaycan Psixiatriya jurnalı”, 2004, № 2(9), səh.7-9.
5. Psixi sağlamlığın qorunması sahəsində Milli strategiya. Bakı, 2007, 46 s.
6. Sadıqova Z.İ. Psixi sağlamlıq probleminə müxtəlif yanaşmalar. “Psixologiya jurnalı”, 2005, №1, səh.34-43.
7. Şəfiyev Ü. Konfliktologiya: siyasi-sosioloji təhsil. Bakı, 2002, 325 s

8. Васильева О.С., Филатов Ф.Р. Психология здоровья человека. М. Академия. 2011. 352с.
9. Никифоров Г.С. Психическое здоровье: Учебное пособие, СПБ, 2002, 256 с.

## PROBLEM OF MENTAL HEALTH AND HEALTHY LIFESTYLE

***Mirvari Ragimova***

**ABSTRACT**

In article were examined the mental health and healthy lifestyle. The problem of mental health, which is an important part of health, is naturally inextricably linked with the problem of a healthy lifestyle. Certain pathologies in the psyche, which act as a regulator of human life and activity, change his lifestyle and disrupt his behavior. This, in turn, leads to a shift away from a healthy lifestyle. Or a person who does not lead a healthy lifestyle may have certain health problems in general and mental health in particular. Problem of human health, including mental health, has always been relevant.

Rəyçi M.H.Mustafayev, psixologiya üzrə fəlsəfə doktoru
Məqalə redaksiyaya 23 dekabr 2020-ci ildə daxil olmuşdur

UOT: 159.922.4:316.77(076)

# YUXU VƏ YUXULARIN PSİXOFİZİOLOGİYASI

**Şəbnəm İslamlı,**
*BDU-nun "Gender və Tətbiqi Psixologiya"*
*kafedrasının doktorantı*
*Zahid Xəlilov küçəsi - 23. indeks: AZ 1148*
*E-mail: shabnamislamli@gmail.com*

***Açar sözlər:*** *yuxu, REM yuxusu, yuxugörmə, yuxuların fiziologiyası, beyin qabığının alın payı, nevrologiya, şüur*

***Keywords:*** *sleep, REM sleep, dreaming, physiology of dreaming, dorsolateral prefrontal cortex, neuroscience, consciousness*

## GİRİŞ

Yuxular yuxu prosesinin müəyyən mərhələsində yaranan təsvirlərdir.Yuxu qədim dövrlərdən bəri maraq yaratmış və üzərində çoxlu tədqiqatlar aparılmışdır. İnsan həyatı, xarici aləmi anlamaq məqsədilə hər zaman axtarışda olmuşdur. Bu axtarış öz dövrünün dünyagörüşünü, elmini, incəsənətini, iqtisadiyyatını, din və mədəniyyətini formalaşdırmışdır. Qədim dövrlərdə düşünürdülər ki, yuxular insanlara tanrılardan və pis ruhlardan xəbər verir və gələcək haqqında məlumat verməklə müəyyən məqsədə xidmət edir. Gələcəkdən xəbər verən yuxular ekstrasensor qavrayışın şüurda müxtəlif formalarda gerçəkləşməsidir. Müasir dövrdə də yuxuların gələcəkdən xəbər vermə xüsusiyyəti hələ də müzakirə olunur və yuxuların yozulması gündəlik həyatımızda əhəmiyyətini itirməmişdir. İnsan zehninin sonsuzluğu yuxularda da öz əksini tapmışdır. Yuxular bu gün də izahı bir qədər çətin olan mövzu kimi psixologiya elminin maraq dairəsindədir [1, səh 223-229].

Yuxugörmənin bir xüsusiyyəti vardır, onun baş verməsini tənzimləmək, müşahidə etmək mümkün deyil. Buna görə də yuxularla bağlı tədqiqatların yanılma ehtimalı vardır, çünki yuxular fərdin subyektiv həyatının inikasıdır. Yuxu prosesinin beyin mexanizminin araşdırılması onun neyrofizioloji əsaslarının olduğunu göstərir, məzmunu və insana təsiri yuxunun psixoloji tərəflərini izah edir, həmçinin insanların yuxuları yozub şərh etməsi sosioloji bir anlayışdır. Yuxu prosesini

tədqiq etmək üçün onu əmələ gətirən psixofiziologiyasına diqqət yetirmək lazımdır. Gün ərzində bir körpə 17 saat yatır, böyük yaşlı insan isə 6 saatdan 10 saata qədər yuxu yatır. Həyatımızın təqribən 1/3-i və ya 1/4-i yuxuda keçir, lakin biz yuxu prosesinin 20%-ni yuxu görürük. Yuxu prosesində şüurumuz tamamilə qapanmır, sadəcə başqa mərhələyə keçir. Yuxu sadəcə beynimizə deyil, bütün bədənimizə – ürək-damar sistemindən immunitetə qədər bir çox bədən funksiyalarına təsir göstərən fizioloji bir prosesdir. Yuxu əsnasında yuxugörmə periodik olaraq inkişaf edir və sirkulyasiya edərək təkrarlanır, yəni müəyyən fasilələrlə gedib gəlir. Həmin gəldiyi ərəfədə beyində və bədəndə dəyişikliklər baş verir. Yuxu prosesinin başlanğıcını müəyyənləşdirmək bir qədər çətindir, yuxu nə zaman başlayır və oyanıqlıq nə zaman yaranır suallarının cavabını laboratoriya şəraitində müşahidə edərək araşdırmaq mümkündür. Bu zaman yuxu fizioloji və neyrofizioloji parametrlərə əsasən araşdırılır. Həmin parametrlər arasında başlıcası EEG zamanı müşahidə olunan beyin dalğalarıdır. Digər parametrlərdən biri də əzələ tonusu, əzələlərin gərginlik gücüdür [2, səh 3-19].

Bütün parametrlər nəzərə alınaraq fərdin yuxunun hansı mərhələsində olduğunu təyin etmək mümkündür. Yuxu Non-REM və REM yuxusu olmaqla iki yerə ayrılır. Non-REM yuxusu öz daxilində isə üç yerə ayrılır. N1 qısa zaman ərzində yuxuya getmə fazasıdır və yuxunun 5%-ni təşkil edir. N1 yuxusuna EEG zamanı baxarkən beyin dalğalarının yavaş hərəkət etdiyini görürük, əzələ tonusunda da azalma baş verir, buna görə də bədənə ağırlıq hissi gəlməyə başlayır, yəni əzələlər bədəni ayaq üstə tutmaqda sanki çətinlik çəkir, bütün bunları yuxu laboratoriyasında müşahidə etmək olur. Bundan sonrakı faza isə psixomotor yaddaşın, hərəkət və davranışların, öyrənilən informasiyaların hafizəyə ötürülərək möhkəmləndiyi N2-ci fazadır və yuxunun 45-55%-ni təşkil edir. Dərin yuxunun başladığı N3 fazasında isə orqanizm istirahət edir, özü-üzünü yeniləyib bərpa edir. Yaxşı bir istirahət üçün yuxunun 20-25%-ni təşkil edən N3 fazasının baş verməsi vacibdir [3, səh 40-153].

Yuxunun qalan 20-23%-i REM yuxusundan ibarətdir. Buna görə də yuxu N1 - N2 - N3 və REM şəklində dörd əsas fazaya ayrılır. REM ingilis dilində "Rapid Eye Movement" cümləsindəki sözlərinin baş hərflərilə adlandırılmışdır – "Sürətli Göz Hərəkəti" deməkdir. Görülən yuxunun məzmununa uyğun olaraq göz hərəkətlərinin baş verdiyi REM fazasında bədəndəki bütün əzələlər iflic kimi olur. İnsan bu faza zamanı şüuru yerinə gəlmədən oyanarsa, yerindən

qalxmağa çətinlik çəkir. Bu fazanın əsas xüsusiyyəti odur ki, beyinin funksiyaları oyaq olduğu zamankı halına bənzəyir. İntellektual inkişaf, hafizə prosesləri, koqnitiv proseslər xüsusən REM yuxusu ilə əlaqəli şəkildə inkişaf edir. İntensiv öyrənmə prosesi zamanı REM yuxusunun keyfiyyətinin artdığı müşahidə olunmuşdur. Bunun əksinə isə materialın öyrənilməsi prosesində üzərində tədqiqat aparılan insanların yuxudan məhrum olunduqları günün səhəri öyrəndikləri materialın az qismini xatırladıqları müəyyən olunmuşdur. Eksperimentlər nəticəsində məlum olmuşdur ki, bir materialı öyrəndikdən sonra yatıb-yatmamaqdan asılı olaraq yadasalma dərəcəsində fərq vardır. Təbii ki, yatanların yüksək səviyyədə xatırlaya bildikləri öyrənilən materialın yaddaşa həkk olunduğu müşahidə olunmuşdur. Buna görə də materialı öyrəndikdən sonra yaxşı bir yuxu yatmaq öyrənilənlərin beyində sabitləşməsinə kömək olur [4, 563-575].

J.Allan Hobson 2002-ci ildə "Yuxular" adlı kitabı ilə özündən əvvəlki nəzəriyyəçilərdən fərqli olaraq yuxularla neyrobiologiya arasında əlaqə yaradaraq yuxuların laboratoriya şəraitində tədqiq oluna bilinən bir anlayış olduğunu irəli sürmüşdür. Bu baxımdan Hobson yuxuların "mənası" anlayışının elmi tərəfinin tədqiq olunmasından daha çox yuxu görən beyində necə bir dəyişikliklərin meydana gəldiyinə nəzər yetirməyin vacib olduğunu vurğulayırdı

Gerçək həyatdakı insanların REM yuxusu zamanı fərqli şəkillərdə görünməsi mümkündür, məsələn, sarışın bir insanın qarabuğdayı görünməsi və s. REM yuxularında qeyri-adilik (dağ başında velosiped yarışı, qanadsız uça bilmək və s.), məntiqsiz fikir irəli sürmə (məs. bir az daha sürətli qaçsam, uça bilərəm), baş verməsi mümkün olmayan şeylərin gerçək kimi görünməsi, emosional gərginlik, qorxu, təşviş halı yaşanılır. REM yuxusu zamanı beyin çox aktivləşir, yuxudan oyandırılan insanların 95%-i hələ də yuxu görməkdə olduqlarını bildirirlər, digər 5% insanlar isə yuxu gördüklərini, lakin REM zamanı yaddaşın zəifləməsi səbəbilə gördükləri yuxunu xatırlaya bilmədiklərini bildirmişdirlər [5, səh 519-543].

Beynin ön payı REM yuxusu zamanı aktivliyini saxlayır. Ön alın payı niyyət, düşüncə, başqalarına qarşı duyulan hisslərdən cavabdehdir. REM yuxusu zamanı bu sahələrin aktiv olması yuxunun məzmununu təşkil edən şəxsiyyətlərarası münasibətlərdə hisslərin və obrazların meydana çıxmasına səbəb olur. Gicgah və təpə payındakı aktivlik REM yuxusu zamanı azalır. Bu sahələr oyanıq ikən mənlik hissinə nəzarət edir. REM yuxusu zamanı bu sahələrin hipoaktivasiyası insana icazə verir ki, həm

birinci, həm də üçüncü şəxsin perspektivindən hadisələrə yanaşa bilsin. Beləliklə, yuxugörmə zamanı sosial və emosional münaqişələrin həlli baş vermiş olur. Yuxugörmə yolu ilə katarsisin təmin olunması və emosiyaların tənzimlənməsi bu şəkildə mümkündür. REM yuxusu zamanı amiqdalanın aktivliyinin artması emosiyaların yenidən tənzimlənməsinə şərait yaradır. Xüsusən də yuxugörmə sayəsində hipokampusla əlaqədar olan emosional xatirələrin bütünləşməsi və emosional gərginliyin neytrallaşdırılması baş verir [6, səh 331-343].

## NƏTİCƏ

Yuxular sanki bizə hər gecə üzərində düşünməyimiz, özümüzü tanımağımız, inkişafımızı tamamlamağımız üçün göndərilən işarətlərdir. Yuxuların şəxsi inkişafa təkan verməsi, insanın emosiya və münasibətlərini tənzimləməsi kimi də bir funksiyası mövcuddur. REM yuxusuna girərkən oyandırılan və beləliklə REM yuxusundan məhrum olan şəxslərin daha çox narahatlıq, əsəbilik, dözümsüzlük və növbəti gün diqqətlərini mərkəzləşdirməkdə çətinlik çəkdikləri müşahidə edilmişdir. Bəzi araşdırmalara görə insanlarda REM yuxusu baş vermədiyi zaman yeni məlumatı öyrənməkdə və keçən gün haqqında məlumatları xatırlamaqda çətinlik çəkirlər, fiziki bacarıqlar isə zəifləyir. Yuxugörmə yaddaşın qorunmasına da kömək edir, köhnə xatirələrlə son təcrübələr arasında əlaqə yaradır. Bu proses hipokampus və ön beyin arasındakı məlumat axını azalanda, yəni REM yuxusu zamanı meydana gəlir. Nəticədə şüurlu nəzarətdəki azalma zehnin daxili prosesini qorumağa kömək edir. Yuxu prosesində biliklərin öyrənilməsi, saxlanılması və təşkili beyin fəaliyyətiylə təmin edilir. Bu baxımdan yuxu görmənin faydaları olduqca çoxdur. Kabus kimi görünən yuxular da bunun bir hissəsidir, yəni bu tip yuxular beynin özünü tənzimləyən fəaliyyəti kimi çıxış edir.

***Ədəbiyyat:***

1. İlal G.K. Psikoterapi Sürecinde Rüyaların İletişim İşlevleri. İstanbul: Türk Psikiyatri Dergisi, 2006, 223-229 s.
2. Bilici M. Rüyaların fiziologiyası və neyrofiziologiyası. İstanbul: Acar Matbaacılık, 2018, 3-19 s.
3. Hobson J.A. Dreaming. United States of America: Oxford University Press, 2011, 40-153 s.
4. Kyreger M., Roth T., Dement W. Principles and Practice of Sleep Medicine. United States of America: Elsevier, 2016, 563-575 p.

5. Montagna P., Chocroverty S. Handbook of Clinical Neurology. United States of America: Elsevier, 2011, 519-543 p.
6. Stickgold R., Walker M.P. Sleep-dependent memory consolidation and reconsolidation. Harvard: Sleep Medicine, 2007, 331-343 p.

## PSYCHOPHYSIOLOGY OF SLEEP AND DREAMING

***Shabnam Islamli***

**ABSTRACT**

Dreaming has fascinated and mystified humankind for ages: the bizarre and evanescent qualities of dreams have invited boundless speculation about their origin, meaning and purpose. Dreams are a remarkable experiment in psychology and neuroscience, conducted every night in every sleeping person. For most of the twentieth century, scientific dream theories were mainly psychological. REM sleep is a state of desynchronized electrophysiological activity of the brain. It is usually accompanied by mental activity characterized by a succession of complex visual experiences commonly referred to as dreaming. Since the discovery of rapid eye movement (REM) sleep, the neural underpinnings of dreaming have become increasingly well understood.

Rəyçi R.F.İbrahimbəyova, psixologiya üzrə fəlsəfə doktoru, dosent
Məqalə redaksiyaya 28 dekabr 2020-ci ildə daxil olmuşdur

UOT: 159.96

# CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ MƏHKUMLARIN AUTOAQRESSİV DAVRANIŞININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Əsmər Əliyeva,**

*BDU-nun "Psixologiya" kafedrasının dissertantı*
*Zahid Xəlilov küçəsi – 23.indeks: AZ 1148*
*E-mail: esmer90-90e@mail.ru*

***Açar sözlər:*** *məhkum, dezadaptasiya, autoaqressiya, özünə ziyan vuran davranış, simulyasiya, aqqravasiya, intihar*

***Keywords:*** *convict, disadaptation, auto-aggression, self-harming behavior, simulation, aggravation, suicide*

## GİRİŞ

Məlum olduğu kimi, aqressiya əsasən subyektin müəyyən məqsədə nail olmaq istədikdə qarşısına çıxan çətinliklər zamanı meydana çıxır və nəticədə, bir tərəfdən fərdlə cəmiyyətdə qəbul edilən sosial norma və qaydalar arasında qarşıdurma yaranır, digər tərəfdən isə məqsədə nail ola bilməmə nəticəsində təzahür edən frustrasiyaya cavab olaraq aqressiya baş qaldırır, autoaqressiv xarakterli əməllərin törədilməsi riski meydana çıxır.

Bu vəziyyətin empirik təsdiqi zorakı cinayətkarlarda və susisidentlərdə özünü göstərir. Bu istiqamətdə aparılmış tədqiqatlarda suisidentlərdə özünüqiymətləndirmənin qeyri-adekvat aşağı, zorakı cinayətkarlarda isə qeyri-adekvat yuxarı özünüqiymətləndirmə səviyyəsi aşkar olunmuşdur. Suisidentlərdə özünügerçəkləşdirmə tələbatının yüksək, cinayətkarlarda aşağı; suisidentlərdə empatiya, cinayətkarlarda laqeydlik, ədavətlilik, cinayətkarlarda iradi cəhdlərin asanlıqla təzahürü, suisidentlərdə maneələri aradan qaldırmaq çətinliyi; cinayətkarlarda özünə haqq qazandırmağa meyl, suisidentlərdə özünügünahlandırma meyli; cinayətkarlarda şəxsiyyətin istiqamətində davamlı olaraq özünü göstərən heteroaktivlik, suisidentlərdə - autoaqressivlik; cinayətkarlarda aşağı həyəcanlılıq, susisidentlərdə yüksək həyəcanlılıq səviyyəsi müəyyən edilmişdir.

Müəlliflərdən A.Q.Ambrumova və A.R.Ratinov belə nəticəyə gəlmişlər

ki, istər zorakı, istərsə də suisidal davranış təzahür edən şəxslərin hansı davranışı nümayiş etdirməsi onların şəxsiyyətinin psixoloji təbiəti ilə müəyyən edilir [1].

Cəzaçəkmə müəssisələrində hansı məhkumlar autoaqressiv davranışa meyillidir?

M.P.Melentev və A.P.Tişenko qeyd edirlər ki, zorakı cinayətkarların davranışı üçün aqqressiyanın təzahürü səciyyəvidir və susisidentlərin ümumi kütləsi içərisində zorakı cinayətlərə görə həbs olunan məhkumlar faiz etibarı ilə üstünlük təşkil edir [8].

Müəlliflərdən İ.B.Boyko cəzaçəkmə müəssisələrində zorakı cinayətlərə görə məhkum olunanların autoaqressiyaya meyilli olduqlarını və daha çox intihar etdiklərini qeyd edir. İ.B.Boyko bu cür davranışı onunla izah edir ki, həmin məhkumların cəzaçəkmə müəssisəsində aqressiv meyilləri "aqressiyanın öz üzərinə köçürülməsi" tipi üzrə autoaqressiv əməllərdə təzahür edir. Belə davranış əsasən cəzaçəkmə müəssisəsinin rejiminin tələblərinə əməl edən aqressiv məhkumlarda və ciddi nəzarət olan qruplarda realizə olunur [3].

Belə davranış davamlı nəzarət və rejimin tələblərinə riayət olunması şəraitində aqressiv başlanğıcın realizasiyası kimi çıxış edir.

Y.M.Antonov zorakı cinayətkarlara yanaşmasında bəzən zorakılıq formasının ölümə cəhdlə bağlı təzahür edə biləcəyini qeyd edir. Y.M.Antonov çox maraqlı bir məqama toxunaraq bildirir ki, qətl və zorlamaya görə ömürlük azadlıqdan məhrum edilmiş və güzəran səviyyəsində seksual manyaklar adlandırılan 107 məhkumlardan 26%-i əfv olunmaq üçün müraciət etməmişlər. Onun fikrincə, bu məhkumlar qlobal-destruktiv şəxsiyyət tipinə aid olanlardır. Bu məhkumlar digər insanları öldürməyə meyillidirlər və özlərinin də öldürülmələrinə hazırdırlar, ölümə cəhd edirlər. Bu məhkumlar üçün suisidal xarakterli simvolik hərəkətlər səciyyəvidir.

Bu nəzəriyyənin isbatı kimi M.P.Melenteva və A.P.Tişenkonun tədqiqatları çıxış edir. Həmin tədqiqatlarda onlar ömürlük azadlıqdan məhrumetmə və ölüm hökmünə məhkum edilmiş, hökmün çıxarılmasını gözləyən məhkumlar arasında intihar hallarına daha çox təsadüf edilməsi ilə bağlı dəlillər olduğunu qeyd edirlər.

Qərb ölkələrində E.Megargee, R.Blackburn, J.Wilson, R.Herrnstein tərəfindən aparılmış çoxsaylı tədqiqatlar əsasında qatillərin xarakterik xüsusiyyətlərini müəyyən edən Leonard Berkovitz zorakı cinayətkarların çox maraqlı bir təsnifatını təklif etmişdir [4]:

1. Aqressivliyinə yüksək səviyyədə nəzarət edən qatillər. Aqressivliyinə yüksək səviyyədə nəzarətlə səciyyələ-

nən bu məhkumlarda aqressiv təzahürlərə gizli olması ilə yanaşı, həm də fəal şəkildə meyl müşahidə edilir. Onlar zorakı impulslarının demonstrativ təzahürünü boğmalarına baxmayaraq, müəyyən hallarda onlar daxildə toplanmış aqressiyalarını boşalda bilərlər. Bundan sonra, onlar özləri üçün adət olunmuş müdafiə xarakterli yüksək özünənəzarət vəziyyətinə qayıdırlar.

Bu tip şəxslər aşağıdakı alttiplərə ayrılır:

- həddindən artıq özünə nəzarət edən repressor bu alt tip öz impulslarına güclü nəzarət edir, emosional problemlərini ya təzahür etdirmir, yaxud da təsadüfi hallarda aşkara çıxarır;
- depressiyanın yüksək səviyyəsi ilə səciyyələnən, daima özünü günahlandıran, əzginliyə, kədərə, hüznə meyilli təmkinli şəxsiyyət tipi.

2. Özünüidarə səviyyəsi aşağı olan reaktiv qatillər. Berkovitsə görə, bu tipə qatillər arasında daha çox rast gəlinir. Bu tip emosiyaların qabarıq ifadəsinə meyillə və öz aqressiv xüsusiyyətlərinə zəif nəzarət, onların zəif şəkildə basdırılması ilə xarakterizə olunur. Bu davranış daha çox yüksək reaktivliyi olan insanlarda aşkar olunsa da, bu keyfiyyət xüsusilə psixopatiyalı şəxslərə xasdır.

Bu tipologiyaya əsasən belə qənaətə gəlmək olar ki, depressiv təmkinli tip qatillər autoaqressiv davranışa daha çox meyillidirlər.

Artıq qeyd edildiyi kimi, bir sıra tədqiqatçılar bəzi məhkumlar kateqoriyasını autoaqressiv əməllər törətmək baxımından risk qrupu kimi təsnif edirlər. Eyni zamanda həbsxanalarda məhkumların sayı daha artır və bu tendensiya gələcəkdə də davam edəcək.

Autoaqressiv davranışa meyilli məhkumların risk qrupuna daxil olması onların psixoloji və sosial-psixoloji baxımdan həddindən artıq ekstreminal olan həbsxana şəraitinin şərtləri ilə də izah oluna bilər.

Müəlliflərdən A.D.Qlotoçkin və V.F.Piroşkov qeyd edirlər ki, məhkumların çoxu davamlı affekt vəziyyətini yaşayır, bir çox hallarda isə heç bir səbəb olmadan qışqırır, qəzəblənirlər. Tədricən daxilə toplanmış affektiv yaşantılar və onun inkişafı ağır psixi dəyişikliklərə gətirib çıxara bilir [7].

Tədqiqatçılardan M.P.Melentev və A.P.Tişenko göstərirlər ki, cəza çəkmə müəssisələrində məhkumların psixi vəziyyəti adət etdikləri mühitdən təcrid olma, mövcud sosial münasibətlərin pozulması, hüquq və azadlığın məhdudlaşması, rejimin tələb və qaydalarını yerinə yetirmək öhdəliyi, bir sıra məsələlərdə qərar vermək ixtiyarının olmaması, törədilən cinayətlə, qurbana verilən zərərlə bağlı narahatlıq, verilən cəzanın ədalətsizliyi həyəcanı, güna-

hını rədd etmək, azadlıqdan məhrum olması ilə əlaqədar yaxınlarının və doğmalarının əziyyəti, əksər hallarda ailənin dağılması, təcridxanalarda xeyli vaxt keçirmək perspektivi və s. kimi spesifik faktorlarla müəyyən olunur [8,23].

Entoni Qiddens qeyd etdiyi kimi, məhkumlar əvvəllər olduğu kimi artıq fiziki cəzaya deyil, başqa cür cəzalara məruz qalırlar. Onlar təkcə azadlıqdan deyil, cəmiyyətdən, ailədən, əvvəlki dostlardan, heteroseksual münasibətlərdən, şəxsi əşya və geyimlərindən məhrum olublar. Əksər hallarda, sıx, izdihamlı otaqlarda yaşayırlar və müəssisədəki gündəlik həyatın ciddi qaydalarına tab gətirmək məcburiyyətində qalırlar. Məhbuslar müəssisədən xaricdə qalan dünyadan son dərəcə fərqli bir mühitdə yaşayırlar. Həbsxanada mənimsədikləri vərdişlər və davranış üsulları çox vaxt onlardan gözlənilən davranışın tam əksi olur[6].

M.N.Qernet, Q.F.Xoxryakov, A.İ.Uşatikov, B.B.Kazak cəzaçəkmə müəssisələrində məhkumların həyat fəaliyyətini belə xarakterizə edirlər: monotonluq, yuxu rejiminin pozulması, məkan dəyişikliyi, tənhalıq, informasiya məhdudluğu, həyati təhlükəlilik, qrup təcridliyi.

Tədqiqatçılar M.P.Melentev və R.A.Şaxmanov cəzaçəkmə müəssisəsində suisidal davranışa səbəb olan faktorları belə qruplaşdırmışdır: avtoritar mühit, sərt rejim; gələcək perspektivlə bağlı qərarsızlıq, məhkumluqdan utanma; ailədən, dostlardan, doğmalardan təcrid olma; məhbusluqla əlaqəli həbsxananın insanlıqdan uzaqlaşdıran tərəfləri; azadlıqda olarkən baxdıqları film və televiziya verilişlərində həbsxana stereotiplərinə əsaslanan qorxu hissi; həbsxana işçilərində empatiyanın olmaması [11].

Bütün bunlar məhkumlarda həyatın mənasının və motivasiyanın dəyişməsində səbəb olur və onlarda belə fikir formalaşır ki, məhkumların burada qarşılaşdıqları çətinliklər qarşısıalınmazdır.

A.İ.Uşatinkov və B.B.Kazak qeyd edir ki, həbsxana rejiminin sərtləşdirilməsi ilə əlaqədar olaraq "avtoritetlər" məhkumları rəsmi həbsxana yeniliklərinə qarşı kütləvi etirazlara sövq edirdilər. "Məhbuslar" getdikcə daha çox özünə xəsarət yetirir, aclıq aksiyası keçirir və etiraz əlaməti olaraq döymələr (tatuirovkalar) tətbiq edirlər [10].

Autoaqressiyanın təzahürlərini araşdırarkən onun özünəməxsus xüsusiyyətlərini qeyd etmək olar. A.İ.Uşatinkov və B.B.Kazak göstərir ki, məhkumlarda təsadüf edilən simulyasiya simptomları keçmişlə müqayisədə xeyli dərəcədə dəyişmişdir. Məsələn, XX əsrin 20-ci illərində qıcolmaların nümayişini simulyasiya etmək populyar idi. 30-cu illərdə fərdin xəyali fikirləri, affektiv pozuntular (depressiya, hipomaniya) və zehni fəaliyyətin

azalması daha çox simulyasiya edildi. 40-50-ci illərdə əsasən üzvi ağıl zəifliyini və psixogen simptomları nümayiş etdirdilər. 60-cı illərdə məhkumların simulyasiya mənzərəsində zəif differensiasiya edilən polimorfik hallar, hallüsinator sindrom üstünlük təşkil edirdi.

V.N.Volkovun fikrincə, cəzaçəkmə müəssisələrində autoaqressiya bir istiqamətə malikdir - affektiv halət və suisidal əməllərin maksimal nümayişi və özünə minimal xəsarətlər yetirmək [5].

Bir qayda olaraq, məhkumlar hər hansı bir məqsədə çatmaq, təqlid obyekti olmaq, müəyyən "fayda" əldə etmək və ya başqalarından üstünlüyünü sübuta yetirmək üçün xəstəliklərin stimulyasiyası və ağırlaşmasından istifadə edirlər.

Amerikalı psixiatr David Lester, məhkumun öz əməllərinin nəticəsini gözləmə dərəcəsinə diqqət yetirərək, onların autoaqressiv təzahürlərini üç kateqoriyaya ayırır:

1) Qəsdən, "özünü cəzalandırmaq" arzusu ilə autoaqressiv əməllər törədən məhkumlar. Amma onlarda ölmək istəyi olmur.

2) Spekulyativ məqsədlə autoaqressiv əməllər törədən məhkumlar gözlənilən "fayda" sağlamlıq üçün mənfi nəticələrdən "üstün" olduqda);-

3) Şəxsin səhlənkarlığına görə, nəticənin gözlənilməzliyi və arzuolunmazlığı.

Amerika tədqiqatçıları D.Lester və B.Dante qeyd edir ki, məhkumlar olduqca tez-tez intihar məqsədi güdmədən özlərinə ziyan vururlar. Məhz bu cür əməlləri tədqiqatçılar özünəzərərvermə davranışı adlandırırlar. Martinez tərəfindən əldə edilən nəticələr göstərir ki, cəzaçəkmə müəssisələrində müxtəlif kəskin əşyalarla bədənin kəsilməsi və yad cisimlərin udulması kimi özünə xəsarət yetirmə növlərinə çox rast gəlinir. Üstəlik, özünə zərər verən davranışlar dəfələrlə təkrarlana bilir.

Cəzaçəkmə müəssisələrində özünə xəsarət yetirən məhkumlar autoaqressiv hərəkətlərini bu müəssisələrdə rəhbərliyin "boş yerə" onlara verdiyi cəzanın haqsızlığı və mövcud olan "qanunsuzluq" ilə izah edirlər. Müəlliflər istintaq təcridxanasını autoaqressiv əməllərin daha çox baş verən yeri kimi qeyd edirlər.

Məhkumlar simulyasiyadan istifadə edərkən hər bir xəstəliyin obyektiv təzahürlərə (temperatur, qan təzyiqi və s.) və subyektiv göstəricilərə (xəstə şikayətləri) malik olduğunu nəzərə alırlar. Həkimi yanıltmaq üçün məhkumlar simulyasiya və ağırlaşma üsullarına müraciət edirlər: süni şəkildə temperaturu qaldırmaq, dərman qəbul etməklə nəbzin tezliyini artırmaq, dəri altına müxtəlif maddələr vuraraq abseslərə səbəb olmaq və s.

Bu növ (özünəziyanvurma) autoaqressiv davranış məhkumlar arasında

xüsusi populyarlıq qazanmışdır. Özünəziyanvurma cisimləri udaraq daxili orqanlara ziyan, müxtəlif obyektlərin sidik kanalına və ya qan dövranı orqanlarına daxil edilməsi, oynaqların zədələnməsi, qolların və ayaqların qırılması, xarici orqanların və dərinin zədələnməsi, bədənin daxili və xarici hissələrinin xəsarətlərinin kombinə edilməsi ilə reallaşa bilər.

Tədqiqatçı V.N.Volkov cəzaçəkmə müəssisələrində məhkumlar arasında təsadüf edilən özünəzərərin aşağıdakı əsas növlərini müəyyənləşdirir [5,151]:

– dərinin və həyati əhəmiyyəti az olan orqanların zədələnməsi (dəri kəsikləri, kimyəvi maddələrlə yuxuya getmək, əşyaların iti hissələrinin dərinin altına yeridilməsi, əzilmiş şüşənin ayaqlara, əllərə sürtülməsi);
– obyektlərin udulması ilə daxili orqanların zədələnməsi (yumşaq və sərt cisimləri udmaqla özünəzərərvermə);
– sərt xarici obyektlərin (dırnaq, sim, elektrod və iynələr) yemək borusu, mədə, sidik kisəsi və sinuslara, tənəffüs və qarın boşluğuna daxil edilməsi;
– daxili və xarici orqanlara kombinasiya edilmiş ziyan (damarların deşilməsi)

Y.M.Antonov, İ.B.Boyko fizioloji baxımdan özünə zərər vermə üsullarını araşdıraraq aşağıdakı kimi təsnif etmişdirlər:

1. Fiziki amillərdən istifadə edərək özünə zərər vermək (damarların kəsilməsi, müxtəlif predmetlərin udulması və s.);
2. Kimyəvi maddələrdən istifadə etməklə (yanıqlar);
3. Bioloji amilləri əsas gətirməklə (mexaniki travma, süni xəstəliyin yaradılması);
4. Zədələnmək və xəstəlik üçün əlverişli şəraitin yaradılması;
5. Mövcud yaraların və xəstəliyin ağırlaşmasına təsir edən şəraitin yaradılması;
6. Hər hansı bir xəstəlikdən əziyyət çəkən xəstələrin özünə zərər vurması;
7. Simulyasiya təzahürləri ilə birlikdə özünəzərər yetirmə (aqqravasiya, simulyasiya, disimulyasiya);
8. Yuxarıda sadalanan özünəzərərin üsullarından kombinasiya şəklində istifadəsi.

Müəlliflərdən V.F.Piroşkov və V.M.Anisimkov, müxtəlif kateqoriyalı məhkumların autoaqressiv əməllərini araşdırmasına əsasən, aşağıdakı nəticələrə gəlmişdirlər:

a) autoaqressiya aktları əsasən dəfələrlə məhkum olunmuş şəxslər tərəfindən törədilir;
b) məhkumlar işdən yayınmaq, cəzalarını istədikləri cəzaçəkmə

müəssisəsində çəkmək, təqiblərdən qaçmaq və s. məqsədi ilə özlərinə xəsarət yetirirlər;

c) autoaqressiya aktlarının əksəriyyəti oğurluq və xuliqanlıqda təqsirli bilinən şəxslər tərəfindən törədilir;

d) gənc yaşda olan məhkumlar özlərinə zərər verməyə daha çox meyillidirlər.

Cəzaçəkmə müəssisələrində ifrat dərəcəli autoaqressiya forması kimi intihar xüsusilə qeyd edilməlidir. Bununla bağlı tədqiqatların nəticələri mübahisəli olsa da, bəzi mənbələr intiharın məhkumlar arasında ölümün əsas səbəbi olduğunu iddia edirlər.

Xarici müəlliflərin əsərlərində həbsxanalarda reallaşan intihar aktlarının çoxaldığı, ümumilikdə intihar səviyyəsinin həddini aşdığı iddia edilir. Məsələn, bəzi amerikalı müəlliflər ABŞ-da illik həbsxana intihar sayının 900–1000 hadisəyə qədər ola biləcəyini, bunun da rəsmi rəqəmlərdən təxminən iki dəfə çox olduğu düşünülür.

İ.B.Boykoya görə autoaqressiv davranışının əsas motivləri bunlardır: hər hansı bir vəzifədən yayınma; müəyyən bir fayda əldə etmək (məsələn, rejimin rahat olmasına nail olmaq); şəxsi həyatını və ləyaqətini təcavüzlərdən qoruma.

V.F.Piroşkov məhkumlar arasında mənfi psixi vəziyyətləri (məyusluq, depressiya, aqressivlik, cansıxıcılıq, narahatlıq); təqlid və sirayət; simulyasiya və aqqravasiyanı əsas motivlər hesab edir.

Məhkumların autoaqressiyasının səbəb və məqsədini araşdıran M.B.Metelkin bu davranışın motivlərinin təsnifatını vermişdir: həyatına son vermək istəyi; haqsız məhkum olunmasına etiraz (məhkumların fikrincə); digər məhkumlarla konfliktli situasiyadan çıxmaq arzusu; başqa bir islah müəssisəsinə köçürülmək istəyi; düzgün olmayan nizam-intizam qaydalarının tətbiq edilməsinə etiraz; xəstəxanaya getmək arzusu; fiziki işdən yayınma; islah müəssisəsindən vaxtından əvvəl sərbəst buraxılmaq istəyi; rəhbərliyin nümayəndələri ilə konfliktin olması.

Tədqiqatçılar Y.M.Antonov, İ.B.Boyko, V.A.Vereşaqin bir sıra islah müəssisələrində araşdırma apararaq məhkumların özünə xəsarət yetirməsinin əsas motivlərini qeyd etmişlər: rəhbərliyin qoyduğu qayda-qanunla razılaşmamaq; işdən yayınma, haqqın ödənilməməsi və s., məqsədini həyata keçirmək üçün xəstəxanaya köçürülmə istəyi (məsələn, qaçmağı planlaşdırmaq; "ərazidəki" təqibçilərdən uzaqlaşmaq; törədilmiş cinayətlə əlaqəli məlumatların ötürülməsi; cinayət dünyasındakı nüfuzlu məhkumlarla görüşmək, rəhbərliyə qarşı mübarizə tədbirləri hazırlamaq və s.); cinayət məsuliyyətindən yayınmaq və törətdiyi cinayətə görə cəzanı daha çox çək-

məkdən azad olmaq istəyi; müəssisə rəhbərliyindən qayda-qanunla bağlı güzəştlərə nail olmaq istəyi; girdiyi mübahisəni qazanmaq və s.

Bir sıra tədqiqatçılar tərəfindən cəzaçəkmə müəssisələrində olan autoaqressiv şəxslərin daxili və xarici çətinliklərini dəf etmək üçün özlərinə xəsarət yetirmələrinin qanunauyğunluğu vurğulanmışdır. Y.M.Antonov autoaqressiv fakt kimi bəzi məhkumların cinsi məmnuniyyət (mazoxizm) əldə etmək üçün özlərinə zərər vermə və xəsarət yetirmə meylini də istisna etmir.

Qərb tədqiqatçılarının məlumatlarında bu öz təsdiqini tapır. D.Lester, B.Danto, Martinez özlərinə zərər verən davranışları ilə xarakterizə olunan məhkumların tez-tez autoaqressiv aktından əvvəl hissizlik, uyuşma, yaxud aclıq hiss etdiklərini qeyd edirlər. Ağrı və qan görmə bu hisslərin yox olmasına kömək edir.

Tədqiqatçı Rossanın autoaqressiv davranışın səbəbləri ilə bağlı təsnifatı maraqlıdır:

a) şəxsiyyət xüsusiyyətləri ilə əlaqəli (psixi vəziyyəti və s.);
b) həbsxana mühiti ilə şərtlənən (cəzaçəkmə müəssisələrində qəddarlıqdan qurtarmaq cəhdi, cəzaçəkmə müəssisəsinin işçilərinə özünəməxsus "müraciət" və s.).

Tədqiqatçılar A.D.Qlotoçkin və V.F.Piroşkov autoaqressiv davranışı məhkumların həbsxana şərtlərinə adaptasiya dövründə yaranan adekvat olmayan psixoloji reaksiyalarla əlaqələndirirlər və aşağıdakı reaksiyaları fərqləndirirlər [7]:

1. Klaustrofobik reaksiyalar. Qapalı məkan qorxusu ilə xarakterizə olunur. Kamerada olarkən bu şəxslər motor narahatlıqlarını göstərirlər, yeriyərkən - motor aktivliyi artır.
2. Həyəcanlı-depressiv reaksiyalar. Bu halda məhkumlarda depressiv bir əhval-ruhiyyə, ümidsizlik, həyat perspektivlərinə bədbin münasibət üstünlük təşkil edir. Belə məhkumlar üçün dağılmış ailə ilə bağlı əsəbilik və narahatlıq səciyyəvidir.
3. Mənfi depressiv reaksiyalar. Bunlar yuxarıdakı qeyd olunanların mövcudluğu ilə yanaşı, həbs cəzasına qarşı mənfi münasibət, törətdiyi əmələ görə təqsiri qəbul etməmək, etdiklərinə görə peşman olmamaq, cəza çəkmə rejiminin qaydalarını pozmaq, rəhbərliyin göstəriş və tələblərinə məhəl qoymamaqla xarakterizə olunur.
4. Neqativ-isterik reaksiyalar. Bunlar nümayişkaranə mənfi davranışlarda, başqalarının diqqətini "ədalətsizliyin qurbanı" olan şəxs kimi özünə cəlb etmək istəyində göstərir. Bu şəxslər digər

məhkumları özlərinə tabe etmək, səlahiyyəti ələ keçirmək məqsədi daşıyan, keçmişdə ağır cinayətləri olan, eqosentrik şəxsiyyət xüsusiyyətləri ilə fərqlənən məhkumlardır.

Autoaqressiv davranışın tədqiqatçılarının əksəriyyəti (D.Lester, B.Danto, I.B.Boyko, A.İ.Mokretsov və s.) həbsxanalardakı autoaqressiv təzahürlərin demonstrativ və şantaj cəhdləri olduğunu qeyd edirlər. Bu cəhdlər mahiyyət etibarilə, şəxsiyyətlərinə diqqət çəkmək, digər bir şəxs üçün ciddi problemlər yaratmaq, hər hansı bir eqoist məqsədə nail olmaq üçün "oynanılan" teatr tamaşalarıdır.

Y.Ansupov və A.İ.Şipilovun bir sıra tədqiqatlarına əsasən şəxsin demonstrativ-şantaj davranışının aşağıdakı sferaları müəyyənləşdirilmişdir: motivasion, affektiv, yönəldici və icraedici [2].

Autoaqressiv məhkumların motivasiya sferası vital motivlərin saxlanması, sosial təsdiq motivlərinin hipertrofiyası, çətinlikdən qaçış motivinin güclü olması xarakterikdir. Onlarda özünün çətinliklərinə başqalarının diqqətini cəlb edən və təqsirkarı nəyin bahasına olursa olsun cəzalandırma motivasiyası səciyyəvidir.

Affektiv sferada özünə infantil acıma, frustrasiya vəziyyətinə nifrət, müstəqil qərar vermənin vacibliyinə mənfi münasibət mövcuddur.

Oriyentasiya sferasında özünün qabiliyyətini kifayət qədər qiymətləndirməməsi, problemlərini həll etməyi, başqalarının diqqətini intihar cəhdi ilə yönləndirməyin lazım olduğu qənaətinə gəlir. Suisidentin özünün təhlükəsizliyi baxımından intihar cəhdinin vaxtı, şərtləri və vasitələri dəqiqləşdirilir.

İcraedici sferada intihar cəhdləri demonstrativ ifadələrdə özünü göstərir. Ətrafdakılara təsir etmək istəməsi jestikası, poza və mimikasında ortaya çıxır. Suisident təhlükəsizliyini nəzərə alaraq əvvəlcədən hazırlanmış plana uyğun hərəkət edir.

Məhkumlarda intihar riskini müəyyən edən elm adamları A.İ.Mokretsov, V.Q.Petruşkov, S.A.Kapunkin iki faktor inteqral analizindən istifadə etməyi məsləhət görüblər: suisidogen və antisuisidogen.

Suisiogen faktorlar bölünür:

a) Qrupla: sosial demoqrafik (cins, yaş, peşə və ailə statusu, anamnezində qanunsuz hərəkətlərin olub-olmaması); tibbi (bu və ya digər psixi patologiyanın mövcudluğu);
b) Şəxsi-situativ: konfliktləri (lokalizasiyası, məzmunu, fokusu, dinamikası); indi və keçmişdə suisidal cəhdlərin təzahür dərəcəsi.
c) İndividual-şəxsi: ilkin məlumat (şəxsin suisidogen üsulu, dezadaptasiyanın səviyyəsi); intihara

yaxın suisidentin mövqeyi və vəziyyəti; intiharın təzahürü (intihar meylinin dərinliyi və aktivliyi).

Antisuisidogen amillər yaxınları, valideyn öhdəliyi ilə sıx emosional bağlılıq; borc hissi; sağlamlığının qayğısına qalmaq; ictimai rəydən asılılıq, başqalarının qınağından qaçmaq; həyat planı və gələcək perspektivin olması ilə əlaqəlidir.

Fikrimizi yekunlaşdıraraq qeyd etmək lazımdır ki, autoaqressiya aqressiv davranışın formalarından biridir. Autoaqressiyanı digər destruktiv davranışlardan fərqləndirən əsas göstəricilər bunlardır: müəyyən bir hədəfin olması, məqsədə gedən yol barədə məlumatlı olmaq, planlaşdıran hədəfə çatmaq üçün iradi səyin olması, özünün sağlamlığına ziyan vurması ilə bağlı aqressiv ünsürün olması.

Autoaqressiv davranışla bağlı aparılan tədqiqatların təhlili göstərir ki, insanın autoaqressiv niyyəti şəxsin daxili psixoloji xüsusiyyətləri ilə yanaşı daxili və xarici motivləri ilə də müəyyən edilir. Məhkumlar hər hansı məqsədinə nail olmaq üçün xəstəliklərini simulyasiya və aqqravasiyasından birlikdə, müəyyən "fayda" əldə etmək və digərlərindən üstünlüyü nümayiş etdirmək yolu, təqlid obyekti olmaq üçün bu davranışı icra edirlər.

## NƏTİCƏ

Nəticə etibarı ilə, məhkumların autoaqressiv davranışına belə tərif vermək olar: Autoaqressiya – bu fəaliyyəti proqnozlaşdıran, şüurlu icra edən, istənilən nəticəyə hazır olan fərdin özünə fiziki zərbə vurmasıdır. Bu davranış cəzaçəkmə müəssisəsinə gəldiyi vaxtdan-adaptasiyanın ilkin mərhələsində daha çox baş verir ki, bunu da psixoloji tədbirlər aparılan zaman nəzərə almaq vacibdir. Bundan başqa, məhkum cəzanın çəkilməsinin son mərhəhələsində-azadlıqda yaşamaq üçün plan hazırladıqda da autoaqressiya risk faktoru olur. Buna səbəb sosial əhəmiyyətli əlaqələrin olmaması və ya kəsilməsi, uzun müddət uzaqlaşdığı həyat şərtlərinə uyğunlaşa bilməmək, maddi zəminin olmaması, məhkumun təkrar sosiallaşmasıdır.

***Ədəbiyyat*:**

1. Амбрумова А.Г., Ратинов А.Р. Мультидисциплинарное исследование агрессивного и аутоагрессивного типа личности. // Комплексные исследования в суицидологии. М., 1986, с. 26–44.
2. Анцупов А.Я., Шипилов А.И. Конфликтология. М., 1999, с. 312.

3. Бойко И.Б. О самоубийствах в учреждениях уголовно-исполнительной системы России // Человек: преступление и наказание: Вестник Академии права и управления Минюста России. Рязань, 2001. № 1, с. 27.
4. Берковиц Л. Агрессия: причины, последствия и контроль. М., 2001, с. 333 - 335.
5. Волков В.Н. Медицинская психология в ИТУ. М., 1989, с. 152.
6. Гидденс Э. Социология. М,, 1999, с. 135–136
7. Глоточкин А. Д., Пирожков В.Ф. Исправительно-трудовая психология. Рязань, 1985, с. 311 -312.
8. Мелентьев М.П., Тищенко А.П. Предупреждение самоубийств среди лиц, осужденных к лишению свободы. Киев, 1994, с. 21.
9. Рабочая книга пенитенциарного психолога // Под ред. А.И. Мокрецова, В.П. Голубева, А.В. Шамиса. М., 1998, с. 74–75.
10. Ушатинков А.И., Казак Б.Б. Основы пенитенциарной психологии. Рязань, 2001, с.377.
11. Шахманов Р.А. Предупреждение самоубийств среди осужденных к лишению свободы (правовые и криминологические аспекты): Дис. канд. юрид. наук. Рязань, 2001, с. 205.

## PSYCHOLOGICAL FEATURES OF AUTOAGGRESSIVE BEHAVIOUR OF CONVICTS IN CORRECTIONAL INSTITUTIONS

***Asmar Aliyeva***

### ABSTRACT

The article examines the psychological features of autoaggressive behavior of convicts. The causes of autoaggressive and self-harming behavior are covered. The main types and methods of self-harm occurring in Corrective Institutions are affected. The reasons, goals and main motives for committing autoaggressive actions by convicts are revealed. They also classify 3 categories of autoaggressive manifestations of prisoners, focusing on the degree of expectations of convicts of the results of their actions.

Rəyçi M.H.Mustafayev, psixologiya üzrə fəlsəfə doktoru
Məqalə redaksiyaya 28 oktyabr 2020-ci ildə daxil olmuşdur

## R E D A K S İ Y A  H E Y Ə T İ

**Baş redaktor:**

Əliyev B.H. *(AMEA-nın müxbir üzvü, psixol.e.d., prof., Azərbaycan)*

**Baş redaktorun müavini:**

Seyidov S.İ. *(psixol.e.d., prof., Azərbaycan)*

**Məsul katib:**

Mustafayev M.H. *(psixol. üzrə fəls. d., Azərbaycan)*

## REDAKSİYA ŞURASI

Əliyeva K.R. *(psixol. e.d., prof., Azərbaycan)*
Əlizadə H.Ə. *(ped. e.d., prof., Azərbaycan)*
Əliyev R.İ. *(psixol. e.d., prof., Azərbaycan)*
Baxşəliyev Ə.T. *(psixol. e.d., prof., Azərbaycan)*
Qurbanova G.K. *(psixol. e.d., prof., Azərbaycan)*
Mehmet Engin Deniz *(psixol. e.d., prof., Türkiyə)*
Turan Akbaş *(psixol. e.d., prof., Türkiyə)*
Xudyakov A.İ. *(psixol.e.d., prof., Rusiya)*
Qədirova R.H. *(psixol. e.d., prof., Azərbaycan)*
Şəfiyeva E.İ. *(psixol. e.d., prof., Azərbaycan)*
İbrahimbəyova R.F. *(psixol. üzrə fəls. d., prof., Azərbaycan)*
Cabbarov R.V. *(psixol. e.d., dos., Azərbaycan)*



Redaksiyanın ünvanı: AZ 1069, Bakı şəhəri, Z.Bünyadov 38, II mərtəbə.
Telefon: 4390112, 5629961
Lisenziya: AV№022487. Qeydiyyat nömrəsi V 287, 19 aprel 1999-cu il.
Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi
www: psixologiyajurnali.az.
E-mail: psixologiyajurnali@gmail.com; psixologiyajurnal.az@bk.ru

Formatı 70x100 1/16. Fiziki çap vərəqi: 5,25.
Tiraj: 300. Sifariş 138.
Qiyməti müqavilə ilə.
“Təhsil” nəşriyyatının mətbəəsində çap edilmişdir.



**© “Təhsil”, 2020**